Azərbaycan Hüquq Jurnalı

№2-2023
ISSN 1810-9055

Baş redaktor:
h.e.d., professor *Ə.İ.Əliyev*

Redaksiya Heyətinin sədri
h.e.d., dosent *T.İ.Hüseynov*

Baş redaktorun müavini:
h.ü.f.d., *P.A.Bayramova*

Redaksiya Heyətinin üzvləri:
AMEA-nın müxbir üzvü, h.e.d., prof. *M.F.Məlikova*
h.e.d., prof. *N.H.Cəfərli*
h.e.d., prof. *İ.O.Quliyev*
h.e.d., prof. *Ə.H.Rzayev*
h.e.d., prof. *Ş.T.Səmədova*
h.e.d., prof. *K.N.Səlimov*
h.e.d., prof. *Ə.İ.Sadıqov*
h.ü.f.d., prof. *Z.A.Əsgərov*
h.e.d., prof. *V.A.Vasilyeva* (Ukrayna)
h.e.d., prof. *İ.N.Sopilko* (Ukrayna)
h.e.d., prof. *Y.L.Boşitskiy* (Ukrayna)
h.e.d., prof. *A.İ.Abdullin* (Rusiya)
h.e.d., prof. *V.A.Avdeyev* (Rusiya)
h.e.d., prof. *G.İ.Xubua* (Almaniya)
h.e.d., prof. *A.M.Əliyev* (Almaniya)
h.ü.f.d., dos. *F.B.Riehl* (Almaniya)
h.e.d., prof. *A.A.Sabitova* (Qazaxstan)

Məsul katib:
h.ü.f.d., dosent *A.N.İbrahimova*

Bu jurnal 2002-2012-ci illər ərzində gənc alim Elçin Qarabalovun redaktorluğu altında dərc edilmiş və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi nəticələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir. E.Qarabalovun vaxtsız vəfatından sonra jurnalın fəaliyyəti dayandırılmışdır. Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin təşəbbüsü ilə jurnalın dərci 2018-ci ildən bərpa edilmişdir. Məqsəd Azərbaycan hüquq elminin inkişafına töhvə vermək və onun beynəlxalq müstəvidə tanınmasına nail olmaqdır.

©Bakı Dövlət Universiteti, Hüquq fakültəsi, 2023

MÜNDƏRİCAT

KONSTİTUSİYA HÜQUQU

Rövşən İsmayılov

WRIT OF CERTİORARI AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDA MƏRKƏZLƏŞDİRİLMİŞ KONSTITUSIYA MƏHKƏMƏ NƏZARƏTİNİN TƏMİN EDİLMƏSİ VASİTƏSİ KİMİ (rus dilində).....5

İNFORMASİYA HÜQUQU

Gülnaz Rzayeva

QLOBAL İNFORMASİYA CƏMİYYƏTİNDƏ İNFORMASİYA İQTİSADİYYATI VƏ İNSAN HÜQUQLARINA TƏSİR ASPEKTLƏRİ.....12

CİNAYƏT PROSESSUAL HÜQUQ

Ənnağı Məmmədli

İSTİNTAQ SÖVDƏLƏŞMƏSİ İNSTİTUTUNUN İNKİŞAF TARİXİ BARƏDƏ BƏZİ QEYDLƏR..... 24

ƏQLİ MÜLKİYYƏT HÜQUQU

Əkbər Əliyev

RƏQƏMSALLAŞMANIN MÜƏLLİFLİK HÜQUQLARI VƏ MÜƏLLİFLİK HÜQUQ MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ 33

İNSAN HÜQUQLARI

Elnur Hümbətov

SOSİAL MEDİANIN İNSAN HÜQUQ VƏ AZADLIQLARINA TƏSİR ASPEKTLƏRİ.....43

BEYNƏLXALQ HÜQUQ

Zamiq Allahverdiyev

UŞAQLARIN SOSİAL, İQTİSADİ VƏ MƏDƏNİ HÜQUQLARININ MÜDAFİƏSİ ÜZRƏ BEYNƏLXALQ NORMALARIN MİLLİ TƏCRÜBƏYƏ TƏTBİQİ ÜZRƏ PROBLEMLƏR.....53

Ramin Əliyev

ƏRAZİ SEPARATÇILIĞI PROBLEMİNİN HƏLLİNƏ HÜQUQİ YANAŞMALAR 67

Məhparə Fətullayeva

MÜLKİ HÜQUQ VƏ AZADLIQLAR SAHƏSİNDƏ BEYNƏLXALQ STANDARTLARIN AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINA İMPLEMENTASİYASI..... 74

HÜQUQ VƏ İQTİSADİYYAT

Oktay Əfəndiyev

MÜASİR DÖVLƏTLƏRİN TİCARƏT VƏ NƏQLİYYAT FƏALİYYƏTİNİN BEYNƏLXALQ HÜQUQİ TƏNZİMİNİN BƏZİ PROBLEMLƏRİ HAQQINDA..... 79

Könül Ağayeva, Dağbəyi Allahverdiyev

DÜNYA SİYASƏTİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ 94

Rövşən İsmayılov. Writ of certiorari Amerika Birləşmiş Ştatlarında mərkəzləşdirilmiş konstitusiya məhkəmə nəzarətinin təmin edilməsi vasitəsi kimi // Azərbaycan Hüquq Jurnalı. 2023(№2), s.4-11

KONSTİTUSİYA HÜQUQU

WRIT OF CERTIORARI КАК СРЕДСТВО ОБЕСПЕЧЕНИЯ ЦЕНТРАЛИЗАЦИИ СУДЕБНОГО КОНСТИТУЦИОННОГО КОНТРОЛЯ В США

Ровшан Исмаилов*

Резюме

В настоящей статье делается попытка проанализировать текущую ситуацию в Верховном Суде США с точки зрения современных тенденций развития моделей конституционного контроля в мире. Основное внимание уделяется тем изменениям в полномочиях Верховного суда, которые являются знаковыми в аспекте постепенного сближения и размывания границ между американской и европейской моделями конституционного контроля. Речь идет, прежде всего, о движении в сторону отмены обязательной апелляционной юрисдикции, когда институт writ of certiorari стал применяться Судом в исключительных случаях при необходимости рассмотрения и разрешения актуальных конституционных вопросов. Обобщая значительное количество источников по законодательству о судах США и современной американской правовой доктрине, автор приходит к выводу о том, что в последние десятилетия Верховный суд США, используя предоставленное ему право свободного выбора дел минимизирует свою роль как суда общей юрисдикции и превращается в полноценный конституционный суд, то есть орган со специализированной юрисдикцией.

Ключевые слова: *европейская модель конституционного контроля, американская модель конституционного контроля, Верховный суд США, обязательная апелляция, writ of certiorari, централизация конституционного контроля в США*

Несмотря на свое значение для развития доктринальных представлений о конституционном контроле и широкую распространенность, идея о классификации контроля на основе тезиса о дихотомии моделей, складывающейся из американской и европейской разновидностей, представляется не вполне убедительной. В данном случае, можно говорить о так называемых эмпирических проблемах, так как эта идея не в состоянии дать удовлетворительное обоснование преследуемой цели, т.е. представить модели конституционного контроля таким образом, чтобы они адекватно отражали действующее позитивное право различных государств.

В частности, эволюция института конституционного контроля в США и Австрии, а также его учреждение в Германии и Италии (т. е. в тех странах на основе законодательства и практики которых и проводилось моделирование конституционного контроля на две разновидности в середине прошлого века[1]) привели к тому, что современное содержание основополагающих критериев, на базе которых проводилось противопостав-

* доктор философии по праву, судья Конституционного суда Азербайджанской Республики

ление моделей, свидетельствует, что система конституционного контроля действующая в США на современном этапе развития этого института соответствует американской модели не больше, чем системы контроля указанных европейских стран соответствуют европейской модели.

Организационный критерий [2, с.164] или критерий степени концентрации контроля представляется наиболее важным из различных элементов, используемых для разграничения моделей. Поэтому его исследование имеет решающее значение для критики подхода о дихотомии классических моделей.

В отношении действия данного критерия в американской системе конституционного контроля следует в первую очередь отметить, что традиционно она характеризуется диффузностью (децентрализованностью), то есть контроль осуществляется не специально созданным судом, а судами общей юрисдикции.

В этой связи, однако следует указать, что по мнению итальянского конституционалиста Лусио Пегораро, в США контроль изначально носил скорее централизованный характер. Для обоснования данного утверждения он ссылается на текст раздела 2 статьи 2 Конституции США, который наделяет Верховный суд первоначальной юрисдикцией по всем делам, касающимся послов, других официальных представителей и консулов, а также по делам, в которых штат является стороной. Как известно, Конституция изначально не содержала Билля о правах. Лишь после гражданской войны, юрисдикция судов была де-факто распространена на права и свободы. А до этого одним из основных проблем, разрешаемых Верховным судом, заключалась в том, как соблюсти конституционное разделение полномочий между властями штатов и Федерации. По мнению Л.Пегораро, фактически Верховный суд осуществлял централизованный контроль, являясь единственной инстанции по разрешению соответствующих споров. Истоки такого статуса Верховного суда по утверждению данного автора можно проследить в различных статьях Федералиста. В частности, в статье № 19 Мэдисон и Гамильтон указывают на (централизованные) механизмы разрешения споров между кантонами в Швейцарской конфедерации, в статье № 49 Мэдисон отмечает «Совет цензоров» в Пенсильвании, заседавший в 1783 и 1784 годах, а в № 80 Гамильтон упоминает Имперскую палату, созданную Максимилианом в конце XV века. И лишь позднее система конституционного контроля в США, по мнению Л. Пегораро, стала приобретать децентрализованный характер [3, с.23-24].

Как бы то ни было, важно указать, что такой процессуальный механизм, как *writ of certiorari* (приказ об истребования дела), трансформировал Верховный суд США к концу прошлого столетия в своего рода конституционный суд. Данный орган фактически эволюционировал таким образом, что все более явственно предстает как орган, осуществляющий почти

исключительно конституционное правосудие, постепенно ограничиваясь рассмотрением только наиболее актуальных вопросов, которые, как правило, являются конституционными.

В настоящее время ходатайство об издании приказа *certiorari* является практически единственным способом добиться проверки дела Верховным судом США. *Certiorari* означает «доставить материалы дела в вышестоящий суд», что обычно является первым шагом для проверки дела любым апелляционным судом. Реализуя свою дискреционную юрисдикцию *certiorari* в отношении тех дел, затрагивающих вопросы федерального права, которые поступают из нижестоящих федеральных судов и высших судов штатов, Верховный суд поддерживает верховенство федерального права, согласованность и единство его норм [4, с.309-310].

Следует учесть, что второй раздел статьи III Конституции США предписывает Верховному суду первоначальную юрисдикцию и апелляционную юрисдикцию [5, с.38]. В отношении определения вопросов, подпадающих под апелляционную юрисдикцию, Конституция наделяет Конгресс сравнительно широкой свободой усмотрения. В соответствии с этим, указанная юрисдикция была детально регламентирована разделами 22 и 25 Закона о судоустройстве 1789 года.

Согласно разделу 22 этого Закона Суд был наделен юрисдикцией по гражданским делам, посредством так называемого «приказа об ошибке» (*writ of error*), в отношении окончательных решений нижестоящих федеральных судов, если сумма спора превышала 2000 долл. Раздел 25, в свою очередь, наделял Суд юрисдикцией пересматривать, также путем выдачи судебного приказа об ошибке, решения Верховных судов штатов, если в деле возникал вопрос о федеральной Конституции. Конституционность последнего положения была подтверждена Верховным судом в 1816 г. в известном деле Martin v. Hunter's Lessee [6].

Отсутствие в законодательстве процессуального механизма, позволяющего Суду отклонять апелляции по своему усмотрению, привело к постепенному росту числа апелляций и, с течением времени, к их накоплению из-за задержки в их разрешении. Так, если в первое десятилетие функционирования суда (1791-1800 гг.) им было принято всего 67 решений [7], то к 1860 г. на его рассмотрении находилось 301 дело, в 1870 г. - 636, в 1880 г. - 1202, а еще десятилетие спустя число дел достигло 1800. Сложившаяся ситуация привела к прогрессирующим задержкам в рассмотрении дел, которые к 1890 году составляли уже три года, а также к неоднократным жалобам судей на перегруженность, которая не позволяла им нормально выполнять свои функции [8, с.1650].

Для исправления сложившейся ситуации Конгрессом был принят Закон об окружных апелляционных судах [9] известный также как Закон Эвартса [10, с.1-2], который впервые в Америке, хотя и в ограниченной

форме, ввел процедуру *certiorari*. В частности, по некоторым делам решения окружных апелляционных судов объявлялись окончательными, однако Верховный суд наделялся правом на издание приказа об истребовании дела по ходатайству одной из сторон.

Однако в процессе развития законодательной регламентации принятия Верховным судом США приказа об истребовании дела, наиболее значительные изменения произошли в 1925 году с принятием так называемого «Билля о судьях» [11]. Законопроект получил такое неофициальное название потому, что он был разработан судьями Верховного суда, а его Председатель Уильям Тафт энергично лоббировал его принятие [12, с.11].

В частности, в течение многих лет У.Тафт, стремился сократить обязательную апелляционную юрисдикцию Суда, параллельно расширив круг дел, принятие в производство которых решалось бы Судом дискреционно. В результате У.Тафт достиг своих целей. Согласно Закону, большинство решений федеральных апелляционных судов были признаны окончательными и, таким образом, могли быть пересмотрены только в порядке *certiorari*. Влияние Билля о судьях на изменение роли и концепции Суда было огромным. Обретенная «способность Суда устанавливать свою собственную повестку дня позволила ему «избавиться от давнего имиджа нейтрального арбитра и интерпретатора политики» и стать «активным участником формирования политики» [8, с.1661].

В последующие годы Конгресс продолжал вносить изменения в правила, регламентирующие процедуру *certiorari*, причем тенденция неизменно была в пользу сокращения обязательной юрисдикции Суда [12, с.13]. Более того, сами судьи (включая, например, бывшего Председателя Верховного суда У.Ренквиста) высказывались о необходимости дальнейшего расширения дискреционных полномочий Суда [13, с.970]. Наконец, Законом о судоустройстве 1988 г. [14] была практически отменена обязательная апелляционная юрисдикция Суда, что стало логическим завершением законодательных тенденций, начавшихся в 1891 г. [13, с.976-977].

В настоящее время апелляционная юрисдикция Верховного суда почти полностью носит дискреционный характер. Обязательная апелляционная юрисдикция Суда распространяется только на окончательные решения окружных судов в составе трех судей, которые требуются по закону для небольшой категории дел [15, с.104-119], и окончательные решения окружных судов, принимающих решения по некоторым антимонопольным делам в составе одного судьи [15, с.92].

В результате указанных реформ большинство дел рассматриваются Судом по процедуре *certiorari*. По состоянию на 1988 год, из 150 дел, рассмотренных Судом за судебный год, только 20% дел поступало в порядке обязательной апелляции [16, с.90]. За прошедшие годы эти показатели значительно уменьшились. Например, за судебный 2022 год Судом в порядке

обязательной апелляции было рассмотрено только одно дело [17]. Аналогичные показатели обнаруживаются в 2021 [18] и 2020 [19] гг. В 2018 [20] и 2017 [21] гг. таких дел было рассмотрено 3 и 4 соответственно, а в 2019 году [22] не рассмотрено вовсе.

Поэтому, фактически полная отмена обязательной апелляционной юрисдикции позволяет утверждать, что пересмотр решений нижестоящих судов стал вопросом сугубо судейского усмотрения и допускается Судом только тогда, когда, по его мнению, для этого есть особые и важные причины. По утверждению бывшего Председателя Верховного суда Уильяма Ренквиста, «было бы бесполезным дублированием этих функций, если бы Верховный суд США служил просто еще более высокой судебной инстанцией для исправления ошибок в делах, не затрагивающих никаких общезначимых принципов права… Суд, что вполне правильно, стремится выбрать из нескольких тысяч дел, которые ему ежегодно предлагается рассмотреть, те, которые касаются «нерешенных вопросов» федерального конституционного или статутного права, представляющих общий интерес» [23, с.268].

Таким образом, Верховный суд США, как и конституционные суды, все больше и больше проявляет себя как специализированный суд по вопросам, имеющим конституционное значение, а не как суд общей юрисдикции.

Верховный суд становится органом, который своими решениями формирует политику посредством выбора, толкования, политического обоснования и применения «норм... которые... влияют на работу правительства и на формирование всего общества в целом» [24, с.3]. Этим подчеркивается роль Суда как политического органа, что также сближает его с конституционными судами.

Законодательные реформы, практически сведшие на нет обязательную апелляционную юрисдикцию Суда, повлияли на характер представляемых и соответственно, рассматриваемых им дел. По утверждению Роберта Макклоски, начиная с 1937 г., Суд пытался разработать доктрину гражданских прав, которая отвечала бы американской традиции, основанной на свободе, но в то же время гармонировала бы с императивами политической реальности [25, с.209].

Эта попытка соответствовать реальности, в целом также предполагает осуществление судебным органом политической роли, что указывает на сходство между Верховным судом США и конституционными судами европейской модели. В самой трансформации роли, которую играет Верховный суд, может просматриваться схожесть этого органа с конституционными судами, ибо, как утверждает немецкий конституционалист Петер Хеберле, подразумевая в основном европейские конституционные суды, функция конституционной юрисдикции изменчива, гибка во времени и пространстве. Она может стать конституционнообразующей в зависимости

от того, на каком этапе развития находится конкретное правовое государство, гарантированию которого она способствует [26, с.160].

В соответствии с этой ролью Верховного суда США Роберт Даль рассматривает его не как строго юридический институт, поскольку, по его мнению, это означало бы недооценку его значения в американской политической системе, а как политический институт, или, другими словами, «институт принятия решений по спорным вопросам национальной политики» [27, с.279].

Такая эволюция Верховного суда США объясняет, почему в доктрине достаточно часто высказывают мнения о существовании сходства американского Верховного суда и европейских конституционных судов. В частности, Ральф Роговски и Томас Гаврон именуют Верховный суд конституционным судом и в отличие от М.Каппеллетти [28, с.142] считавшего, что Верховный суд США следует сравнивать не со специальными конституционными судами, а с высшими апелляционными судами европейских стран, отмечают, что Верховный суд вполне сопоставим с Федеральным конституционным судом Германии, особенно когда речь идет о функциональных и социологических аспектах [29, с.1-2]. А по утверждению американского профессора права юридической школы Колумбийского университета Джамала Грина, Верховный суд США является конституционным судом в той мере, в какой он решает вопросы публичного права и выполняет правоустанавливающую функцию [30, с.142].

Из изложенного можно прийти к выводу о том, что в последние десятилетия Верховный суд, в силу предоставленного ему права свободного выбора (*ad libitum*) дел, которые в итоге преимущественно касались вопросов конституционности, превращается в конституционный суд, т. е. орган со специализированной юрисдикцией. При этом параллельно, по сути, минимизируется его роль как суда общей юрисдикции.

Сноски:

1. Calamandrei P. La illegittimità costituzionale delle leggi nel processo civile. Padova, Cedam 1950

2. Сравнительное конституционное право. Редкол: Ковлер А.И., Чиркин В.Е. (Отв. ред.), Юдин Ю.А. М.: Манускрипт, 1996

3. Pegoraro L. El desarrollo de la justicia constitucional, la traición a Kelsen por parte de la doctrina académica y la venganza de Schmitt // Centenario de los tribunales constitucionales. Tomo 1. México, 2021

3. Бернам У. Правовая система США. Вып. 3. М., 2006

4. Соединенные Штаты Америки. Конституция и законодательные акты. М.: Прогресс-Универс, 1993

5. 14 U.S. (1 Wheat.) 304 (1816).

6. См. Dates of Supreme Court Decisions and Arguments. URL: https://www.supremecourt.gov/opinions/datesofdecisions.pdf.

7. Hartnett E. Questioning Certiorari: Some Reflections Seventy-Five Years after the Judges' Bill // Columbia Law Review. 2000. Vol. 100

8. Circuit Court of Appeals Act of 1891, 26 Stat. 826

9. Richman W., Reynolds W. Injustice on appeal: the United States Courts of Appeals in crisis. Oxford, 2013

10. Judiciary Act of 1925, Pub. L. No. 68-415, 43 Stat. 936

11. Provine D. Case Selection in the United States Supreme Court. Chicago: University of Chicago Press, 1980

12. Grove T. The Exceptions Clause as a Structural Safeguard // 113 Columbia Law Review. 2013. Vol. 113

13. Act of June 27, 1988, Pub. L. No. 100-352, 102 Stat. 662

14. См: Shapiro S., Geller K., Bishop T., Hartnett E., Himmelfarb D. Supreme Court practice: for practice in the Supreme Court of the United States. 10th ed. Arlington, 2013

15. Boskey B., Gressman E. The Supreme Court Bids Farewell to Mandatory Appeals // Federal Rules Decisions. 1988. Vol. 121

16. Supreme Court of the United States. Granted & Noted List. October Term 2022. Cases for Argument. URL: https://www.supremecourt.gov/orders/22grantednotedlist.pdf.

17. См.: URL: https://www.supremecourt.gov/orders/21grantednotedlist.pdf.

18. См.: URL: https://www.supremecourt.gov/orders/20grantednotedlist.pdf.

19. См.: URL: https://www.supremecourt.gov/orders/18grantednotedlist.pdf.

20. См.: URL: https://www.supremecourt.gov/orders/17grantednotedlist.pdf.

21. См.: URL: https://www.supremecourt.gov/orders/19grantednotedlist.pdf.

22. Rehnquist W. The Supreme Court: how it was, how it is. New York, 1987

23. Baum L. The Supreme Court. 4th ed. Washington, 1992. P. 3. Цит. по: Smith K. Certiorari and the Supreme Court Agenda: An Empirical Analysis //Oklahoma Law Review. 2001. Vol. 54

24. McCloskey R. The American Supreme Court. 2nd edition. Chicago, 1994

25. Häberle P. La jurisdicción constitucional en la fase actual de desarrollo del Estado constitucional // Teoría y Realidad Constitucional. 2004. № 14

26. Dahl R. Decision-making in a democracy: The Supreme Court as a national policy-maker // Journal of Public Law. 1957. Vol. 6

27. Cappelletti M. The Judicial Process in Comparative Perspective. Oxford, 1989

28. Rogowski R. and Gawron T. Constitutional Litigation as Dispute Processing: Comparing the U.S. Supreme Court and the German Federal Constitutional Court // Constitutional courts in comparison: the U.S. Supreme Court and the German Federal Constitutional Court. Edited by Ralf Rogowski and Thomas Gawron. New York: Berghahn Books, 2016

29. Greene J. The Supreme Court as a Constitutional Court // Harvard. Law Review 2014. Vol. 128.

WRIT OF CERTİORARI AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDA MƏRKƏZLƏŞDİRİLMİŞ KONSTITUSIYA MƏHKƏMƏ NƏZARƏTİNİN TƏMİN EDİLMƏSİ VASİTƏSİ KİMİ

Rövşən İsmayılov[*]

Xülasə

Məqalədə dünyada konstitusiya nəzarəti modellərinin inkişafının müasir tendensiyaları nöqteyi-nəzərindən ABŞ Ali Məhkəməsindəki mövcud vəziyyətin təhlil edilməsinə cəhd göstərilir.

[*] hüquq üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin hakimi

Burada əsas diqqət konstitusiya nəzarətinin Amerika və Avropa modellərinin tədricən yaxınlaşması, aralarındakı mövcud fərqlərin silinməsi səbəbindən onların fərqləndirilməsi meyarlarına yenidən baxılması kontekstində əhəmiyyətli olan ABŞ Ali Məhkəməsinin səlahiyyətlərindəki dəyişikliklərə yönəlib. Söhbət, ilk növbədə, məcburi apellyasiya yurisdiksiyasının tədricdən ləğv olunması və Məhkəmə tərəfindən yalnız aktual konstitusiya məsələlərini nəzərdən keçirmək və həll etmək zərurəti yarandıqda, writ of certiorari institutundan istifadə etməsindən gedir. Müəllif ABŞ məhkəmələri haqqında qanunvericiliyə və müasir Amerika hüquq doktrinasına dair xeyli sayda mənbələri ümumiləşdirərək belə nəticəyə gəlir ki, son onilliklərdə ABŞ Ali Məhkəməsi ona verilmiş azad seçim hüququndan istifadə edərək, özünün ümumi yurisdiksiya məhkəməsi rolunu minimuma endirir və tam hüquqlu konstitusiya məhkəməsinə, yəni ixtisaslaşmış yurisdiksiyaya malik ədalət mühakiməsi orqanına çevrilir.

Açar sözlər: *Avropa konstitusiya nəzarət modeli, Amerika konstitusiya nəzarət modeli, ABŞ Ali Məhkəməsi, məcburi apellyasiya, writ of certiorari, ABŞ-da konstitusiya nəzarətinin mərkəzləşdirilməsi*

WRIT OF CERTIORARI AS A MEANS OF ENSURING CENTRALISATION OF CONSTITUTIONAL REVIEW IN THE US

Rovshan Ismayilov[*]

Abstract

This article attempts to analyse the current situation of the US Supreme Court from the perspective of the current trends in the development of constitutional review models in the world. The main focus is on those changes in the Supreme Court's powers that are significant in terms of the gradual convergence and blurring of boundaries between the American and European models of constitutional review. First of all, we are talking about the movement towards the abolition of compulsory appellate jurisdiction, when the institution of writ of certiorari began to be applied by the Court in cases when it is necessary to consider and resolve topical constitutional issues. Summarising a considerable number of sources on the legislation on US courts and modern American legal doctrine, the author concludes that in recent decades the US Supreme Court, using the right of free choice of cases granted to it, has been minimising its role as a court of general jurisdiction and turning into a full-fledged constitutional court, i.e. a body with specialised jurisdiction.

Keywords: *European model of constitutional review, American model of constitutional review, U.S. Supreme Court, mandatory appeal, writ of certiorari, centralization of constitutional review in the U.S.*

∗Ph.D, Judge of the Constitutional Court of the Republic of Azerbaijan

İNFORMASİYA HÜQUQU

QLOBAL İNFORMASİYA CƏMİYYƏTİNDƏ İNFORMASİYA İQTİSADİYYATI VƏ İNSAN HÜQUQLARINA TƏSİR ASPEKTLƏRİ

Gülnaz Rzayeva*

Xülasə

Qlobal informasiya cəmiyyətinin formalaşdırılması prosesini sürətləndirən vacib amillərdən birini iqtisadi sahəyə xüsusi diqqət ayrılması təşkil edir. Bir tərəfdən, iqtisadi baxımdan zəif inkişaf, yəni maliyyə resurslarının kifayət qədər olmaması informasiyalaşdırma prosesinin də ləngiməsinə gətirib çıxarır. Çünki informasiyalaşdırma informasiya ehtiyatlarının formalaşdırılması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq, bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsinin optimal şəraitinin yaradılması üçün təşkilati, sosial-iqtisadi və elmi-texniki prosesdir.

Digər tərəfdən isə, cəmiyyətin üzvlərində maddi marağın oyadılmadığı bir şəraitdə istənilən inkişafa nail olmaq mümkün deyil. Məhz ona görə də bütün dövlətlər informasiya cəmiyyəti quruculuğu dövründə insan hüquqlarının yeni cəmiyyətə uyğun realizəsi üçün geniş imkanlar açır. Bütün bu kimi proseslər nəticə etibarilə, "rəqəmsal iqtisadiyyat", "informasiya iqtisadiyyatı", "elektron ticarət" və s. yeni anlayışların meydana çıxmasına gətirib çıxarmışdır. Həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilən tədbirlər kompleksi informasiya cəmiyyətində hüquq və azadlıqların asan realizə formaları üçün optimal şərait yaradır. Məqalədə bu məsələlər informasiya-hüquqi və iqtisadi aspektdən ətraflı şərh olunur, təklif və tövsiyyələr irəli sürülür.

Açar sözlər: *insan hüquqları, informasiya cəmiyyəti, informasiya iqtisadiyyatı, beynəlxalq-hüquqi tənzimetmə, milli-hüquqi tənzimetmə.*

I. Giriş

Qlobal informasiya cəmiyyətinin formalaşdırılması iqtisadi amillər nəzərə alınmadan qeyri-mümkün və səmərəsiz olardı. Bu baxımdan, informasiya iqtisadiyyatı informasiya cəmiyyətinin inkişafında əsas təkanverici qüvvə hesab olunur. Təsadüfi deyil ki, müasir hüquq ədəbiyyatında müəlliflər informasiya cəmiyyətini artıq iqtisadi reallıq kimi qiymətləndirirlər. Məsələn, informasiya cəmiyyətinin tarixini və xarakterik xüsusiyyətlərini şərh edən Y.Unal yazır: "İnformasiya cəmiyyəti bir abstraksiya deyil, iqtisadi gerçəkdir. Yeni informasiya texnologiyaları ənənəvi sənaye fəaliyyətinə tətbiq olunacaq, yeni fəaliyyətlərə, əməliyyatlara və məhsullara həyat verəcəkdir [4, s.133]." İnformasiya iqtisadiyyatı - informasiya və biliklərin istehsalı, emalı, saxlanması və yayılması üzrə fəaliyyət nəticəsində daxili məhsulların axınını təmin edən iqtisadiyyatı əhatə edir. İnformasiya iqtisadiyyatının formalaşması informasiya cəmiyyətinin aşağıdakı səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirir: İnformasiya iqtisadiyyatı inkişafın əsas formasına çevrilir; Daxili məhsulların axınında informasiya kommu-

* hüquq üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi

nikasiyalarının, məhsullarının və xidmətlərinin payı artır; Cəmiyyətin hərəkətverici qüvvəsi informasiya məhsulunun istehsalı ilə məşğul olur; İnformasiya əmtəəyə çevrilir, informasiya və bilik bazarı yaradılır və inkişaf edir; İnformasiya cəmiyyətində istehsal olunacaq məhsul kimi bilik və intellekt çıxış edir. İntellektual əməklə bağlı sənət sahələrini seçən insanların sayı günbəgün artır və s.

Qeyd olunanları nəzərə alaraq, informasiya iqtisadiyyatını informasiya cəmiyyəti quruculuğu kontekstində şərh etməyi, onlar arasında əlaqənin ikitərəfli xarakterini təhlil etməyi məqsədəmüvafiq hesab edirik. Çünki bir tərəfdən, informasiya iqtisadiyyatı informasiya cəmiyyətinin elementlərindən biri kimi çıxış edir. Digər tərəfdən isə, informasiya iqtisadiyyatı informasiya cəmiyyəti quruculuğuna bilavasitə təsir etməsi ilə xarakterizə olunur. Bütün bunlar isə yeni cəmiyyətdə iqtisadi hüquqların realizəsi üçün bilavasitə geniş imkanlar açır.

II. İnformasiya cəmiyyətinin qurulması üzrə beynəlxalq təcrübə və iqtisadi hüquqların təminatı

Qeyd etmək lazımdır ki, qlobal informasiya cəmiyyətinin qurulması üzrə beynəlxalq fəaliyyət ilkin dövrlərdən başlayaraq, iqtisadi sahənin inkişaf etdirilməsini vacib faktor kimi nəzərdə tuturdu. Hələ 22 iyul 2000-ci il tarixdə "Böyük Səkkizlik" dövlətləri tərəfindən qəbul edilmiş "Qlobal İnformasiya Cəmiyyətinin Okinava Xartiyası"nda [11] 3 əsas ideoloji element ayrılmışdı ki, bunlardan birincisi İKT-nin dünya iqtisadiyyatının inkişafının stimulu kimi elan olunması idi. Bununla yanaşı, Xartiyada sonrakı inkişafın təmin olunması məqsədilə bir neçə prioritet istiqamət müəyyən edilir: Siyasi, normativ və şəbəkə təminatı; Texniki uyğunlaşmanın yüksəldilməsi, əlyetərliyin genişləndirilməsi və xərclərin azaldılması; İnsan potensialının möhkəmləndirilməsi; Elektron-ticarətin qlobal şəbəkəsində iştiraka həvəsləndirmə.

Göründüyü kimi, sadalanan prioritet istiqamətlər hamısı iqtisadi inkişaf səviyyəsinin də yüksəldilməsini nəzərdə tutur.

Ümumi Avropa konfransının 7-9 noyabr 2002-ci il tarixində keçirilmiş nəticələrinə əsasən qəbul edilmiş "İnformasiya cəmiyyətinə doğru: prinsiplər, strategiyalar, prioritetlər adlı 2002-ci il Buxarest Bəyannaməsi"ndə [14] də "Elektron kommersiya fəaliyyəti: rəqabətin gücləndirilməsi və iş yerlərində keyfiyyətin yüksəldilməsi" prioritet istiqamət kimi ön plana çəkilmişdir.

2003-cü ildə Cenevrədə İnformasiya Cəmiyyəti Məsələləri üzrə Ümumdünya Sammitində qəbul edilmiş Prinsiplər Bəyannaməsinə [17, mad.1] müvafiq olaraq, informasiya cəmiyyətinin qurulmasında ən başlıca məqsədlərdən biri keçid iqtisadiyyatını yaşayan, inkişaf etməkdə olan və ya zəif inkişaf etmiş dövlətlərin də İKT-dən istifadə imkanlarını genişləndirmək və onların inkişafını təmin etməkdir. Şübhəsiz ki, qeyd olunan bütün məqsədlərin yerinə yetirilməsi üçün maraqlı tərəflər həm milli, həm də beynəlxalq səviyyədə həmrəy olmalıdırlar. Belə həmrəylik, tərəfdaşlıq və əməkdaşlıq olmazsa, informasiya cəmiyyətinin normal inkişafını təmin etmək mümkün deyil. Prinsiplər Bəyannaməsi də bunu bəyan edərək, "İnkişaf məqsədilə İKT-nin tətbiqi üzrə dövlət idarəetmə

orqanlarının və maraqlı tərəflərin birgə iştirakı" prinsipini müəyyənləşdirir. Bununla yanaşı, beynəlxalq və regional əməkdaşlıq prinsipinə də xüsusi önəm verilir. Çünki məhz bu prinsipə riayət olunması dünya dövlətləri arasında qlobal fərqlərin aradan qaldırılmasına kömək edə bilər. Prinsiplər Bəyannaməsinin 60-cı bəndində birbaşa olaraq, hər kəs üçün açıq olan qlobal informasiya cəmiyyətinin qurulması üzrə beynəlxalq və regional əməkdaşlıq inkişaf etdirilməli və bunun əsasında milli hüquqi tənzimetmə müəyyənləşdirilməlidir. Əgər söhbət qlobal bir cəmiyyətdən gedirsə, beynəlxalq əməkdaşlıq olmadan bu cəmiyyəti təsəvvür etmək mümkün deyil. Məhz bu prinsipin icrasının göstəricisidir ki, müxtəlif regionlar üzrə dövlətlər qarşılıqlı müqavilə və razılaşmalar imzalayır və İKT-nin inkişafı üzrə müxtəlif tədbirlər təşkil edirlər.

Tunis Sammitində (15 noyabr 2005-ci il) qəbul edilmiş "Tunis Öhdəliyi"ndə də İKT-nin tətbiqinin iqtisadi inkişaf üçün əsas rol oynadığı qeyd edilir, İKT-nin tətbiqi nəticəsində yaranan təhlükələrə qarşı səmərəli mübarizə aparmağın zəruriliyi vurğulanır. Eləcə də, informasiya cəmiyyətinin inkişaf səviyyəsini öyrənmək, rəqəmsal bərabərsizliyi aradan qaldırmaq üçün müvafiq monitorinq və qiymətləndirmənin həyata keçirilməsinə dair öhdəlik götürülürdü. "İnformasiya Cəmiyyəti üçün Tunis Proqramında" informasiya bərabərsizliyinin aradan qaldırılması üçün maliyyə mexanizmlərini müəyyənləşdirmək, İnternetin tənzimlənməsi məsələlərinə diqqəti artırmaq kimi məsələlər öz əksini tapmışdır. Bununla əlaqədar olaraq, bütün iştirakçılar informasiya əlyetərliyinin təmin olunması üçün birgə əməkdaşlığın xüsusi əhəmiyyətini bir daha təsdiq edir və sonda qarşıya qoyulan öhdəliklərin tamlıqla icra olunacağına inandıqlarını xüsusi vurğulayırlar. Bütün bu kimi öhdəliklərin müəyyən olunması mahiyyət etibarilə iqtisadi hüquqların təminatına xidmət edir.

Qeyd olunan beynəlxalq sənədlərin sayını artırmaq olar. Belə ki, qlobal informasiya cəmiyyəti quruculuğu davam etdirildikcə iqtisadi hüquqların realizəsinin daha yeni formaları meydana çıxır və bu da iqtisadi münasibətlərin hüquqi cəhətdən tənzimlənməsinə marağı artırır. Hətta, üçüncü nəsil hüquqların inkişafına yönəlmiş bir çox beynəlxalq normalar da iqtisadi inkişafın zəruriliyini nəzərdə tutur. Məsələn, 1986-cı ildə BMT Baş Məclisi tərəfindən qəbul edilmiş "İnkişaf hüququ haqqında" Bəyannamədə inkişaf hüququ ayrılmaz hüquq kimi tanınır və belə inkişaf eyni zamanda iqtisadi sferanı da əhatə edir [15, mad. 1].

III. İqtisadi fərqlilik və sosial münasibətlər

Vətəndaş cəmiyyəti qeyri-dövlət iqtisadi, siyasi, sosial, mədəni-mənəvi, dini-əxlaqi, ailəvi, milli və başqa münasibətlərin məcmusu olub, azad vətəndaşların və könüllü formalaşmış təşkilat və assosasiyaların dövlət hakimiyyət orqanları tərəfindən onların fəaliyyətlərinə birbaşa müdaxiləsi və özbaşına reqlamentləşdirməsi qanunla məhdudlaşdıran özünümüdafiə sferasıdır. Vətəndaş cəmiyyətinin mövcudluğu o zaman mümkündür ki, sosial əlaqələrin bütün sahələrində, o cümlədən, iqtisadi, siyasi, mənəvi sferalarda şəxsiyyətin yaradıcılıq imkanlarının aktiv təzahürü şəraitində münasibətlər yaranır. Qısa sözlə desək,

vətəndaş cəmiyyətində cəmiyyət dövlət üçün yox, dövlət cəmiyyət üçün fəaliyyət göstərir. Ona görə də dövlət öz informasiya siyasətini vətəndaşların maraqlarını nəzərə almadan həyata keçirərsə, nəticə etibarilə belə bir siyasəti uğursuz hesab etmək olar. Bununla bağlı, Fridrix Nauman Fondunun Şərqi Asiya və Şimali Afrika üzrə regional direktoru Ronald Meynardusun kiberoptimist və kiberpessimist yanaşmaya bölgüsünü qeyd etmək yerinə düşərdi. R.Meynardusa görə, kiberoptimistlər hesab edirlər ki, İKT-nin inkişafı vətəndaş cəmiyyətinə müsbət təsir göstərir. İnformasiya və biliklərin əlyetərliyi nəticə etibarilə, vətəndaş cəmiyyəti üzvlərinin bərabər səviyyədə cəmiyyətin bütün sferalarında iştirakını təmin edəcəkdir. İKT-nin tətbiqi demokratik ünsürlərin inkişafını da şərtləndirəcəkdir.

Kiberpessimistlər isə tam əksinə çıxış edərək, İnternetin əks təsirə malik olduğunu söyləyirlər. Onların fikrincə, İnternet varlılar və kasıblar, siyasi həyatda aktiv iştirak edənlər və etməyənlər arasında uçuruma gətirib çıxaracaqdır. Bu mövqenin tərəfdarları öz şərhlərini statistik göstəricilər əsasında sübut etməyə çalışırlar: İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının statistik məlumatına görə, XXI əsrin əvvəllərində 54,3% amerikalı hər gün İnternetdən istifadə edirdisə, Afrikada bu rəqəm 0,4% təşkil edirdi. İnkişaf etmiş dövlətlərin hegemonluğu onda özünü büruzə verir ki, kiberməkanda ingilis dilindən istifadə olunur [12]. Doğrudur, kiberpessimist mövqenin şərhini inkar etmək olmaz. Həqiqətən, müasir dünyada rəqəmsal bərabərsizlik hökm sürür. Lakin bu bərabərsizlik İKT-nin inkişafının və tətbiqinin nəticəsi deyil. Rəqəmsal bərabərsizliyin özünün səbəbləri qismində ənənəvi cəmiyyətdə mövcud olan fərqlilik və ənənəvi cəmiyyətin sərt, qeyri-obyektiv qanunları çıxış edir. Əksinə, informasiya cəmiyyətinin formalaşması və İKT-nin tətbiqində məhz həmin bərabərsizliyin aradan qaldırılması qarşıya məqsəd kimi qoyulmuşdur. Təsadüfi deyil ki, YUNESKO-nun hesabatlarında bilik cəmiyyətlərinin yaradılması ideyası, eləcə də mədəni irsin və linqvistik müxtəlifliyin qorunub saxlanması ilə bağlı məsələlər məhz İKT-nin tətbiqində bütün insanların bərabər iştirakının təminatına istiqamətlənmişdir. Bununla yanaşı, Prinsiplər Bəyannaməsində nəzərdə tutulan inkişaf məqsədilə İKT-nin tətbiqi üzrə dövlət idarəetmə orqanlarının və maraqlı tərəflərin birgə iştirakı prinsipi maraqlı tərəflər sırasında vətəndaş cəmiyyətini də tanıyır. Digər tərəfdən isə, müasir dövrdə İKT-nin vətəndaş cəmiyyətinin elementlərinə müsbət təsirini inkar etmək düzgün olmazdı. Əksər hallarda informasiyalaşdırma prosesi vətəndaşların aktivliyinin artırılması ilə nəticələnir. Məsələn, elektron səsvermənin köməyilə seçici aktivliyini artırmaq mümkün olur və s.

Beləliklə, sosial münasibətlərin inkişafı bilavasitə iqtisadi inkişafa söykənir və onlar arasında qarşılıqlı təsir ikitərəfli səciyyə daşıyır. Məhz ona görə də bəzi tədqiqatçılar ənənəvi cəmiyyətdə baş verən prosesləri ön plana çəkərək, mövcud sinfi fərqlərin informasiya bazarına təsirindən bəhs edirlər [13]. İqtisadi amilləri rəhbər tutan digər müəlliflər isə hər zaman onu sosial faktorlarla paralel şərh edirlər [5].

Sosial dövlət "vətəndaş-cəmiyyət-dövlət" münasibətlərinin yeni bir forması, daha yüksək səviyyəsi olub, hər bir vətəndaşın, onun ailə üzvlərinin həyatı və rifahı naminə layihələrə üstünlük verir, insanların öz potensial imkanlarını reallaşdırmaq üçün hüquqi və iqtisadi müstəvidə qanuni şərait yaradır. Sosial dövlət öz vətəndaşlarının sosial, iqtisadi, hüquqi və mənəvi azadlıqlarını təmin edir, cəmiyyət üzvləri arasında sosial bərabərsizliyi minimuma endirməyə çalışır. Unutmamalıyıq ki, məhz həmin sosial bərabərsizlik rəqəmsal bərabərsizliyi şərtləndirən amillərdən biri kimi çıxış edir. Ona görə də bütövlükdə informasiya sahəsində mövcud problemlərin həlli, o cümlədən informasiya hüquqlarının təminatı sosial dövlətin də inkişafını şərtləndirir. Digər tərəfdən isə, qeyd etməliyik ki, informasiya cəmiyyətinin formalaşması sosial transformasiyaya gətirib çıxarmışdır. Sosial transformasiya - sosial sistemlərin və institutların bir formadan başqa formaya keçid alması deməkdir. İnformasiya cəmiyyətində sosial transformasiya insanların İKT-nin inkişafı ilə bərabər yeni sistemə uyğun inkişafını əhatə edir. Beləliklə, qlobal informasiya cəmiyyətində sosial dövlət modeli də mövcud tempə uyğun inkişaf edir. "Tempora mutantur et nos mutamur in illis" prinsipi ilə öz dövlət siyasətini həyata keçirən respublikamızda sosial dövlət modelinin inkişaf perspektivləri açıq-aşkar müşahidə olunur. Təsadüfi deyil ki, həmin perspektivlər "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının əsas istiqamətləri sırasında ön plana çəkilmişdir.

İnformasiya cəmiyyətinin formalaşdırılması bütövlükdə cəmiyyət üzvlərinin aktivliyini nəzərdə tutduğu üçün "elektron vətəndaş" anlayışının məzmunu günbəgün genişləndirilir. İlkin dövrlərdə "e-vətəndaş" yalnız İnternetdən istifadə ilə əlaqələndirilərək şərh olunurdusa, hal-hazırda bu termin geniş məzmuna malik olub, 9 elementi əhatə edir ki, bunlardan biri də elektron ticarətdir. Elektron ticarət - malların elektron alışı və satışını əhatə edir. Elektron vətəndaş rəqəmsal alışın üstünlüklərini, eləcə də elektron satışın qanuni tərəflərini bilməklə, elektron iqtisadiyyatda istehlakçıya çevrilməyi bacarmalıdır. Təbii ki, xarici dövlətə və ya hər hansı bir mağazaya getmədən tələb olunan məhsulların ünvana çatdırılması istənilən vətəndaşın maraq dairəsinə çevrilə bilər.

E-vətəndaşlığın elementlərindən açıq-aydın görünür ki, ənənəvi olaraq, mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquq və azadlıqların fərqləndirilməsi informasiya cəmiyyətində də davam edir. Deməli, qlobal informasiya cəmiyyətinin formalaşması insan hüquq və azadlıqlarının zamanın tələbinə uyğun olaraq, inkişaf tempini müəyyənləşdirir. Məsələn, elektronlaşdırmanın təsiri əmək hüquqlarının realizəsində dəyişikliklərə gətirib çıxarmışdır. Elektron informasiya sistemlərindən istifadə hər bir kəsə öz əmək fəaliyyəti ilə bağlı məlumatları asanlıqla əldə etmək üçün əlverişli şərait yaradır. Bundan başqa, müasir cəmiyyətdə baş verən yeniliklər əmək münasibətlərinin distant əmək münasibətləri formasında inkişafına təkan vermişdir. Distant əmək münasibətlərində işin yerinə yetirilməsi, işin nəticəsinin təhvil verilməsi İKT-nin xüsusən, kompüter şəbəkələrinin və İnternet texnologiyalarının köməyi ilə həyata keçirilir. Belə ki, distant əmək münasibətləri şəraitində işəgötürən və işçi bir-birindən yüzlərlə

kilometr uzaqda ola bilər, İnternet isə bu halda işlərin nəticələrini göndərmək üçün vasitəçi rolunu oynayır, işəgötürənlə (sifarişçi ilə) işçi (icraçı) arasındakı pul hesablaşmaları bank, poçt və ya elektron ödəniş vasitəsilə həyata keçirilir.

Və ya başqa bir misal: Sahibkarlıq hüququ kimi vacib bir hüququn həyata keçirilməsi yeni şəraitə uyğun olaraq inkişaf edir, elektron ticarət, elektron ticarətin iştirakçıları kimi yeni anlayışların yaranmasını şərtləndirir. Müasir İKT-nin imkanlarından istifadə etməklə, iqtisadi hüquqlarını həyata keçirən hər bir kəs daha asan və sərfəli yollarla gəlir əldə etmək və ya istehlak tələbatlarını ödəmək imkanı qazanır.

Eyni zamanda, digər insan hüquq və azadlıqlarının da inkişafı bir çox iqtisadi institutları formalaşdırmış olur. Məsələn, insan inkişafının əsasında onun sağlamlığının qorunması dayanır ki, bunu ekoloji cəhətdən təmiz ətraf mühit olmadan təsəvvür etmək mümkün deyil. Məhz ona görə də yalnız fərdlərin deyil, xalqların toplu şəkildə sağlam ətraf mühitdə yaşamaq hüququ üçüncü nəsil hüquqlardan biri kimi tanınır. Bütün dünya üzrə ətraf mühitin qorunmasına istiqamətlənmiş tədbirləri əhatə edən "iqtisadiyyatın yaşıllaşdırılması" davamlı və insan potensialına əsaslanan inkişaf istiqamətində yeni tendensiya və çağırışları ("yaşıl istehsal", "yaşıl həyat tərzi", "yaşıl istehlak", "yaşıl davranış" və s.) meydana gətirmişdir. Fikrimizcə, qeyd olunan səbəblər ətraf mühitə dair informasiya almaq hüququnun xüsusi ayrılmasını və ayrıca bir qanunla tənzimlənməsini şərtləndirmişdir. Belə ki, "Ətraf mühitə dair informasiya almaq haqqında" 12 mart 2002-ci il Azərbaycan Respublikasının Qanunu ətraf mühitin vəziyyətinə və təbii ehtiyatlardan istifadəyə dair dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından, həmçinin məsul şəxslərdən tam, dəqiq, vaxtında informasiya almaqla bağlı yaranan münasibətləri tənzimləyir.

Qeyd olunanlar informasiya cəmiyyətinin formalaşdırılmasında iqtisadi faktorların rolunu və mühüm əhəmiyyətini bir daha təsdiq edir.

IV. Azərbaycan Respublikasında informasiya iqtisadiyyatının inkişafı üzrə tədbirlər və onların iqtisadi hüquqların təminatında rolu

Hər hansı bir yeni mühitdə iqtisadi məsələlər diqqətdən kənarda qalarsa, qarşıya qoyulan məqsədə nail olmaq qeyri-mümkün olar. Çünki iqtisadi stimullaşdırma istənilən inkişaf üçün əvəzedilməz əhəmiyyət daşıyır. Bu məqsədlə informasiya sahəsində dövlət siyasətinin istiqamətləri sırasında aşağıdakılar xüsusi mövqeyə malikdir:

- informasiya ehtiyatları, sistemləri, texnologiyaları və onların təminat vasitələri üzərində mülkiyyətin bütün formalarının inkişafına, informasiya məhsulları və xidmətləri bazarının formalaşmasına yardım edilməsi;
- informasiya məhsulları və xidmətləri bazarında informasiya münasibətlərinin subyektləri, o cümlədən xarici subyektlər tərəfindən inhisar fəaliyyəti və haqsız rəqabətin qarşısının alınması və yol verilməməsi.

Məhz azad bazar rəqabətinin olduğu bir şəraitdə informasiya sahəsinin inkişaf etdirilməsi real ola bilər. Ona görə də 2003-2012-ci illər üçün Milli Strate-

giya elektron iqtisadiyyat istiqaməti üzrə aşağıdakı tədbirlərin icrasını zərurət kimi müəyyənləşdirir: elektron ticarətin həyata keçirilməsi, elektron ödənişlərin geniş miqyasda istifadəsi üçün əlverişli şəraitin yaradılması; informasiya xidmətləri sahəsinin inkişaf etdirilməsi üçün əlverişli mühitin yaradılması; informasiya və kommunikasiya texnologiyalarının iqtisadiyyatın dövlət və özəl sektorlarında geniş tətbiq olunmasının stimullaşdırılması; biliklərə əsaslanan iqtisadiyyata keçid üçün şəraitin yaradılması.

Eyni istiqamətlər 2014-2020-ci illər üçün Milli Strategiyada da nəzərdə tutulmuşdur. Belə ki, "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"da ölkə daxilində cari vəziyyət ətraflı təsvir olunur. Strategiyaya görə, Azərbaycan Respublikasında İKT-nin inkişaf etdirilməsi üçün görülən işlər nəticəsində ölkənin ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası, sosial və iqtisadi fəaliyyətin yeni formalarının (e-hökumət, e-ticarət, distant təhsil və s.) təşəkkül tapması, informasiya və bilik bazarının yaradılması, iqtisadiyyatın müxtəlif sahələrində səmərəliliyin artırılması, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır. Dövlətin xüsusi diqqətində olan bu sahənin ölkə iqtisadiyyatının gələcək inkişafı üçün prioritetlərdən olduğu bəyan edilmiş və Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2013-cü il tarixli 2664 nömrəli Sərəncamı ilə 2013-cü il Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilmişdir.

Ölkədə rəqabətədavamlı və yüksək ixrac potensiallı, innovativ İKT sənayesinin inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu və "Yüksək Texnologiyalar Parkı" yaradılmışdır. Bu yeni qurumlar Azərbaycan Respublikası iqtisadiyyatının güclənməsinə, xarici investisiyaların cəlb edilməsinə və ölkədə İKT məhsullarının istehsalının genişlənməsinə, yeni yaranan şirkətlərin fəaliyyətinin təşkilinə və innovativ təşəbbüslərə ("start-up"lara) maliyyə dəstəyini və təşkilati dəstəyi təmin edəcəklər.

Azərbaycanın müasir informasiya təminatı və təhlükəsizliyi siyasəti hüquqi, təşkilati-texniki və iqtisadi metodlarla təmin olunur. Hüquqi metodlar informasiya sahəsində münasibətləri tənzimləyən normativ hüquqi aktların, informasiya təminatı və təhlükəsizliyi ilə bağlı normativ metodiki sənədlərin işlənib hazırlanması və qəbulunu nəzərdə tutur. Təşkilati-texniki metodlara informasiya-telekommunikasiya sistemlərinin normal fəaliyyətinə təhlükə yaradan texniki qurğuların, proqramların aşkarlanması və s. daxildir. İqtisadi metodlar isə informasiya təminatı və təhlükəsizliyinin təmin olunması sahəsində iqtisadi tədbirlərin görülməsi və onların maliyyələşdirilməsi ilə əlaqədardır [2, s.184].

Qlobal informasiya cəmiyyətinin formalaşması prosesində beynəlxalq əməkdaşlıq sahəsində də Azərbaycan Respublikasının rolu az deyil. Belə ki, 2004-cü ilin 25-28 noyabr tarixlərində Bakıda keçirilən Rəqəmli uçurum və bilik iqtisadiyyatı üzrə Bakı Bəyannaməsini qeyd etmək lazımdır. Bəyannamədə

göstərilir ki, Avrasiya regionunun gələcəyi "rəqəmli uçurum"un aradan qaldırılması və biliklərə əsaslanan iqtisadiyyata keçidi təmin edəcək fəaliyyət siyasətindən asılıdır. Bu siyasət biliklər iqtisadiyyatının imkanlarının hamıya açıq və əlyetər olmasıını, həmçinin onun asılı olduğu informasiya infrastukturunun təhlükəsizliyini, sağlamlığını və dayanıqlığını təmin etməlidir.

Hesab edirik ki, dövlətdaxili hüquqda əhalinin həvəsləndirilməsi sahəsində tədbirlərə daha çox diqqət yetirilməlidir. Çünki məhz həvəsləndirici tədbirlər nəticəsində cəmiyyətin sadə təbəqələrində İKT-yə maraq oyatmaq olar. Ona görə də ayrı-ayrı fərdlər arasında rəqəmsal bərabərsizliyin aradan qaldırılması üzrə həm ümumi, həm də xüsusi müxtəlif tədbirlər siyahısının müəyyənləşdirilməsi daha məqsədəmüvafiqdir. Azərbaycan Respublikasında biznes sektorunda İKT-nin tətbiqinin genişləndirilməsi və internet iqtisadiyyatının, o cümlədən elektron ticarətin inkişaf etdirilməsi, habel İKT və yüksək texnologiyalar üzrə "start-up" layihələrin dəstəklənməsi, kiçik və orta sahibkarların biznes proseslərində İKT-ni tətbiq etmələrinə kömək göstərilməsi və s. bu kimi tədbirlər insanlarda İKT-yə marağı artırır və bu sahədə uğurun əldə olunması statistik məlumatlardan açıq-aydın görünür.

Respublikamızda iqtisadi sahədə olan informasiyanın xüsusi önəm daşıması "Dövlət sirri haqqında" 7 sentyabr 2004-cü il tarixli AR Qanunun 5-ci maddəsində dövlət sirrini təşkil edən məlumatlar sırasında iqtisadi sahədə olan məlumatların daxil edilməsi ilə nəticələnmişdir. Həmin məlumatların yayılması, eləcə də digər sahələr üzrə dövlət sirrinin yayılması iqtisadi ziyan vrurulmasına da səbəb ola bilər. İqtisadi ziyan birbaşa və dolayı xarakterli olur. Məsələn, hərbi məlumatların yayılması nəticəsində dövlətin təhlükəsizliyinin təminatı sistemləri artıq öz əhəmiyyətini itirmiş olur və onların yenidən işlənib hazırlanması və təşkili böyük miqdarda maddi vəsait tələb edir ki, belə ziyan birbaşa səciyyə daşıyır. Dolayı ziyan isə dövlət sirrinin yayılması nəticəsində əvvəllər bağlanmış müqavilələrin iştirakçılarının Azərbaycan Respublikasına etimadının azalmasında və bir çox iqtisadi gəlir gətirən müqavilələrdən imtina etməsində özünü büruzə verə bilər.

V. Nəticə

I. İnformasiya cəmiyyəti quruculuğu əsas etibarilə, bütün cəmiyyət üzvlərinin informasiyalaşma prosesində aktiv iştirakını nəzərdə tutduğu üçün burada rəhbər prinsip əsas insan hüquq və azadlıqlarının təminatından ibarətdir. İqtisadi cəhətdən zəif inkişaf etmiş hər bir şəxs aktivliyi ilə xarakterizə oluna bilməz. Çünki hər şeydən əvvəl, insan yeni şəraitdən öz gəlir mənbələrini artırmaq məqsədilə istifadə edir. Bu baxımdan, informasiya iqtisadiyyatı informasiya hüququnun əsas tədqiqat obyektlərindən birini təşkil edir. Məhz informasiya cəmiyyətinin ona nə kimi töhfələr verdiyini anlayan cəmiyyət üzvü iqtisadi maraqlara daha çox üstünlük verir. Həmin maraqların hüquqauyğun olması iqtisadi hüquqların realizəsində vacib faktor hesab olunur. Bu baxımdan, "İnformasiya hüququ"

fənni çərçivəsində informasiya iqtisadiyyatı ilə bağlı problemlərin şərh olunması məqsədəmüvafiqdir.

II. Hesab edirik ki, dövlətdaxili hüquqda əhalinin həvəsləndirilməsi sahəsində tədbirlərə daha çox diqqət yetirilməlidir. Çünki məhz həvəsləndirici tədbirlər nəticəsində cəmiyyətin sadə təbəqələrində İKT-yə maraq oyatmaq olar. Ona görə də ayrı-ayrı fərdlər arasında rəqəmsal bərabərsizliyin aradan qaldırılması üzrə həm ümumi, həm də xüsusi müxtəlif tədbirlər siyahısının müəyyənləşdirilməsi daha məqsədəmüvafiqdir. Azərbaycan Respublikasında biznes sektorunda İKT-nin tətbiqinin genişləndirilməsi və internet iqtisadiyyatının, o cümlədən elektron ticarətin inkişaf etdirilməsi, habel İKT və yüksək texnologiyalar üzrə "start-up" layihələrin dəstəklənməsi, kiçik və orta sahibkarların biznes proseslərində İKT-ni tətbiq etmələrinə kömək göstərilməsi və s. bu kimi tədbirlər insanlarda İKT-yə marağı artırır. Məhz belə siyasətin nəticəsidir ki, ölkə daxilində vətəndaşlar müxtəlif sosial şəbəkələrdən istifadə etməklə alqı-satqı və s. kommersiya xidmətləri göstərir və ya bu xidmətlərdən istifadə edirlər. Lakin e-ticarəti tənzimləyən müxtəlif qanunların qəbul edilməsinə baxmayaraq, hələ də bu sahədə tənzimlənmə mexanizmində problemlər vardır və vergidən yayınma halları çoxluq təşkil edir. Bununla bağlı, yalnız Azərbaycanda deyil, bütün dövlətlərdə e-ticarətin subyektlərinin fəaliyyətinin vaxtaşırı monitorinqinin aparılması məqsədəuyğundur.

III. Həm beynəlxalq, həm də milli hüquq vətəndaşa bir çox iqtisadi hüquq və azadlıqlar vəd edə bilər. Lakin vətəndaş bu hüquq və azadlıqları realizə etmək bacarığına malik deyilsə, sonda effektiv nəticəni əldə etmək heç də mümkün olmayacaqdır. Belə bacarıqsızlıq isə yalnız iqtisadi bərabərsizlikdən irəli gəlmir. Cəmiyyətdə mövcud olan rəqəmsal bərabərsizliyin kökündə dayanan ənənəvi sosial, siyasi, irqi və s. fərqliliklər iqtisadi bərabərsizliyə də təsir göstərir. Məsələn, dövlət vətəndaşa e-ticarətin həyata keçirilməsi üçün geniş imkanlar yaradır və bu, azad sahibkarlıq hüququnun maneəsiz realizəsi deməkdir. Lakin sosial baxımdan fərqliliyin olması bəzi vətəndaşların ona verilən imkanlardan məlumatsızlığına, həmin imkanlardan istifadə etməməsinə gətirib çıxarır. Bütün bunlar isə nəticə etibarilə, dövlətin iqtisadi vəziyyətini mənfi xarakterizə edir. Qeyd olunanları nəzərə alaraq, informasiya iqtisadiyyatının müsbət tərəflərinin adi vətəndaşlara aşılanması ilə bağlı tədbirlər görülməlidir. İnformasiya iqtisadiyyatının müxtəlif aspektləri barədə orta təhsil müəssisələrində uşaqlara kiçik yaşlarından məlumatların çatdırılması da xüsusi əhəmiyyətə malikdir. Çünki artıq bir şəxsiyyət kimi formalaşmış müəyyən yaş həddinə çatmış şəxsə maaarifləndirmə tədbirinin tətbiqi ilə müqayisədə erkən yaşlarından insanlara belə tədbirlərin tətbiqi daha səmərəli nəticə verə bilər. Fikrimizcə, bu, həmçinin, informasiya iqtisadiyyatında baş verən bir çox hüquq pozuntularının da qarşısını ala bilər. Məsələn, e-ticarətin subyektinə çevrilən şəxs vergidən yayınma hallarından uzaq qaçmaq barədə vaxtında məlumatlandırılarsa, belə hallara az rast gəlinə bilər.

Həmçinin qeyd etməliyik ki, cəmiyyətin təxminən bütün üzvlərinin KİV-dən istifadə etməsi burada İKT ilə bağlı məlumatların yerləşdirilməsinə şərait yaradır. Lakin əhalinin heç də hamısı savadlı təbəqəyə aid deyil. Ona görə də sırf informasiya cəmiyyəti, informasiya iqtisadiyyatı, elektron dövlət problemləri ilə bağlı televiziya verilişlərinin hazırlanması o qədər də səmərə verməyə bilər. Bu baxımdan, fərdi xüsusiyyətləri nəzərə almaq daha düzgün olar. Müxtəlif kütlənin maraq dairəsinə uyğun olan televiziya və radio verilişlərində bilvasitə üsullarla və yorucu olmayan formada hər hansı bir məlumatın verilməsi ilə vətəndaşlarda informasiya sahəsinə marağın oyadılmasına nail olmaq mükündür. Burada həmçinin, onu da nəzərə almaq lazımdır ki, əhalinin müxtəlif təbəqələri KİV-in müxtəlif formalarından istifadə edir. Ona görə də təsir üsullarının yalnız televiziya və radio yayımı ilə məhdudlaşmayıb, bütün yayım formalarını əhatə etməsi daha uğurlu nəticələr verə bilər. Məhz ona görə Milli Strategiyalarda əhalinin maaarifləndirilməsi və teleişin tətbiqi informasiya cəmiyyətinin yarandığı gündən prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Burada yaşlı nəslin İKT-yə marağının artırılmasına da xüsusi diqqət ayrılır. Dünya təcrübəsində tətbiq olunan telefonlara müxtəlif mobil əlavələrin yüklənməsi, eləcə də yaşlı insanlar üçün yaradılan təhsil müəssisələrində (University of the Third Age) kompüter biliklərinin aşılanması kimi tədbirlərin respublikamızda da tətbiqi daha yüksək səmərə verə bilər. Nəticədə yaşlı nəslin təcrübi biliklərindən yararlanmaq və həmin bilikləri yeni şəraitə uyğun formada tətbiq etmək mümkündür.

Beləliklə, məhz iqtisadi inkişafın yüksək olduğu bir şəraitdə informasiya cəmiyyəti quruculuğu üzrə qarşıya qoyulan məqsəd və vəzifələri bütünlüklə yerinə yetirmək mümkün olur. Ona görə də həm beynəlxalq, həm də milli səviyyədə aparılan hüquqi, texniki və təşkilati tədbirlər planı qeyd olunan məqsəd və vəzifələrin icrasına xidmət istiqamətlənmişdir. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında deyildiyi kimi: "Qloballaşma şəraitində innovasiya fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə genişlənməsi ilə bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənir. Bu, əslində qloballaşmanın "müsbət yüklü" effektidir və getdikcə daha çox ölkənin innovasiya sahəsindəki nailiyyətlərdən, qabaqcıl texniki standartlardan və idarəetmədə yeni metodlardan yararlanmasına imkan verir. Proqnozlara görə, yaxın və nisbətən uzaq gələcəkdə dünya iqtisadiyyatında artım məhz bu amilin təsiri nəticəsində baş verəcəkdir".

İstinadlar:

1. Əliyev Ə.İ. İnsan hüquqları. Bakı: Hüquq ədəbiyyatı, 2013, 507 s.
2. Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı^ Zərdabi LTD, 2016, 700 s.
3. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti: Dərslik, Bakı: "Azərbaycan" nəşriyyatı, 2005, 631 s.

4. Yenal Ünal. Bilgi toplumunun tarihçesi. // Tarih Okulu, Sonbahar, 2009, Sayı V, s. 123-144

5. Суслов Д., Царик Ю. Информационное общество. Интеллектуальный клуб «Аркс» БГУ. http://www.contrtv.ru/common/1566/?search=%2

6. Chris, Dixon & David, W. Smith (2002). Economic and Social Development in Pacific Asia. Routledge, 2002, 231 p.

7. European Commission. eEurope: An Information Society For All. Communication on a Commission Initiative for the Special European Council of Lisbon, 23 and 24 March 2000, COM (99) 687 final, 8 December 1999, http://aei.pitt.edu/3532/

8. Fritz, Machlup. The Production and Distribution of Knowledge in the United States. Princeton University Press, 1962, 416 p.

9. Government of Canada. Building a more innovative economy. Produced by Industry Canada, 1994. http://publications.gc.ca/collections/collection_2016/isde-ised/C2-254-1994-1-eng.pdf

10. IT Strategy Headquarters. E-Japan Strategy, 2001. https://japan.kantei.go.jp/it/network/0122full_e.html

11. Okinawa Charter on Global Information Society. Adopted at the Group of Eight (G-8) Summit in Late July 22, 2000. https://www.mofa.go.jp/policy/economy/summit/2000/documents/charter.html

12. Ronald, Meinardus. The Political Impact of the Internet. Business World Internet Edition, Manila: Published in two Parts: March 26, 2003, and March 27, 2003. http://www.fnf.org.ph/liberalopinion/political-impact-of-the-internet.htm

13. Shiller Hebert I. Information Inequality: The Deepening Social Crisis in America. New York: Routledge 1995, 149 p.

14. The Bucharest Declaration. Towards an Information Society: Principles, Strategy, and Priorities for Action. Bucharest Pan-European Conference in Preparation of the World Summit on the Information Society, 9 November 2002. http://www.unesco.org/new/fileadmin/MULTIMEDIA/HQ/CI/CI/pdf/stategy_doc_bucharest_declaration.pdf

15. UN General Assembly. Declaration on the Right to Development. A/RES/41/128, 4 December 1986, 97th Plenary Meeting. http://www.un.org/documents/ga/res/41/a41r128.htm

16. UNESCO World Report. Toward knowledge societies. France: Imprimerie Corlet, Condé-sur-Noireau, 2005, 227 p.

17. World Summit on Information Society. Declaration of Principles - Building the Information Society: A global challenge in the new Millennium. Document WSIS-03/GENEVA/DOC/4-E (Geneva), 2003. http://www.itu.int/net/wsis/docs/geneva/official/dop.html

18. World Summit on Information Society. Tunis Agenda for the Information Society, 2005. http://www.itu.int/net/wsis/docs2/tunis/off/6rev1.html

INFORMATİON ECONOMY İN THE GLOBAL İNFORMATİON SOCİETY AND ASPECTS OF İTS İNFLUENCE ON HUMAN RİGHTS

Gulnaz Rzayeva[*]

Abstract

One of the essential factors for accelerating the process of global information society formation is economic development. On the one hand, poor economic development, namely the scare of financial resources, impedes the process of informatization. Needless to say, that the

[*] Ph.D. in Law, Baku State University

informatization is the organizational social-economic and scientific-technical process of creation of optimal conditions for ensuring corresponding rights and meeting the needs of citizens, state power bodies, municipal organizations and all forms of entities and organizations notwithstanding their legal institutional framework or types of ownership by formation, providing and using information resources.

On the other hand, it is complicated to achieve the desired progress while there is no induced economic interest among the members of the society. Bearing this in mind, governments in the process of maintaining the information society provide favourable conditions for securing human rights. As a result, such kind of initiatives brought to the limelight such definitions as following: "digital economy", "information economy", "electronic commerce", etc. The set of initiatives undertaken at the international and national levels creates the optimal environment for overcoming digital inequality and ensuring human rights in the global information society. In this article, the above-mentioned issues are considered from legal and economic perspective.

Keywords: *human rights, information society, information economy, international framework, national regulation.*

ИНФОРМАЦИОННАЯ ЭКОНОМИКА В ГЛОБАЛЬНОМ ИНФОРМАЦИОННОМ ОБЩЕСТВЕ И АСПЕКТЫ ЕЕ ВЛИЯНИЯ НА ПРАВА ЧЕЛОВЕКА

Гюльназ Рзаева[*]

Резюме

Одним из существенных факторов для ускорения процесса глобального формирования информационного общества является экономическое развитие. С одной стороны, слабое экономическое развитие, а именно, недостаточность финансовых ресурсов, препятствует процессу информатизации. Информатизация - организационный социально-экономический и научно-технический процесс создания оптимальных условий для обеспечения соответствующих прав и удовлетворения потребностей граждан, государственной власти, муниципальных организаций и всех форм предприятий и организаций несмотря на их юридическую организационную структуру или типы собственности формирования, обеспечения и использования информационных ресурсов.

С другой стороны, это сложно достичь желаемого прогресса, в то время как нет никакого вызванного экономического интереса среди членов общества. Принимая во внимание это, правительство в процессе поддержания информационного общества обеспечивает благоприятные условия для реализации прав человека. В результате такой вид инициативы приносит к центру внимания такие определения как «цифровая экономика», «информационная экономика», «электронная коммерция» и т.д. Набор инициатив, предпринятых на международных и национальных уровнях, создает оптимальную окружающую среду для преодоления цифрового неравенства и обеспечения прав и свобод в глобальном информационном обществе. В этой статье вышеупомянутые проблемы рассматриваются с информационно-правовых и экономических точек зрения.

Ключевые слова: *права человека, информационное общество, информационная экономика, международное регулирование, национальное регулирование.*

[*] доктор философии по праву, Бакинский государственный университет

CİNAYƏT PROSESSUAL HÜQUQ

İSTİNTAQ SÖVDƏLƏŞMƏSİ İNSTİTUTUNUN İNKİŞAF TARİXİ BARƏDƏ BƏZİ QEYDLƏR

Ənnağı Məmmədli*

Xülasə

Beynəlxalq vəziyyətdə artan gərginlik qlobal təhlükəsizliyə təhdidlərə və beynəlxalq xarakterli cinayətlərə qarşı mübarizənin səmərəliliyinə mənfi təsir göstərir ki, bu da, sosial təhlükəli təzahürlərə qarşı daxili vasitələrlə mübarizənin səmərəliliyinin artırılmasını tələb edir. Cinayət prosesinin bütün tarixində mütəşəkkil qrup şəkildə törədilmiş cinayətlərin açılmasının ən səmərəli üsullarından biri cinayət iştirakçılarından birinin hüquq-mühafizə orqanları ilə əməkdaşlığa cəlb edilməsi hesab olunur.

İstintaq sövdələşməsinin tarixinin öyrənilməsinin əsas məqsədi xronoloji ardıcıllıqla və konkret tarixi xüsusiyyətləri, inkişaf xüsusiyyətlərini nəzərə almaqla ayrı-ayrı ölkələrin cinayət prosesinin inkişafının əsas mərhələləri haqqında biliklər əldə etmək, milli hüquq sistemləri, onların hüquq institutları və normaları, hüquqi konseptual aparat və hüquqi təfəkkür bacarıqlarının formalaşdırılmasını öyrənmək və istintaq sövdələşməsinin gələcək perspektivlərini təhlil etməkdir.

Açar sözlər: *əməkdaşlıq barədə saziş, istintaq sövdələşməsi, təqsirin etirafı barədə əqd, məsuliyyətdən azad etmə, cəzanı yüngülləşdirən hallar.*

İstintaq sövdələşməsini bürokratiyanın ümumi prinsipləri baxımından izah edən sosioloqlar bəzən öz nəticələrini tarixi nümunələrlə əsaslandırırlar və eyni mənada onların məhkəmə zalının dinamikası nəzəriyyələri çox vaxt potensial olaraq tarixən təkzib olunur [13, s.28]. Eynilə, məhkəmə prosesinin davam etdiyi müddətdə bu ümumi mühakimə üsulunun istifadə olunduğu və daha da açıq şəkildə iqtisadi zərurət iddiasının olduğu qənaətinə gəlmək olarsa, istintaq sövdələşməsinin "iqtisadi zərurət" olduğu anlayışı inandırıcı ola bilər.

Şəxsiyyət, cəmiyyət və dövlətin qanunla qorunan mənafelərinə qəsd etmiş şəxsin həqiqi ifadələri nəinki baş verən ictimai təhlükəli əməllərin mənzərəsini bərpa etməyə və cinayətkar niyyətin həyata keçirilməsində hər bir şəxsin rolunu müəyyən etməyə kömək edir, həm də cinayətin qarşısını almaqla insanların həyatını xilas edir. Bununla bağlı beynəlxalq təşkilatlar cinayətkar qrupların üzvləri ilə hüquq-mühafizə orqanları arasında əməkdaşlığın təşviqinə yönəlmiş normalar qəbul ediblər. Təcrübə göstərir ki, təhlükəsizliyə real təhlükə olduqda, maddi hüququn ümumi normalarında nəzərdə tutulmuş cəzanın yüngülləşdirilməsi təminatları təqsirləndirilən şəxsləri istintaqla fəal əməkdaşlığa sövq etmək üçün kifayət etmir.

İstintaq sövdələşməsinin tarixinin öyrənilməsinin əsas məqsədi xronoloji ardıcıllıqla və konkret tarixi xüsusiyyətləri, inkişaf xüsusiyyətlərini nəzərə almaqla ayrı-ayrı ölkələrin cinayət prosesinin inkişafının əsas mərhələləri haqqında biliklər əldə etmək, milli hüquq sistemləri, onların hüquq institutları və normaları,

* doktorant, Səlyan Rayon Məhkəməsinin hakimi

hüquqi konseptual aparat və hüquqi təfəkkür bacarıqlarının formalaşdırılmasını öyrənmək və istintaq sövdələşməsinin gələcək perspektivlərini təhlil etməkdir.

Tarixin hər hansı bir aktual məsələyə məntiqi münasibətindən bəlkə də daha önəmlisi keçmişin mistik və emosional əhəmiyyətidir. Cinayət ədliyyə sisteminin ideal tipinin yaradılması barədə düşünərkən, istintaq sövdələşməsinin yeni bir hadisə olub-olmamasının xüsusi əhəmiyyəti yoxdur. Ancaq bu tarixi sual tez-tez emosional cavab doğurur.

Balo və Çetintürkün araşdırmalarına görə istintaq sövdələşməsinin ortaya çıxdığı hüquq sistemi, adət hüququnun üstünlük təşkil etdiyi İngiltərə kimi görünür. Bu təcrübənin İngiltərədə orta əsrlərdən bu günə qədər mövcud olduğu bildirilir [16, s.143]. Alkonun qeydlərində isə adət-ənənə hüququnun hakim olduğu ABŞ-da İngiltərənin müstəmləkəsi olduğu zamanlarda bəri istintaq sövdələşməsindən istifadə edildiyi də bildirilir [3]. Bununla belə, istintaq sövdələşməsi praktikasının ilk dəfə harada meydana gəlməsi ilə bağlı müəlliflər arasında fikir müxtəlifliyi mövcuddur.

1164-cü ildə İlgiltərədə dövlət-kilsə münasibətlərini tənzimləmək məqsədilə, Kral II Henry tərəfindən hazırlanan Klarendon konstitusiyalarında, təqsirləndirilən şəxsin öz təqsirini etiraf etməsi ilə mühakimə olunması müəyyən olunurdu. [5] "Etiraf" əslində Normanların İngiltərəni fəth etməsindən əvvəl də mümkün mühakimə etmə vasitəsi idi. [2, s.88]

İstintaq sövdələşməsi əvvəllər həmişə İngiltərə və Uelsdə bağlı qapılar arxasında aparılırdı. Cəzalara güzəşt, azaldılmış və ya daha az həcmdə ittihamlar vasitəsilə qeyri-rəsmi istintaq sövdələşmələri uzun müddət İngiltərə ədalət mühakiməsinin spesifik xüsusiyyəti olmuşdur. Bununla belə, dələduzluq, rüşvətxorluq və korrupsiya ilə mübarizə aparan ixtisaslaşmış məhkəmə orqanı (Serious Fraud Office) ilə razılaşdırılmış istintaq sövdələşmələri İngiltərə və Uelsdə ilk açıq şəkildə tənzimlənən və rəsmiləşdirilmiş istintaq sövdələşmələridir.

Fransız hüquqşünas Çarles Cottu, on doqquzuncu əsrin əvvəllərində İngiltərə məhkəmələrini müşahidə edərək Fransa hökumətinə təqdim etdiyi hesabatlarda istintaq sövdələşməsini belə izah edir: "Təqsirləndirilən şəxs sənəd və çeklər üzrə saxtalaşdırma və dələduzluq cinayətlərini törətməkdə ittihamı olunurdu və barəsində iki ittiham aktı hazırlanmışdı. Saxtalaşdırmaqda ittiham olunan təqsirləndirilən şəxs məhkəməyə gətirilən zaman, zərərçəkmiş qurumun vəkili təqsirləndirilən şəxsin müdafiəçisinə yaxınlaşaraq, ikinci ittiham aktı ilə razılaşıb-razılaşmadığını soruşdu. Birinci cinayətin cəzası ölüm, ikinci üçün nəzərdə tutulan sanksiya isə bir neçə il azadlıqdan məhrumetmə idi. Cottu qeyd edir ki, heç kim düşünməsin ki, bu sövdələşmə gizli olur. Onlar məhkəmədə xalqın, hakimin və andlı iclasçıların qarşısında sövdələşmə edirdilər. Əgər təqsirləndirilən şəxs təqsirini etiraf edərək, ittiham aktı ilə razılaşsa idi bu zaman onun barəsində daha az cəza təyin ediləcək cinayət əməli ilə ittiham olunacaqdı". [6]

Hal-hazırda Böyük Britaniyada istintaq sövdələşməsi təcrübəsi bir qədər fərqlidir. Müəyyən hallarda bu, hər iki tərəfin vəkilləri ilə məsləhətləşərək, hakimin cəzanı azaltması şəklində olur. Buraya hər iki tərəfin vəkilləri arasında rəsmi

müzakirələr daxil edilmir, hansı ki, təqsirləndirilən şəxs cəzanın azaldılmasına zəmanət verilməsi müqabilində təqsirini etiraf etmək qərarına gəlir. İstisna, hakimin təqsirləndirilən şəxsin özünü təqsirli bilib-bilməməsindən asılı olmayaraq, belə olduqda hökmün müəyyən formada olacağını və ya olmayacağını söyləməsinə icazə verilməlidir. Hökmlə bağlı belə bir müzakirə olduqda müdafiəçi onu təqsirləndirilən şəxsə izah etməlidir.

Buna görə də İngiltərə və Uelsdə istintaq sövdələşməsinə yalnız o halda icazə verilir ki, prokurorlar və müdafiə tərəfləri təqsirləndirilən şəxsin bəzi ittihamları qəbul edəcəyi və prokurorun qalan ittihamları geri götürməsi ilə razılaşsınlar.

Alsculer qeyd edir ki, instintaq sövdələşməsinin tətbiqi ilk dəfə İngiltərədə yaranıb, lakin bəzi müəlliflər bu institutun ABŞ-da meydana gələn bir yenilik kimi qələmə verirlər. [7] Hətta hüquq ədəbiyyatı bizə ən erkən iddia sövdələşmələrindən bəzilərinin Amerikada, 1692-ci ildə Salem cadugərlərinin məhkəmələri zamanı baş verdiyi, o zaman tqsirləndirilən cadugərlərə əgər təqsirlərini etiraf etsələr yaşayacaqları, lakin etməsələr edam olunacaqları barədə razılaşmaların mövcud olduğundan xəbər verir. [13]

Bu institutun yaranmasında ən mühüm sosial amillərdən biri Amerika cəmiyyətinin kapitalist mədəniyyətidir. Belə ki, istintaq sövdələşməsi tətbiqnin ortaya çıxdığı dövrlərdə prokurorların əlindəki işlərin sayı deyil, onların tamamladıqları işlərin sayı əhəmiyyətli idi. Odur ki, bu vəziyyət cinayət işini tez, sadə və dəqiq həll edən istintaq sövdələşməsi praktikasını daha az vaxtda daha çox fayda verən amilə çevirmiş və bu praktikanın prokurorlar arasında getdikcə geniş surətdə tətbiq edilməsinə səbəb olmuşdur.

Anglo-Sakson hüquq sistemli ölkələrdə cinayət-prosessual prosedurların sadələşdirilməsi tendensiyası qanunvericilikdə istintaq sövdələşmələrinin rəsmi tanınmasından daha əvvəl meydana gəlmişdir. Müasir hüquqi mənada "ədalətlə məşğul olmaq" anlayışı ABŞ-da 100 ildən çox əvvəl yaranmışdır. Belə ki, hələ 19-cu əsrdə təqsirləndirilən şəxs öz təqsirini boynuna alırdısa, sübutlar tədqiq edilmir və andlılar məhkəməsi buraxılırdı. [21, s.284]

Hələ 1839-cu ildə amerikalı hüquqşünas R. Molinin qeyd etdiyi kimi, Nyu-York ştatında cinayət məhkəməsi hökmlərinin 22%-i təqsiri etiraf etmə razılaşmaları əsasında çıxarılırdı, 1920-ci ildə isə cinayət işlərinin 80%-dən çoxu prosessual razılaşmalarla həll edilirdi. [4, s.626]

Bernamunun qeydlərinə görə təqsirləndirilən şəxslər təqsirli olduqlarını etiraf etməyi təklif etdikdə hakimlər təəccüblənirdilər. Bununla belə, hələ 1832-ci ildə, ictimai qaydanı pozanların təqsirlərini etiraf etsələr, daha az ağır cəzalar aldıqları halda bildikləri vaxt, Bostonda istintaq sövdələşmələri adi hala çevrilirdi. 1850-ci ilə qədər bu təcrübə ağır cinayətlər məhkəmələrinə yayıldı və bəzi ittihamların və ya prokurorla razılaşdırılmış digər razılaşmaların rədd edilməsi müqabilində müttəhimlərin təqsirini etiraf etmələri adi hala çevrildi. 1860-cı ilə qədər səciyyəvi olsalar belə, yalnız Vətəndaş Müharibəsi dövründə apellyasiya məhkəmələrində istintaq sövdələşmələri tətbiq olunmağa başladı. Həmin məhkəmələr, birinci instansiya məhkəməsi hakimlərinin istintaq sövdələşməsi ilə ilk

dəfə qarşılaşdıqları zaman ifadə etdikləri təəccüblə reaksiya verdilər və bəzən sövdələşmələrə əsaslanan hökmləri ləğv edirdilər.

Fridmen öz araşdırmalarında 1880-ci ildə Kaliforniyanın Alameda qraflığında istintaq sövdələşməsi izlərindən xəbər verir. Həmin əyalətin hakimləri hətta istintaq sövdələşmələrini "kreditləşdirməyin" yollarından danışırdılar. 18-ci əsrdə müqavilə üzrə istintaq sövdələşməsi təcrübəsini indiki vaxtla yaxından müqayisə etmək mümkün deyildi, lakin bir şey dəqiqdir ki, bundan sonra məhkəmə prosesində andlılar kollegiyasının rolunun azaldılması və prosessual sövdələşmələrin sayının artması tendensiyası müşahidə olunurdu. [11, s.141]

Həm Alsehuler, həm də Fridman, "təqsirin etirafı" nın on doqquzuncu əsrin ortalarında ortaya çıxmasını və 1900-cü ildən sonra istintaq sövdələşmələrində böyük artımı göstərən, istintaq sövdələşməsinin tarixi haqqında dəyərli məlumatlar təqdim edir. On doqquzuncu əsrin əvvəllərində cinayət hüququ Beccaria, Bentham və digər utilitar filosofların penologiyasına əsaslanırdı. Cəzanın əsas məqsədi çəkindirmə olduğundan, cəzalar cinayət törədənə deyil, cinayətə görə müəyyən edilməli idi. Əsrin sonunda cinayətkarı islah etməyə (sonradan reabilitasiya etməyə) çalışan fərdiləşdirilmiş sanksiyalar fəlsəfəsinə əsaslanan "yeni penologiya" meydana çıxdı. Cəzanı fərdə uyğunlaşdırmaq üçün "qeyri-müəyyən" cəzalar, həbsxana təsnifat sistemləri, yetkinlik yaşına çatmayanlar üçün məhkəmələr, gənc cinayətkarlar üçün müxtəlif cəzalar və təqdimat araşdırmaları kimi müxtəlif yeni prosedurlar tətbiq edildi. [18, s.405]

Amerikanın istintaq sövdələşməsinin tarixi qismən ona görə qaranlıqdır ki, əksər yerlərdə və yurisdiksiyalarda sövdələşmə 1960-cı illərin sonlarına qədər qeyri-münasib hesab edilirdi. [11, s.142] ABŞ`da bu təsisat "Şimali Karolina Alforda qarşı" (1970) presedentindən sonra adlandırılmışdır. Q.Alford birinci dərəcəli qətldə (ağır cinayət) ittiham olunurdu. İstintaq mərhələsində o, təqsirsizliyini qorumağa davam edərək ikinci dərəcəli qətli (xırda cinayət) etiraf etmişdi. Şimali Karolina Alforda qarşı işdə ABŞ Ali Məhkəməsi müəyyən etdi ki, təqsirləndirilən şəxs təqsirsizliyini qoruyaraq bilərəkdən və könüllü olaraq təqsirini etiraf edə bilər. Bu işdə ittiham tərəfi Alfordun evindən silahla çıxdığını, qurbanı öldürəcəyini və qurbanı öldürdüyünü iddia edərək evə qayıtdığını ifadə edən iki şahidi irəli sürdü. ABŞ Ali Məhkəməsi də Alfordun razılaşmasının "nolocontendereplea" ilə oxşar olduğuna diqqət çəkdi və "təqsirləndirilən şəxs təqsirini etiraf etməkdən imtina edərkən nolocontendere-ə gedə bilsəydi, o zaman Alfordun təqsirsizliyini sübut edərkən təqsirini etiraf etməsini qadağan etmək üçün heç bir səbəb yox idi." Ali Məhkəmə həmçinin Alfordun təqsirini qəbul etməsinin bu cinayətə görə maksimum müddətin neytrallaşdırılması üçün ağlabatan addım olduğunu nəzərə almağı tövsiyə edib və işə baxan məhkəmə mütləq bu addımı müsbət qiymətləndirməli olduğunu vurğulamışdır. [20, s.47]

İstintaq sövdələşməsi rəsmi olaraq 1971-ci ildə ABŞ Ali Məhkəməsinin Santobello Nyu-Yorka qarşı işi üzrə qərarı ilə rəsmiləşdirilib və bu qərarda istintaq sövdələşməsi "hüquqi həyatın zərurəti" kimi qəbul edilməlidir deyə qeyd olunur. [1, s.177]

Daha sonra 1974-cü ildə ABŞ Federal Cinayət Prosessual Qaydalarının 11-ci Qaydasına bütün cinayət işlərinin sadələşdirilməsinə, işə baxılmasında qərəzsizliyə, lüzumsuz məsrəflərin və gecikmələrin aradan qaldırılmasına səy göstərməyin zəruriliyini nəzərdə tutan düzəlişlər təsdiq edildi. [22, s.15]

Daha sonra, Bordenkircher-Hayes (1978) işində ABŞ Ali Məhkəməsi daha mübahisəli bir qərar verdi. Bu işdə prokuror mülkiyyət əleyhinə cinayət törətmiş təqsirləndirilən şəxslərin təqsirli bilinməsini və bir neçə il müddətinə azadlıqdan məhrum edilməsini tələb etsə də, təqsirləndirilən şəxs cəzanın çox olduğunu düşünərək təklifi qəbul etməiş və mühakimə olunmasını istəmişdir. Təqsirləndirilən şəxsin bu seçimindn sonra prokuror bildirdi ki əgər o, mühakimə olunmaq istəsə, prokuror məhkəmədən onun üçün daha ağır cəza təyin edilməsini tələb edəcək. Bu halda belə təqsirləndirilən şəxs mühakimə olunmağı seçmiş və sonda ağır cəzaya məhkum edimişdir. Prokurorun belə bir mövqeyi Ali Məhkəmə tərəfindən qiymətləndirilərkən hesab edildi ki, prokurorun təqsirləndirilən şəxsə öz təqsirsizliyini elan etmək hüququndan imtinasına inandırmaqda onun qanuni marağ var idi. Bu əsasla prokuror hər hansı qanunsuz hərəkət etməmişdir. O, prokurorun təqsirləndirilən şəxsə heç bir hədə-qorxu gəlmədiyini, işdə Konstitusiyaya zidd heç bir haln olmadığını qeyd etdi. Bununla da, ABŞ Ali Məhkəməsi təqsirləndirilən şəxs məhkəmədə mühakimə olunmaq istədiyni bildirdikdə prokurorun onu daha ağır cəza ilə hədələməklə etiraf almaq məqbul təcrübədir. Bu səbəbdən o, prokurorun daha ağır cəza tələb etməsinin də qanunauyğun olduğunu bildirmişdi [14].

Kolorado Ali Məhkəməsinin hakimi Uilyam Erickson yazırdı ki, "təqsiri etiraf etmək üçün ittihamlar və hökmlər üzrə güzəştlər bizim cinayət ədliyyə sistemimizin ayrılmaz hissəsidir və həmişə belə olmuşdur" [10, s.835]. İstintaq sövdələşməsinin aparıcı empirik tədqiqatının müəllifi D.J. Nyuman belə nəticəyə gəlir ki, istintaq sövdələşməsi yeni deyil; çox güman ki, cinayət məhkəmələri mövcud olandan bəri belə sövdələşmələr mövcud olmuşdur. [9, s.85]

Cinayət mühakimə icraatının əsas vəzifəsi cinayət hüquqi mübahisənin ədalətli həllindən ibarətdir. Bunu həll etmək üçün çəkişmə sistemi tərəflərin yaranmış mübahisəli vəziyyəti praktiki olaraq müstəqil şəkildə həll edə bilməsi və məhkəmənin köməyi və onun nəzarəti ilə hökmdə belə bir həqiqətə nail ola biləcəyi proseduru nəzərdə tutur.

Cinayət prosesinin optimallaşdırılması mexanizmləri arasında müasir cinayət prosesinə xas olan həddindən artıq formalizmi və bürokratikliyi aradan qaldıra bilən prosessual sövdələşmələrin təsis edilməsinə xüsusi diqqət yetirilir. İstintaq sövdələşməsi institutunun yaranması təkcə ABŞ-da cinayət işi üzrə məhkəmə prosedurlarının mürəkkəb xarakterinin nəticəsi deyil. Hüquq ədəbiyyatında belə fikirlər var ki, məhkəmənin ən mühüm vəzifəsi sosial münaqişələrin həlli olmasıdır. İşdə obyektiv həqiqətin müəyyən edilməsi ikinci dərəcəli əhəmiyyət kəsb edir, çünki bu, yalnız son əsas nəticəyə nail olmaq vasitəsidir. Əgər münaqişə hər iki tərəf üçün qənaətbəxş həll olunarsa, o halda cinayət işinin hallarını müəyyənləşdirməyə ehtiyac qalmır.

Sadələşdirilmiş məhkəmə prosedurları həm Anglo-Sakson, həm də Roman-German hüquq ailələrinin ölkələrində həyata keçirilir. Üstəlik, hər iki hüquq ailəsinin bu cür prosedurları bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. İki "fundamental" cinayət prosesi sistemi - çəkişmə və kontinental, "qarışıq" sistem kimi İngiltərə və Fransanın cinayət-prosessual sistemləri arasında əsas fərqlərdən biri ondan ibarətdir ki, vətəndaş cəmiyyətinin tarixən güclü olduğu İngiltərədə uzun müddət heç bir orqan, ictimai məqsədlər üçün, cinayət törədildikdən dərhal sonra cinayət haqqında məlumat toplamaq səlahiyyətlərini normal həyata keçirmirdi. Fransada tarixən dövlət maraqlarının müdafiəsi üçün nəzərdə tutulmuş mərkəzləşdirilmiş orqanlar mövcud idi, buna görə də ittiham aktı nüfuzlu ictimai gücə malik idi. [23, s.552]

Avropada isə istintaq sövdələşmələrinin tarixi inkişafı Amerikadan fərqlənir. Rusiya və Qərbi Avropanın hüquq sistemlərinin inteqrasiyası nöqteyi-nəzərindən Almaniyada istifadə edilən istintaq sövdələşməsi institutu diqqəti cəlb edir. Ənənəvi olaraq hər iki ölkənin cinayət mühakimələri təqsirsizlik prezumpsiyası, tərəflərin çəkişməsi və bərabər hüquqları, sübutların qiymətləndirilməsi azadlığı baxımından klassik məhkəmə sübut modeli baxımından yaxın olmuşdur.

Almanya cinayət ədliyyə sistemində daima qeyri-rəsmi formada razılaşmalar olub, lakin bu cür sövdələşmələrdə müntəzəm iştirakın maliyyə cinayətləri, vergidən yayınma, ekoloji cinayət və narkotiklərlə əlaqəli cinayətlər kimi irimiqyaslı proseslərdə müəyyən edildiyi güman edilir. 1982-ci ildə Detlef Deal Almaniyada genişmiqyaslı cinayət işlərində qeyri-rəsmi danışıqların ümumi təcrübəsini ətraflı təsvir edən məqalə dərc etdi. [8, s.545] O qeyd edir ki. "Aşağı Saksoniya əyalətində qərarların səksən faizindən çoxu mütəşəkkil cinayətkarlıq sahəsində qeyri-rəsmi razılaşmalara əsaslanır."

Cinayət ədlyyəsində qeyri-rəsmi sövdələşmlərdən istifadə edilməsi üçün şərait yaradan əsas prosedurlardan biri Cinayət Prosessual Məcəllədir. 1950-ci il tarixli Almanya Cinayət Prosessual Məcəlləsinin 153-cü maddəsində qeyd olunurdu ki, məhkəmənin və təqsirləndirilən şəxsin razılığı ilə prokurorluq müvəqqəti olaraq ictimai ittihamı irəli sürməkdən çəkinə bilər və eyni zamanda təqsirləndirilən şəxsə şərt və göstərişlər verə bilər. [17]

Ən azı qırx il ərzində qeyri-rəsmi sövdələşmələr Almaniyanın cinayət ədliyyə sistemində mühüm rol oynasa da, hüquq ədəbiyyatı göstərir ki, qeyri-rəsmi istintaq sövdələşmələrinin qanuniliyi çoxsaylı prinsiplər və müddəalarla bağlı çox mübahisəli sayılır. 1997-ci ildə Federal Ədalət Məhkəməsinin Dördüncü Senatı sövdələşməni cinayət prosessual sisteminə uyğunlaşdırmaq üçün əlamətdar qərar qəbul etdi. Cinayət-Prosessual Məcəllədə razılaşmanın qəbul edilə biləcəyi şərtlər yolverilməz elementlərin sərhədlərini müəyyən etməklə təqdim edilmişdir. Bu fundamental qərardan sonra çoxsaylı fərdi qərarlar qəbul edilmişdir.

Almaniya ilə müqayisədə İtaliya təcrübəsində istintaq sövdələşməsi üçün müsbət meyarlar göstərmək olar. İtaliyada da kontinental hüquq sistemi olduğundan, onların cinayət hüququ çərçivəsi ABŞ-da istifadə olunanlardan əhəmiyyətli dərəcədə fərqlənir. İtaliya qanunlarının əksəriyyəti presedentlərə daha az əhəmiy-

yət verilməklə asanlıqla məsləhətləşə və ya istinad edilə bilən məcəllələrdə təşkil edilmişdir.

Rusiya qanunvericiliyində istintaq södələşməsinin təzahürlərini norma kimi yalnız 19-cu əsrdə müşahidə etmək olur. Həmçinin bu fikri Kirsanov da dəstəkləyir və əlavə edir ki, Rusiyada cinayət prosesini tənzimləyən hüquq sisteminin yaradılması üçün başlanğıc nöqtəsi 20 noyabr 1864-cü ildə qüvvəyə minmiş Cinayət-Mühakimə İcraatı Nizamnaməsi olmuşdur. [19, s.8] Cinayət-Mühakimə İcraatı Nizamnaməsi ilk dəfə olaraq təqsirləndirilən şəxsin təqsirini etiraf etməsinin prosessual əhəmiyyəti problemini qaldırırdı.

Xüsusilə, məşhur rus kriminoloqu və ictimai xadimi M.V. Duxovski 1887-ci ildə Rusiya imperiyasında 39 min nəfərin məhkum edildiyini, onlardan 14 min nəfərinin törətdiyi əmələ görə təqsirli olduğunu, bununla bağlı onlara qarşı cinayət işlərinə məhkəmə icraatının qısaldılmış forması ilə baxıldığını müəyyən etmişdir. [19, s.8]

Rusiya ilə müqayisədə istintaq sövdələşməsi qərbdə daha qədim tarixə malikdir. Sövdələşmənin ilkin formaları məzmun və forma baxımından müasir istintaq sövdələşməsini çox ehtiva etməsə də, hələ Qədim Romada onun izlərinə rast gəlmək olur. Fikrimizcə, istintaq sövdələşməsinin tarixi inkişafına nəzər salanda daha səmərəli tətbiqini və təcrübəsini İngiltərədə olduğunu görürük. Bunun səbəblərini isə M.A. Çeltsov cinayət prosesinin tarixinin ən mühüm dövrlərini təhlil edərək qeyd edir ki, cinayət prosesinin təşkilinin müasir üsullarının əsas xüsusiyyətləri burjua-demokratik inqilabların başlanğıcı ilə əldə edilmiş, xüsusən də İngiltərədəki cinayət prosesi nəhayət ki, öz hüquqlarını itirmişdir. [24, s.846]

Yuxarıda deyilənlərə əsasən, aşağıdakı nəticələrə gəlmək olar:

1) həm ümumi hüquq sistemi (Böyük Britaniya, ABŞ), həm də kontinental (Belçika, Hollandiya, İspaniya, İtaliya, Almaniya, Fransa) dövlətlərinin cinayət mühakiməsi sadələşdirilmiş prosedurlar tətbiq edilir.

2) ümumi hüquq sisteminin dövlətlərində əməliyyat institutlarının formalaşması və inkişafı qeyri-rəsmi məhkəmə təcrübəsi əsasında həyata keçirilmiş, bunun nəticəsində bir sıra məhkəmə presedentləri hazırlanmışdır;

3) kontinental hüquq ənənəsində istintaq sövdələşmələri institutu anqlo-sakson təcrübəsinin qəbulu nəticəsində yaranır və buna görə də dövlətlərin hər biri bu institutun yalnız konstitusiya prinsiplərinə və hüquq ənənələrinə zidd olmayan elementlərini götürmüşdür;

4) cinayət işlərinə tam məhkəmə baxışının alternativ forması kimi cinayət prosessual formasının differensiallaşdırılması, o cümlədən cinayət prosesində əqdlərin təsisatının tətbiqi mövcud prosessual təminatları məhdudlaşdırmamalıdır

Cinayət prosesinin strukturunda, cinayət işlərinin həlli qaydasında baş verən dəyişikliklər sosial-hüquqi amillərlə bağlıdır. V.Pizzenin qeyd etdiyi kimi, prosesə məhkəmə baxışı prosedurlarının ən mürəkkəb olduğu yurisdiksiyalarda, xüsusən də ədliyyə sisteminin öz məhkəmə aparatından istifadə etmək imkanı olmadığı hallarda, məhkəmə prosesində istintaq sövdələşməsi təcrübəsi daha çox güclənir. [15, s.937]

İstinadlar:

1. Abraham. The Judicial Process: An Introductory Analysis of the Courts of the United States, England, and France/ Henry J -6 th ed. New York: Oxford University Press, 1993. 177 p.
2. Adams, H. Anglo-Sakson Hüququnda Esselər/ Lodge, E. Young, J. Laughlin, 1876. 285 s.
3. Alkon, C. Introducing Plea Bargaining into Post-Conflict Legal Systems, International Network To Promote The Rule Of Law- Research Memorandum, 2014
http://inprol.org/sites/default/files/publications/2014/introducing_plea_bargai ning_0.pdf
4. Burnham. US legal system. 2006. Issue. 3. 626p
5. Constitutions of Clarendon, 1164. Henderson, Ernest F. Select Historical Documents of the Middle Ages London-George Bell, and Sons, 1896.
https://avalon.law.yale.edu/medieval/constcla.asp
6. Cottu, C. On the Administration of Criminal Justice in England; And the Spirit- The Lawbook Exchange-1822
https://www.abebooks.com/Administration-Criminal-Justice-England-Spirit-Cottu/31228250099/bd
7. De Long. The Use of Plea Bargaining In The United States' Criminal Justice System/ Briana-In The School of Criminology: Simon Fraser University-2008
8. Detlef Deal. Aus der Praxis: Der Strafprozessuale Vergleich, 1982. 545 p.
9. Donald J. Newman. The Agnew Plea Bargain. 10 Crim. L. Bull, 1974. 90 p.
10. Erickson. The Finality of a Plea of Guilty. 48 Notre Dame Law, 1973. 839 p.
11. Friedman L. Introduction to American law. 1993. 141–142 p.
12. Heumann, M. Plea Bargaining. The Experiences of Prosecutors, Judges, and Defense Attorneys, 1978. 157 p.
13. Jon'a F. Meyer. Article: plea bargaining, The Editors of Encyclopaedia Britannica-2017
14. Neubauer. America's Court and Criminal Justice System/ David W. / Fradella, Henry F-Wadsworth Cengage Learning-Tenth Edition. United States. 2017
15. Pizzi W. Punishment and Procedure in the USA // New Law Journal. 1998-Vol. 148. 937 p.
16. Solmaz, Y. Amerika Birleşik Devletleri Ceza Hukuku Uygulamasında Savcı-Sanık Pazarlığı ve Türkiye'de Uygulanabilirliği/ Çetintürk, Ekrem- Gazi Üniversitesi Hukuk Fakültesi Dergisi-17(1-2)-2013. 1243-1292 s.
17. Strafprozeßordnung, 1950
https://www.ilo.org/dyn/natlex/docs/ELECTRONIC/82015/97990/F1944933040/stpo.pdf
18. Vasoli. Growth and Consequences of Judicial Discretion in Sentencing/ Robert H- 40 Notre Dame Lawyer 404-1965- 405 p.
19. А.Ю. Кирсанов. Досудебное соглашение о сотрудничестве. Анализ, практика, выводы. М. 2012. С.8
20. Дубовик Н. Сделка о признании вины» и «особый порядок»: сравнительный анализ // Российская юстиция. 2004-№ 4. 47 с.
21. Миттермайер К.Ю.А. Уголовное судопроизводство в Англии, Шотландии и Северной Америке. М.: Издание А. Унковского, Типография Грачева и компании, 1864. 284 с.
22. Федеральные правила уголовного процесса в судах США // Сборник ассоциации американских юристов – адвокатов // Законодательная инициатива для Центральной и Восточной Европы. 2000. 15 с
23. Фойницкий И.Я. Курс уголовного судопроизводства: в 2 т. / И.Я. Фойницкий. – СПб.: Альфа, 1996. Т.1. 552 с.
24. Чельцов-Бебутов М.А. Курс уголовно-процессуального права. Очерки по истории суда и уголовного процесса в рабовладельческих, феодальных и буржуазных государствах / М.А. Чельцов-Бебутов. СПб.: Равена, Альфа, 1995. 846 с.

SOME NOTES ON THE HISTORICAL DEVELOPMENT PROCESS OF PLEA BARGAINING

Annaghi Mammadli[*]

Abstract

The growing tension in the international situation has a negative impact on the effectiveness of the fight against threats to global security and crimes of an international nature, which requires increasing the effectiveness of the fight against socially dangerous manifestations with internal means. One of the most effective methods of solving crimes committed by an organized group in the entire history of the criminal process is the involvement of one of the participants in the crime in cooperation with law enforcement agencies.

The main goal of studying the history of investigative cooperation is to gain knowledge about the main stages of the development of the criminal process of individual countries in chronological order and taking into account specific historical features and development features, to learn about the formation of investigative cooperation in national legal systems, their legal institutions and norms, legal conceptual apparatus and skills of legal thinking, as well as analyze future prospects of investigative cooperation.

Keywords: *cooperation agreement, plea deal, plea bargain, release from responsibility, mitigating circumstances***.**

НЕКОТОРЫЕ ЗАМЕТКИ ИЗ ИСТОРИИ РАЗВИТИЯ ИНСТИТУТА СЛЕДСТВЕННОГО СОТРУДНИЧЕСТВА

Аннагы Маммедли[**]

Резюме

Растущая напряженность международной обстановки негативно влияет на эффективность борьбы с угрозами глобальной безопасности и преступлениями международного характера, что требует повышения эффективности борьбы с общественно опасными проявлениями внутренними средствами. Одним из наиболее эффективных способов раскрытия преступлений, совершенных организованной группой за всю историю уголовного процесса, является привлечение к преступлению одного из участников преступления во взаимодействии с правоохранительными органами.

Основной целью изучения истории следственного сотрудничества является получение знаний об основных этапах развития уголовного процесса отдельных стран в хронологическом порядке и с учетом конкретных исторических особенностей и особенностей развития, узнать о формировании следственного сотрудничества в национальных правовых системах, их правовые институты и нормы, правовой понятийный аппарат и навыки правового мышления, а также проанализировать будущие перспективы следственного сотрудничество.

Ключевые слова: *договор о сотрудничестве, сделка о признании вины, сделка о признании вины, освобождение от ответственности, смягчающие обстоятельства.*

[*] Ph.D Candidate, Judge of Sabail District Court of the Republic of Azerbaijan

[**] докторант, судья Сабаильского районого суда

ƏQLİ MÜLKİYYƏT HÜQUQU

RƏQƏMSALLAŞMANIN MÜƏLLİFLİK HÜQUQLARI VƏ MÜƏLLİFLİK HÜQUQ MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ

Əkbər Əliyev*

Xülasə

Müəlliflik hüququ yaradıcıllıq azadlığının əsas təminatlarından biri olmaqla yanaşı fundamental insan hüquqlarından biri olan əqli mülkiyyət hüquqlarına aid edilir. Müəlliflik hüququ münasibətlərinin tənzimlənməsi isə özünəməxsusluğu ilə seçilən spesifik münasibətlər kimi nəzərə çarpır. Son dövrlərdə informasiya texnologiyalarının sürətli inkişafı müəlliflik hüququna dair münasibətlərinin də xaraktercə köklü şəkildə dəyişməsinə səbəb olmuşdur. Qeyd olunan istiqamətdən yanaşaraq o da qeyd edilməlidir ki, müəlliflik hüququ obyektlərinin mühafizəsinin ənənəvi üsul və vasitələri onlayn mühitdə baş verən hüquq pozuntusuna səbəb olacaq cəhdləri üzrə mübarizədə effektiv hesab olunmur. Odur ki, rəqəmsal cəmiyyətin və kiberməkanın xüsusiyyətləri, subyektlərin spesifik xarakteristik cəhətləri, habelə informasiya texnologiyalarının inkişaf nəticələri nəzərə alınmaqla müəlliflik hüquqlarınn təmini və müdafiəsi üzrə yeni mexanizmlər formalaşdırılmalıdır. Məqalədə qeyd olunan xüsusatlar, habelə müəlliflik hüququ və informasiya texnologiyalarının qarşılıqlı əlaqələri və bir-birinə təsiri, rəqəmsal cəmiyyətdə müəlliflik hüquqlarının təmin və müdafiə edilməsi məsələləri araşdırılmışdır.

Açar sözlər: *müəlliflik hüququ, İnternet, rəqəmsal cəmiyyət, rəqəmsal məzmun, kreativ iqtisadiyyat, kreativ sənaye, kiberməkan.*

Müasir dövrdə elm və texnologiyanın sürətli inkişafı müxtəlif ictimai sferalarda köklü dəyişikliklərə səbəb olduğu kimi yaradıcıllıq fəaliyyəti sahəsi üzrə də təsirsiz ötüşməmişdir. Müəlliflik hüquq münasibətlərinin xüsusi xarakteri onların rəqəmsal dünyada mühafizəsi və təmini ilə bağlı məsələlərədə xüsusi yanaşma tələb edir. Məlumdur ki, müəlliflik hüququ obyektləri iqtisadi dəyərə malik olmaqla bir çox hallarda iqtisadi münasibətlərdə əsas mövqedə dayanan kateqoriya kimi çıxış edir. Rəqəmsallaşma və informasiya texnologiyalarının inkişafı, habelə kiberməkanın təşəkkülü digər hüquq münasibətlərində olduğu kimi müəlliflik hüquq münasibətlərində də dövlətlərarası əməkdaşlığı və xüsusi tənzimetmənin müəyyən edilməsini zəruri etmişdir. Müəlliflik hüququ obyektləri həm milli, həm də beynəlxalq bazarların əsas aktivi olmaqla iqtisadi münasibətlərin tənzimlənməsində də xüsusi diqqət ayrılan bir məsələ kimi nəzərə çarpır.

Rəqəmsallaşmanın sürətli şəkildə inkişafı və geniş yayılması artıq bir çox tendensiyaların dəyişdirmiş, rəqəmsal iqtisadiyyatın cəmiyyətdəki rolunu möhkəmləndirərək onu mərkəzi mövqeyə gətirmişdir. Bu da öz növbəsində mülkiyyət, əqli mülkiyyət və bu kimi iqtisadiyyatın əsasını və bir çox hallarda mənəbyini təşkil edən sahələrdə də köklü dəyişikliklərin əsası kimi çıxış etmişdir. Hüquq ədəbiyyatında qeyd edilir ki, müasir dövrdə rəqəmsal mühitdə yaradılan məzmun

* BDU Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının doktorantı, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin böyük məsləhətçisi

həm rəqəmsal iqtisadiyyatın əsası, həm texnoloji kateqoriya, həm də rəqəmsal iqtisadiyyat üzrə yaradıcılığın həyata keçirildiyi mühit kimi başa düşülə bilir. Bu isə müəlliflik hüquqları da daxil olmaqla əqli mülkiyyət anlayışının köklü dəyişməsinə və onun əhəmiyyətinin daha da artmasına səbəb olur. Bu həmçinin əqli mülkiyyətə dair yanaşmalarda da köklü dəyişikliklərin aparılmasını zəruri edir. [1, s.20] Qeyd olunan yanaşma ilə tam razılaşaraq qeyd edilməsi zəruridir ki, son dövrlərdə rəqəmsallaşma cəmiyyətin müxtəlif sferalarında çox sürətli şəkildə özünü biruzə verir. Odur ki, rəqəmsallaşmanın təsir etdiyi bütün sahələrdə dəyişikliklərin edilməsini zəruri etdiyi kimi, əqli mülkiyyət sahəsində, xüsusən də müəlliflik hüququ üzrə də rəqəmsal cəmiyyətin əsas elementləri nəzərə alınmaqla müvafiq dəyişikliklərin edilməsini zəruri edir.

Ədəbiyyatda rast gəlinən fikirlərdən birinə görə rəqəmsallaşma müxtəlif aspektlərdən müəlliflik hüququ sahəsinə də mühim təsir edir. Mülliflik hüququ obyektləri üzrə də rəqəmsallaşmanın sürətlənməsi bir sıra hallarla əlaqələndirilir. Müəlliflik hüququ obyektlərinin rəqəmsal ifadə edilməsi, onun say etibarı ilə çoxaldılması, yayılması, arxivləşdirilməklə saxlanılması və s. kimi faktorlar bu sahədə də rəqəmsallaşmanın xüsusi artan xəttlə inkişafının əsas səbəbi kimi çıxış edir. [2, s.59-60] Doğrudur rəqəmsallaşma həm əsərlərin yayılması, kütləvi ifası, ictimaiyyətə nümayiş etdirilməsi, əlçatanlığın təmin edilməsi baxımından rəqəmsal əsərlərə münasibətdə olduqca rahat imkanlar təqdim edir. Lakin belə olan halda uyğun hüquqi tənzimetmənin və ya təmin, müdafiə mexanizmlərinin müəyyən edilməməsi müəlliflik hüquqlarının pozulması hallarının dinamikasında artımın yaranmasına səbəb olacaqdır. Məhz bu rahat imkanlar vasitəsi ilə müəlliflər və ya hüquq sahibləri proses üzrə çəkəcəkləri xərclərini azaladaraq qənaət etmiş olsalar belə, rəqəmsal əsərlərdən qanunsuz istifadə edərək qənaət etmək, buna görə də həmin əsərələri müəlliflik hüquqlarını pozmaqla əldə eetməyə yönələn halların sayı çoxalmış olacaqdır.

Nəzərə alınmalıdır ki, rəqəmsallaşma və informasiya texnologiyalarının inkişafı çox sürətlə getdiyindən bəzən hüquqi tənzimetmənin ona uyğunlaşması mümkün olmur. Bu halı rəhbər tutularaq belə qənaətə gəlmək olar ki, müəlliflik hüququ daim texnologiyanı izləyir. Lakin bu o demək deyildir ki, bu istiqamətdə texnologiya dominant mövqe tutur. Bir qayda olaraq texnoloji inkişaf əsas etibarı ilə müəlliflik hüququ münasibətləri ilə bağlı olur. Çünki hər bir yeni texnoloji həll və ya qurğu əqli fəaliyyətin nəticəsini təşkil edir. Odur ki, bu iki kateqoriya daima bir-birlərinə təsir etməklə sonsuz dairə təsəvürrü yaradan bir əlaqədədirlər. (Bax. Şəkil 1.).

Şəkil 1.

Texnologiyalar və texnoloji alətlərin insanların həyatlarında tutduqları xüsusi əhəmiyyətli yer hamıya bəlli olan hal kimi qəbul edilir. Xüsusən də, "COVİD-19" pandemiyasında tətbiq edilən məhdudiyyətlərlə əlaqədar olaraq demək olar ki, informasiya texnologiyaları alətlərindən bütün sahələrdə və əhalinin əksəriyyətini əhatə edən istifadənin əsasını qoymuşdur. Ümumilikdə isə informasiya kommunikasiya texnologiyaları həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Habelə sürətli şəkildə gedən bu rəqəmsallaşma iqtisadiyyatda da mahiyyətcə dəyişiklikliyə əsas olmuşdur.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatı kreativ iqtisadiyyatda əsas diqqəti müəlliflik hüququna yetirir, səanyedə müəlliflik hüququ obyektlərindən istifədə üzrə göstəricilərə görə xüsusi təsnifləşdirmə həyata keçirir. [3] Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf üzrə Konfransı biliyə əsaslanan iqtisadiyyatla sıx bağlı olan kreativ iqtisadiyyatın yaradıcıllıq fəaliyyətinə əsaslanan bütün sahələri özündə ehtiva etdiyini qeyd edir. [4, s.1] Göründüyü kimi kreativ iqtisaiyyat ümumilikdə kreativ sənaye ilə bağlı olur. Kreativ sənaye isə yaradıcıllıq fəaliyyəti ilə bağlı sənaye olmaqla, özündə əsas komersiya dəyəri olan obyektlər kimi müəlliflik hüququ obyektlərini ehtiva edir.

Qeyd etmək olar ki, kreativ sənaye məhsul və ya xidmətlərinin ixracı üzrə göstəricilər iqtisadiyyatda mühim əhəmiyyətli mal və ya xidmətlərlə rəqabətə girə bilir. Son dövrlət isə xüsusən də kreativ xidmətlərin ixracı üzrə statistik göstəricilər son on il üçün müqayisəli təhlil olunsa artımın şahidi olmuş olarıq. (Bax Şəkil 2.)

2010-2020-ci illər üzrə Kreativ əmtəə və xidmətlərin qlobal səviyyədə ixracı

(Miyard ABŞ dolları)



Şəkil 2. [4, s.4]

Yuxarıdakı sxem bir daha kreativ sənayenin əhəmiyyətini vizual şəkildə nümayiş etdirir. Mövcud araşdırmaların birində haqlı olaraq biliklərə əsaslanan iqtisadiyyatın, kreativ sənayenin dəstəklənməsi və əqli mülkiyyətə əsaslanan sənayenin ümumi iqtisadiyyat kontekstində analiz edilməsi, əqli yaradıcılıq fəaliyyətinin nəticəsi olan iqtisadi kateqoriyaların mikroiqtisadi səviyyədə nəzərə alınması, əqli mülkiyyətlə informasiya texnologiyası arasında olan dinamikanının artırılması və müasir dövrdə mərkəzi mövqe tutan elektron kommersiya münasibətləri kontekstində əqli yaradıcılıq fəaliyyətinin nəticəsi olan rəqəmsal məzmunlara dair hüquqların təmin edilməsi müasir dövrdə əsas prioritet istiqamətlər kimi qeyd edilmişdir. [5, s.6] Yuxarıda təqdim olunan göstəricilər qeyd olunanlarla tam razılşmaq gərək olduğunu deməyə əsas verir. Həmin prioritet istiqamətlərindən biri kimi nəzərdə tutulmuş müəlliflik hüququ obyektlərinin makroiqtisadi səviyyədə nəzərə alınması olduqca zəruridir. Heç də sirr deyildir ki, bu gün müəlliflik hüququ obyekti olan elə əsərlər var ki onların iqtisadi dəyəri milyonlarla ABŞ dolları ilə qiymətləndirilir. Bu müəlliflik hüququ obyektlərinin qeyri-maddi olması səbəbindən onlara daha az diqqət ayrılması müasir dövrdə iqtisadiyyatın külli miqdarda ziyana məruzə qalmasına zəbəb ola bilər. Habelə elektron kommersiya münasibtələri çərçivəsində bugün bir çox əmtəə və ya xidmət məhz elə rəqəmsal əsərlərdir. Bunlara misal olaraq müxtəlif tətbiqetmələr, onlayn və ya video mühazirələr, rəqəmsal musiqi, rəqəmsal kitab və s. aid edilə bilər. Bunun özü də rəqəmsal cəmiyyətdə müəlliflik hüquqlarının təmin və müdafiə olunmasının əhəmiyyətinin daha bir əyani sübutudur.

Məhz bu səbəbdəndir ki, müəlliflik hüquqlarının tənzimlənməsinin rəqəmsal cəmiyyətin xüsusiyyətləri nəzərə alınmaqla mütləq şəkildə müəllif və ya hüquq sahiblərinin maraqlarını qorumağa yönəlməlidir. Çünki bir çox hallarda belə

obyektlərdən qanunsuz istifadə nəticəsində müəlliflərə və ya hüquq sahiblərinə külli miqdarda ziyan dəyir. Texxnologiyaların inkişafı nəticəsində meydana çıxmış həll və ya qurğuların qorunması da olduqca mühim bir məsələ olsa da burada diqqət yetirilməli olan əsas məqam rəqəmsal platformalarda və ya e-kommersiya münasibətlrində obyekt kimi çıxış edən əsərlərin rəqəmsal formasında mövcud olması halıdır.

Hüquq ədəbiyyatında qeyd edilir ki, müəlliflik hüququnun obyekti olan əsərlər sırasına rəqəmsal əsərlər də daxil edilir. Rəqəmsal forma əsərin obyektiv ifadə olunma formalarından biri kimi nəzərə alınır və bu cür əsərlərin yalnız onlayn mühitdə istifadə oluna bilinsə belə müəlliffin şəxsi, qeyri əmlak və əmlak hüquqlarının təmin edilməsi məcburi hal kimi müəyyən edilir. [6, s.12] Təkmil və hamılıqla qəbul edilmiş xüsusi hüquqi tənzimetmə modeli mövcud olmasa da ümumilikdə rəqəmsal formada mövcud olan əsərlərin özləri də əsərlər kateqoriyasına daxil olduğundan onlara müəlliflik hüququ normaları tətbiq edilir. Rəqəmsallıq əsərin ifadə olunma forması kimi özünü biruzə verir. Azərbaycan Respublikasının müəlliflik hüququ qanunvericiliyi üzərində məsələni izah etmək daha məqsədəmüvafiq olardı. Belə ki, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 2-ci hissəsi müəlliflik hüququnun şamil edildiyi həm açıqlanmış, həm də açıqlanmamış əsərlər üçün aşağıdakı obyektiv formaları müəyyən edir:

- yazılı;
- şifahi;
- səs, yaxud videoyazılma;
- təsviri;
- həcmli-fəzavi;
- digər formalar. [11]

Burada əsərin konkret obyektiv formaları ilə yanaşı ümumi mənada "digər formalar" kateqoriyasının müəyyən edilməsi məhz baş verən texnoloji yeniliklərlə müəlliflik hüququnun şamil edildiyi əsərlərin ifadə edildiyi yeni formaların meydana çıxmasına səbəb olur. Məlum haldır ki, normayaratma fəaliyyəti daha gec gedən və uzun prosedur olduğundan hər dəfə bu yeni formaların konkret şəkildə təsbit olunması üçün kifayət qədər uzun vaxt, prosesdur və resurs tələb olunur. Qanunvericiliyin bu formada təbitini isə müəyyən mənada uğurlu hesab etmək mümkündür. Ümumulikdə isə qanunvericilikdə müəyyən olunmuş normaları təhlil edərək qeyd edə bilərik ki, onlar qanunda müəyyən edilmiş konkret obyektiv formada mövcud olan müəlliflik hüququ olan obyektlərin mühafizəsi üçün xüsusi tənzimetmə müəyyən edir. Yeni və geniş yayılmış formalar isə bir çox hallarda bu normalar ilə tam, hərətərli şəkildə tənzimlənə bilmir. Bu isə özü-özlüyündə həmin obyektiv formada ifadə olunma halları artdıqca müəlliflik hüququ pozuntularının sayının artmasına, habelə maraqlı şəxslərin mənfəət və ya gəlirlərdən məhrum olmasına səbəb olur. Bu isə iqtisadiyyatın inkişafına, habelə insan hüquq və azadlıqlarının təmini və müdafiəsi üzrə dövlətlərin öz öhdəliklərini həyata keçirmə göstəricilərinə məfi təsir göstərir.

Rəqəmsal platformalar müəlliflik hüquq sahiblərinə bir çox mümkün imkanlar yaradır. Hüquq ədəbiyyatında qeyd edilir ki, insanlara rəqəmsal inkişaf nəticəsində əldə olunmuş texnoloji nəaliyyətlər olduqları yeri tərk etmədən məzmun yaratmaq və onu rəqəmsal sosial platformalar vasitəsi ilə yayılması imkanı verir. Adətən belə yayınlama qeyri-kommersiya xarakterli olaraq qəbul edilməlidir. [7, s.175] Bu fikirlə tam razılaşmaq doğru olmazdı. Çünki rəqəmsal texnoloji alət və vasitələr ilə yaradılan müəlliflik hüququnun aid edildiyi əsərlər heç də sadəcə qeyri-kommersiya məqsədi ilə yaradılmır. Əslində mahiyyət etibarı ilə artıq bir çox sahələrdə ənənəvi üsulla yaradılması nəzərdə tutulan əsərlər öz yerini texnoloji vasitələrdən istifadə ilə yaradılan və rəqəmsal formada ifadə olunan əsərlərə vermişdir. Buna konkret misallar da çəkmək olar. Bu istiqamətdə qrafika və dizayn əsərləri yaxşı nümunə ola bilərdi. Hətta bu gün verilən tapşırıqlar və əmrlər nəzərə alınmaqla süni intellekt tərəfindən belə əsərlərin yaradılmasını şahidi oluruq. Bundan əlavə olaraq musiqi əsərlərinin yaranması da xaraktercə artıq müəyyən mənada dəyişmişdir. Bir çox hallarda müasir incəsənət nümunələri hesab olunan müəlliflik hüququ obyekti olan mətnsiz musiqi əsərlərinin rəqəmsal texnologiyalardan istifadə ilə rəqəmsal yaradıldığının şahidi oluruq. Digər tərəfdən artıq rəqəmsallaşmanın memarlıq sənətinə də təsirsiz ötüşmədiyini qeyd edə bilərik. Bu isə rəqəmsal çertyojlar, şəhərsalma layihələri və ya digər memarlıq layihələrinin sayca artmasına səbəb olmuşdur. Qeyd olunan bütün bu hallar rəqəmsal platformnalardan istifadə ilə yaradılan, yayılan və ya saxlanılan əsərlərin heç də yalnızca qeyri-kommersiya məqsədi ilə həyata keçirilmədiyini demək üçün kifayətdir. Digər tərəfdən müasir dövrdə elektron kommersiya və ya ticarət münasibətləri kontekstində bir çox bərabərtərəfli bu münasibətlərin predmetini də ele rəqəmsal formada yarılan əsər təşkil edir.

Kiberməkanda istifadə edilən platformaların müxtəlifliyi və çoxluğu da müəlliflik hüquqlarının müdafiəsi mexanizmlərinin formalaşdırılmasını çətinləşdirir. Hüquq ədəbiyyatında qeyd edilmişdir ki, rəqəmsal platformalardan istifadə ilə aparılan ikitərəfli danışıqlarda müəlliflik hüququ obyektlərindən istifadə hallarında hüquqpozmaların qarşısının alınması və ya bu hüquqların təmin edilməsi çətin olsa da, şəbəkə istifadəçilərinin giriş icazəsi olduğu ictimai hissə və bölmələrdə bu pozuntuları aşkarlamaq daha rahat olur. [8, s.155] Ümumilikdə kiberməkandan yurisdiksiyanın müəyyən edilməsi olduqca çətin olduğundan bu prosesdə bir sıra hüquqi problemlər meydana çıxır. Müasir dövrdə müəlliflik hüquqları həm kiber hüquq münasibətləri çərçivəsində alt kateqoriya olaraq, həm də müstəqil şəkildə rəqəmsal platformalarda müəlliflik hüquqlarının təmin və müdafiə edilməsi üzrə dövlətlərin əməkdaşlığı yolu ilə təmin və müdafiə oluna bilər. Bu ən səmərəli çıxış yolu kimi görsənir. Bu üsulla dövlətlər qəbul etdikləri razılaşmalara uyğun olaraq müvafiq normaları daha da dəqiq şəkildə müəyyən edir, bu sahədə qarşılıqlı əməkdaşlıq edərək müəllif və ya hüquq sahiblərinin qanuni maraqlarını qoruyur, habelə iqtisadiyyatın da inkişafına öz töhfələrini vermiş olurlar.

Bu sahədə tətbiq edilməsi daha səmərəli bir vasitə isə kiberməkanda sayt, tətbiqetmə və ya platforma sahiblərinin üzərinə vəzifə qoyulması yolu ilə texniki imkanlardan istifadə etməklə qabaqlayıcı tədbirlərin görülməsidir. Belə ki, bu üsulla tətbiq edilən texniki üsul müəlliflik hüquq pozuntusuna səbəb ola biləcək hərəkətləri müəyyən edərək bloklaya bilir. Bununla bağlı süni intellektin istifadəsi ilə daha yaxşı nəticələr əldə etmək mümkündür. Bu prosesdə sayt, tətbiqetmə və ya platformaya yüklənən rəqəmsal məzmun müvafiq texniki imkanlardan istifadə etməklə saytda və ya platformada olan, ununla yanaşı əlçatan olan digər müəlliflik hüququ obyektləri ilə qarşılaşdırılır. Əgər təhlil nəticəsində həmin məzmunun müəlliflik hüquq pozuntusuna səbəb olduğu aşkar olunarsa ona əlçatanlıq dərhal məhdudlaşdırılır. Bununla da müəlliflik hüquq pozuntusunun qarşısı alınır və ya cəhd mərhələsindəcə buna icazə verilmir ki, bu da pozuntu olmadan prosesin yekunlaşdığını deməyə əsas verir.

Hüquq ədəbiyyatında rast gəlinən araşdırmalardan birində haqlı olaraq qeyd edilmişdir ki, rəqəmsallaşma və rəqəmsal texnologiyalar əsərlərin, xüsusilə də audio və audiovizual əsərlərin çoxaldılması və ümumilikdə ictimaiyyətə çatdırılması ilə əlaqədar məsələləri xüsusilə asanlaşdırmış, buna görə də müəlliflik hüququ sistemi kontekstində formalaşdırılmış mərkəzi rola sahib hüquqların müdafiəsi və təminində, habelə müəyyən edilməsi mexanizmlrində institusional dəyişikliyinə əsas olmuşdur. [9] Bu mövqe ilə razılaşaraq qeyd etməyi zəruri hesab edirik ki, xüsusən də rəqəmsal audivizual əsərlərin müəlliflik hüquqlarının pozulması son dövrlərdə xüsusilə geniş vüsət almışdır. Bu həm özünü İP TV-lərin retranslasiya həyata keçirməsi prosesi ilə, həm də müxtəlif saytlar üzərindən həyata keçirilməsi ilə baş verir.

Digər tərəfdən Ümumdünya Əqli Mülkiyyət Agentliyinin nəşrlərinin birində qeyd qeyd olunur ki, musiqi sənayesində rəqəmsallaşma prosesinin surətlənməsi bu sahədə müəlliflərin və hüquq sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların, habelə bu sahə üzrə informasiya texnologiya mütəxəsisslərinin və proqramçıların fəaliyyətinə xüsusi təsir edir. Rəqəmsal musiqiyə dair müəlliflik hüquqlarının müdafiəsi isə xüsusi yanaşma tələb edir. [10, s.57-59] Son dövrdə rəqəmsal musiqi platformalarının sayının artması və rəqəmsal musiqinin yayılmasının qısa müddət ərzində təmin edilməsi mümkünlüyü bu prosesi çətinləşdirir. Kiberməkdanda istifadəçilər istədikləri məlumatları əldə edə bildikləri kimi bu rəmsal müəlliflik hüququ obyektlərini də qanunsuz üsulla yaya və gəlir əldə edə bilirlər. Burada şəxsi mqəsdələr üçün həmin əsərlərə vicdanlı şəkildə çıxış edən şəxslərin hər hansı hüquqpozma törətməsi halı mövcud olmur. Çünki bu hal müəlliflik hüquqlarının qanunla məhdudlaşdırıldığı hallardan birinin təzahürü kimi nəzərə alınır. Lakin həmin rəqəmsal musiqi əsərini qeyri-hüquqi yollarla və vasitələrlə əldə edərək ictimaiyyətə çatdıran və bundan gəlir götürən sahibkarlar isə bir qayda olaraq həm mülki, həm də ictimai təhlükəlilik dərəcəsinə görə inzibati və ya cinayət məsuliyyəti daşıyırlar. Bu halın isə kiberməkanda baş verməsi bu hadisənin səbəbkarlarının məsuliyyətə cəlb edilməsi prosesini çətinləşdirir.

Ümumilikdə rəqəmsallaşma müəlliflik hüququ və müəlliflik hüququ münasibətlərinə həm öz müsbət təsirini, həm də mənfi təsirlərini göstərir. Təbiidir rəqəmsallaşma operativlik, şəffaflıq, rahatlıq, əlçatanlıq, qənaətlilik və s. baxımından olduqca əlverişli bir proses kimi nəzərə alınmalıdır. Lakin rəqəmsal məkanın sonsuz xarakteri, istifadəçilərinin identifikləşdirilməsi üçün xüsusi bilik və texnoloji avadanlıqların olması zərurəti, yaratdığı yurisdiksiya problemi bu məsələni bir qədər də çətinləşdirir.

Müəlliflik hüquq pozuntularına qarşı mübarizədə qeyd olunan istiqamətdə müəyyən preventiv addımlar atılması mümnük olsa da əlverişli və səmərəli idarəetmə mexanizminin müəyyən edilməsi olduqca vacib məsələdir. Burada görülməli olan tədbirləri bir neçə qrupda kateqoriyada cəmləşdirmək mümkündür. Belə ki, normayaratma fəaliyyəti, texnii mühafizə və müdafiə, habelə hüquqi mexanizmlərinin fromalaşdırılması, kiberməkan istifadəçilərinin maarifləndirilməsi və s. kimi faəliyyətlər fərqləndirilə bilər. Əvvəla normayaratma fəaliyyəti kontekstindəmüəlliflik hüququ və əlaqəli hüquqlar haqqında qanunvericilik rəqəmsal cəmiyyətin əsas xüsusiyyətləri nəzərə alınmaqla yenidən işlənməlidir. Habelə müəlliflik hüququnun şamil edildiyi əsərin ifadə edildiyi obyektiv formalara konkret növ "rəqəmsal" kateqoriyası əlavə edilməlidir. Habelə kibercinayətkarlıqla əlaqədar normaların müəyyən edildiyi qanunvericilik aktlarında müəlliflik hüququ və əlaqəli hüquqların pozulması sahəsində ictimai təhlükəli əməllər və bu əməllərə görə sanksiyaların müəyyən edilməsi zəruridir. Texnoloji həllər tətbiq etmə ilə müəlliflik hüquqpozuntularının qarşı fəaliyyətin təmin edilməsi də rəqəmsallaşmanın mənfi təsirlərindən müəllifləri qoruya bilər. Habelə kiberməkanda istifadəçilərin müəlliflik hüququ ilə əlaqədar məlumatlılıq səviyyəsinin artırılması üçün rəqəmsal platformalardan istifadə etməklə maarifləndirmə işinin aparılması cəmiyyətin əqli mülkiyyət mədəniyyətinin yüksəlməsinə və pozuntu törədilməsi hallarının azalmasına səbəb ola bilər.

Nəticə olaraq qeyd edə bilərik ki, rəqəmsallaşma müxtəlif sferalarda olduğu kimi müəlliflik hüququna və müəlliflik hüquq münasibətlərinə də təbiətən təsir etmişdir. Belə olan halda dövlətlər rəqəmsallaşma və texnoloji inkişafın xüsusiyyətləri nəzərə almaqla həm milli səviyyədə müxtəlif tədbirlər görməli, həm də kiberməkanda müəlliflik hüquqlarının təmin və müdafiə olunması üçün beynəlxalq əməkdaşlıq görmək üçün meyilli olmalıdırlar

İstinadlar:

1. İmanov K. "İnternet və müəlliflik hüququ: maraqların toqquşması və kompromisin axtarışı". Bakı, 2018, 20 s.
2. Peters M., "The challenge of copyright in the digital age", revista la propiedad inmaterial, Conferencia pronunciada en el Seminario Sociedad de la Información. Universidad Externado de Colombia, Bogotá, mayo de 2005, 59-67 pp., p. 59-60
3. WIPO (2015). Guide on Surveying the Economic Contribution of the Copyright-Based Industries. Available at https://www.wipo.int/publications/en/details.jsp?id=259 29.09.2023.
4. UNCTAD Creative Economy Outlook 2022, UN, Geneva, 2022, 14 p., p 1.

5. İmanov K., Müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları müasir mərhələdə. Bakı, 2018, 32 s., s.6

6. İmanov K. Rəqəmli şəbəkələrdə əqli mülkiyyət hüquqlarının idarə edilməsi, Bakı, 2019, 71 s., s.12

7. Fitzgerald B. Copyright 2010: the future of copyright law, COPYRIGHT LAW, DIGITAL CONTENT AND THE INTERNET IN THE ASIA-PACIFIC, Sydney University Press, 2008, 419 p., 173-187, p.175

8. Czetwertyński, S. Importance of copyrights in online society. Managerial Economics. 2017, Vol. 18, No. 2, pp. 147–163, p.155

9. Mihaly F., Copyright for the Digital Era: WIPO Internet Treaties, Columbia VLA Journal of Law and Arts, The Spring 1997 Horace S. Mangers Lecture

10. Butler S. Inside the global digital music market, WIPO, SCCR/41/2, 01.06.2021

11. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanunu https://e-qanun.az/framework/4167 22.09.2023

THE IMPACT OF DIGITALIZATION ON COPYRIGHT

Akbar Aliyev[*]

Abstract

Copyright is one part of intellectual property rights an it is accepted as one of the basic guarantees of creative freedom, as well as one of the fundamental human rights. The regulation of copyright relations is noticeable as specific relations distinguished by its uniqueness. In recent times, the rapid development of information technologies has led to a radical change in the nature of copyright relations. Approaching from the mentioned direction, it should be noted that the traditional methods and means of protection of copyright objects are not considered effective in the fight against attempts to cause infringement of rights occurring in the online environment. Therefore, taking into account the features of the digital society and cyberspace, the specific characteristics of the subjects, as well as the results of the development of information technologies, new mechanisms for the provision and protection of copyrights should be formed. İn the article the mentioned above , as well as the mutual relations and influence of copyright and information technologies, and the issues of ensuring and protecting copyright in the digital society have been researched.

Keywords: *copyright, Internet, digital society, digital content, creative economy, creative industry, cyberspace*.

ВЛИЯНИЕ ЦИФРОВИЗАЦИИ НА АВТОРСКОЕ ПРАВО И АВТОРСКО-ПРАВОВЫЕ ОТНОШЕНИЯ

Акбар Алиев[**]

Резюме

Авторское право принадлежит к правам интеллектуальной собственности, которые являются одной из основных гарантий свободы творчества, а также одним из основных прав человека. Регулирование авторско-правовых отношений рассматривается

[*] Ph.D. Candidate, Senior Advisor of the Intellectual Property Agency of the Republic of Azerbaijan

[**] докторант Кафедры ЮНЕСКО «Права человека и информационное право», старший советник Агентства интеллектуальной собственности Азербайджанской Республики

как специфические отношения, отличающиеся своеобразием. В последнее время бурное развитие информационных технологий привело к радикальному изменению характера авторско-правовых отношений. Подходя с указанного направления, следует отметить, что традиционные методы и средства защиты объектов авторского права не считаются эффективными в борьбе с попытками вызвать нарушение прав, происходящими в онлайн-среде. Поэтому с учетом особенностей цифрового общества и киберпространства, специфики субъектов, а также результатов развития информационных технологий должны формироваться новые механизмы обеспечения и защиты авторских прав. Исследованы особенности, упомянутые в статье, а также взаимосвязь и влияние авторского права и информационных технологий, вопросы обеспечения и защиты авторских прав в цифровом обществе.

Ключевые слова: *авторское право, Интернет, цифровое общество, цифровой контент, креативная экономика, креативная индустрия, киберпространство.*

İNSAN HÜQUQLARI

SOSİAL MEDİANIN İNSAN HÜQUQ VƏ AZADLIQLARINA TƏSİR ASPEKTLƏRİ

Elnur Hümbətov*

Xülasə

Dövrümüzün reallığı olan sosial media insanların qarşılıqlı ünsiyyəti və müxtəlif hüquq və azadlıqlarını realizəsi üçün rahat və maneəsiz virtual mühit olmaqla, hüquqi tənzimetmənin də obyektinə çevrilmişdir. İnsanların əksəriyyətinin istifadə etdiyi bir vasitə olan sosial media həm də müxtəlif hüquqların pozulduğu bir mühitdir. Ona görə də sosial media platformalarının insan hüquq və azadlıqlarının qorunması aspektindən təhlili aktual problem hesab olunur.

Məqalədə sosial mediaya dair müxtəlif yanaşmalar əlaqəli şəkildə təhlil olunmuş, sosial media ilə bağlı hüquqi problemlər ortaya qoyulmuş, onların həllinə dair təklif və tövsiyələr irəli sürülmüşdür.

Açar sözlər: *sosial media, onlayn media, virtual məkan, insan hüquqları, şəxsi toxunulmazlıq hüququ, məlumat azadlığı*

Giriş

Əhatə dairəsinə və sürətinə görə ənənəvi kütləvi informasiya vasitələri ilə müqayisə olunmayan İnternet cari dövrdə hər kəsin istədiyi mövzuda, istədiyi zaman və limitsiz olaraq istənilən məlumatı paylaşa bildiyi bir məkanın formalaşmasına səbəb olmuşdur ki, bu sosial media adlanır. Sosial media anlayışı həyatımıza 2000-ci illərdə Web 2.0 texnologiyasının inkişafı ilə daxil olmuş və təxminən 20 il ərzində milyardlarla insan tərəfindən istifadə edilmişdir. Kepios komandasının ətraflı təhlili göstərir ki, 2023-cü ilin oktyabr ayında dünyada 4,95 milyard sosial media istifadəçisi vardır ki, bu da ümumi dünya əhalisinin 61,4 faizinə bərabərdir. Sosial media istifadəçilərinin sayının artması dinamikası müşahidə edilir. Belə ki, son 12 ay ərzində 215 milyon yeni istifadəçi sosial mediaya qoşulmuşdur. Bu rəqəm hər saniyədə orta hesabla 6,8 yeni istifadəçinin daxil olduğu 4,5 faiz illik artıma bərabərdir. [9]

Qeyd olunan statistik göstəricilər sosial medianın cəmiyyət həyatına necə nüfuz etdiyini bir daha təsdiq edir. Bu da sosial mediada insan hüquq və azadlıqlarının qorunması məsələsini gündəmə gətirir.

Sosial media anlayışı və ona hüquqi yanaşma

İnternet kimi sosial media anlayışının da ümumi qəbul edilmiş tərifi yoxdur. Ümumilikdə, sosial mediaya dair şərh bildirən mövqeləri dörd qrupda təsnifləşdirə bilərik: texniki yanaşma, sosial yanaşma, hüquqi yanaşma və qarışıq yanaşma. Sosial medianı texniki istiqamətdə şərh edən bütün tədqiqatçılar demək olar ki, eyni şərh təqdim edərək, onu Web 2.0 texnologiyasının ideoloji və

* hüquq üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının müəllimi

texnoloji institutları üzərində qurulan və istifadəçi mərkəzli yaratma və dəyişikliklərə imkan verən internet əsaslı proqramlar qrupu kimi qiymətləndirirlər. [6, s.59] Başqa sözlə desək, texniki cəhətdən sosial media istifadəçilərdən gələn yazılı, vizual və audio məzmunun Web 2.0 texnologiyasının məhsulu kimi paylaşıldığı veb xidmətləri daxil edən bütün virtual media və alətlər kimi müəyyən edilə bilər. [5, s.48]

Sosial medianın yarandığı gündən başlıca məqsədi insanlar arasında ünsiyyətin yaxşılaşdırılması olmuşdur. Bildiyimiz kimi, ənənəvi media birtərəfli ünsiyyətə malikdir. Sosial mediada isə belə ünsiyyət qarşılıqlı olduğu üçün sosial media ənənəvi mediadan daha geniş imkanlar təqdim edir. Burada ünsiyyət dedikdə, hər hansı postun paylaşılması, başqasının və özünün paylaşımına şərh yazılması, müxtəlif məzmunlu məlumatların başqalarına ötürülməsi başa düşülür ki, belə ünsiyyət istifadə olunan sosial media platformasından asılı olaraq video (görüntülü) danışıq, səsli söhbət, birbaşa mesaj, şəxsi mesaj və s. formalarda ola bilər. Sosial medianın digər bir özəlliyi ondadır ki, burada qarşılıqlı olma elementi yalnız iki şəxsi əhatə etməsi demək deyil. İstifadəçilər şəxsi dialoq qurmaqla yanaşı, həm də digər istifadəçilərlə qruplar yaradaraq kollektiv şəkildə ünsiyyət qura bilərlər. Məhz bu keyfiyyətlər sosial mediaya dair sosial-yönümlü şərhlərin formalaşmasını şərtləndirmişdir. Bu aspektdən, sosial media cəmiyyətin bütün təbəqələrindən olan istifadəçilər tərəfindən yaradılan, paylaşılan və əlçatan olan yazılı, audio və/və ya vizual məzmunların internet vasitələrindən istifadə etməklə digər istifadəçilərə ötürüldüyü virtual mühitdir. Qısa şəkildə ifadə etsək, sosial media paylaşmaq, birgə yaratmaq, dəyişdirmək və müzakirə etmək üçün istifadə edilən [4, s.278] və insanların ünsiyyət qurması üçün şərait yaradan sosial və virtual mühitdir. [14, s.22]

Bundan əlavə, sosial mediaya qarışıq yanaşma da vardır ki, bu yanaşmanın tərəfdarları həm texniki, həm də ictimai elementləri vəhdətdə təqdim edərək sosial medianı daha dərin və sıx sosial qarşılıqlı əlaqəni yaradılması, kollektiv fikrin formalaşması və əməkdaşlıq layihələrinin əldə edilməsini təmin edən web 2.0 texnologiyaları üzərində qurulmuş veb saytlar kimi qiymətləndirirlər. [3, s.17]

Maraqlı cəhət ondadır ki, qeyd olunan yanaşmaların heç birində sosial medianın üstünlükləri öz əksini tapmamışdır. Məsələn, ən vacib xüsusiyyətlərdən biri burada təklif olunan xidmətlərin, xüsusən də limitsiz ünsiyyətin əsasən ödənişsiz olmasıdır. Əslində Facebook, Instagram, Twitter və Tiktok kimi bir çox sosial media platformalarına üzvlük pulsuz olduğu üçün bu platformaların təqdim etdiyi paylaşım imkanlarından yararlanmaq asan və münasibdir. Məhz ona görə də sosial media istifadəçilərin aktivliyi ilə xarakterizə olunur ki, bu cür aktivlik hüquq və azadlıqların realizəsinə də öz təsirini göstərir. Məsələn, məlumat, fikir və söz azadlığı üçün rahat bir məkan olan sosial media platformaları həm də ayrı-ayrı şəxslərin cəmiyyət həyatında aktiv iştirakını təmin edir. Belə aktivliklə siyasi qərarlara təsir edən təcrübələr də az deyil. Ərəb Baharı, [7] ABŞ seçkiləri ilə bağlı dezinformasiya, [8] Çyapas-95 [13] kimi tarixi faktları misal göstərmək olar.

Məhz qeyd olunan məqamlar sosial mediaya hüquqi yanaşmanı formalaşdırmışdır. Bu yanaşmanı iki istiqamətdə təhlil etmək olar:

Sosial medianın leqal anlayışı;

Sosial medianın insan hüquqları hüququ müstəvisində şərhi.

Sosial medianın leqal anlayışı ilə bağlı informasiya hüququ ədəbiyyatına nəzər saldıqda, əslində verilən anlayışların qarışıq elementləri özündə əks etdirdiyini müşahidə etmiş oluruq. Aşağıdakı cədvəldə bir neçə nümunə təqdim edilmişdir:

Sosial mediaya verilən fərqli anlayışlar

Spesifik xüsusiyyətlər

Sosial media fərdlər arasında qarşılıqlı əlaqəyə və ya məzmunun daha geniş mühitə yayımına imkan verən və ənənəvi yayım mediasından daha interaktiv olan internet əsaslı platformalardır. [18] Daha çox sosial yanaşmaya yaxındır, lakin texniki elementləri də özündə ehtiva edir.

Sosial media platforması fərdlər və qurumlar arasında paylaşım, ünsiyyət, əlaqə və əməkdaşlığa imkan verən üçüncü şəxs tərəfindən təmin edilən platformadır. [22]. Sosial və qismən texniki elementləri ehtiva etməklə yanaşı, hüquqi yanaşma da (idarə etmə məsələsi) təqdim edir.

Sosial media məlumatlandırmaq, paylaşmaq, təşviq etmək, əməkdaşlıq etmək və ya şəbəkə yaratmaq məqsədilə mətn, şəkil, video və audiolar əldə etmək, yerləşdirmək və qarşılıqlı əlaqə yaratmaq, o cümlədən üçüncü tərəf tərəfindən yerləşdirilən məzmuna münasibət bildirmək üçün istifadə olunan interaktiv veb texnologiyaları deməkdir. [12] Daha geniş şərh olaraq, texniki və sosial elementləri, eləcə də sosial media vasitələrini əhatə edir.

Sosial media məzmunu çatdıran, lakin oxuculara, izləyicilərə, dinləyicilərə məzmunun yaradılmasında və ya inkişafında iştirak etməyə imkan verməyən ənənəvi mediadan fərqli olaraq ünsiyyəti sürətləndirən onlayn media növü deməkdir. [10] Sosial medianı onlayn medianın növ müxtəlifliyi olaraq qiymətləndirir.

Sosial media məlumatı paylaşmaq və yaymaq üçün istifadə edilən hər hansı mobil telefon və ya internet əsaslı alətlər və proqramlardır. [11] Sırf texniki yanaşmaya üstünlük verir.

Göründüyü kimi, müasir ədəbiyyatlarda sosial mediaya verilən anlayışlar onun hüquqi məzmununu tam müəyyən etməyə imkan vermir. Ümumiyyətlə, sosial medianın konseptuallaşdırılması ilə bağlı iki fərqli problem vardır. Birincisi, texnologiyanın inkişaf sürəti sosial medianın dəqiq sərhədlərini müəyyən etmək işini çətinləşdirir. İkincisi, sosial media xidmətləri digər texnologiyaların imkan verdiyi kimi müxtəlif ünsiyyət formalarını asanlaşdırır. Bu ünsiyyət formalarının hansının sosial mediaya daxil edilməsi məsələsi gündəmin aktual problemlərindəndir. Belə ki, sosial media insanlar arasında ünsiyyəti asanlaşdırırsa, telefon, e-poçt kimi vasitələr də sosial media hesab edilməlidirmi? Məhz bu sualların cavablandırılması sosial mediaya leqal anlayışın verilməsi ilə mümkündür. Azərbaycan qanunvericiliyinə nəzər yetirsək, Media haqqında Qanunun

anlayışları əhatə edən birinci maddəsi onlayn mediaya leqal şərh vermişdir. Əsas səciyyəvi xüsusiyyətlər aşağıdakılardan ibarətdir:

Birincisi, Qanun haqlı olaraq radio və televiziya yayımını, çap mediasını onlayn mediaya daxil etmir.

İkincisi, onlayn media veb-saytda yerləşdirilmiş məzmunu ehtiva edir. Təəssüf ki, sözü gedən Qanun veb-sayta anlayış vermir. İnformasiya sahəsində mövcud qanunvericilik normalarında da veb-saytın anlayışı verilməmişdir. Lakin burada bir ziddiyyətli məqam vardır. Media haqqında Qanunun bir çox maddələrinin təhlilindən elə görünür ki, veb-sayt dedikdə, internet informasiya ehtiyatları nəzərdə tutulur (29.6, 30.5, 30.7, 41.6-cı və başqa maddələr). İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Qanunda internet informasiya ehtiyatına dair normalara əsasən, qeyd edə bilərik ki, bu ehtiyatlar informasiyanın yayılması üçün nəzərdə tutulmuşdur və qarşılıqlı əlaqənin təmin olunması vəzifəsini daşımır. Belə olduğu təqdirdə, veb-saytın internet informasiya ehtiyatı ilə eyniləşdirilməsi nə dərəcədə düzgündür? Əslində, hər bir halda internet informasiya ehtiyatının təzahür forması veb-saytlardır. Lakin heç də hər bir veb-sayt internet infromasiya ehtiyatı kimi qiymətləndirilə bilməz.

Bundan əlavə, əgər biz onlayn medianı media subyektləri ilə məhdudlaşdırırıqsa (çünki Media haqqında Qanunun tənzimləməsi belə tələb edir), sosial media platformalarını onlayn media kimi qiymətləndirmək olarmı? Qanunda təsbit olunmuş vacib tələblərdən biri də onlayn media subyektinin domen adına malik olmasıdır. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Qanunun 13-1-ci maddəsinə müvafiq olaraq, bunun üçün az ölkə kodlu yüksək səviyyəli domen adı olmalıdır. Nəzərə alsaq ki, sosial media platformalarında söhbət beynəlxalq domen adlarından gedir, deməli bu platformaların onlayn media kimi qəbul edilməsi Qanunda qeyd olunan məqsədlərə uyğun gəlmir.

Üçüncüsü, Media haqqında Qanun onlayn media dedikdə, qarşılıqlı ünsiyyət və əlaqənin yaradılmasını nəzərdə tutmur.

Qeyd olunanları nəzərə alaraq belə bir qənaətə gələ bilərik ki, onlayn media ilə sosial media anlayışları eyni məzmun və məna kəsb etmir. Xüsusilə də subyektlər dairəsi fərqli olduğuna görə, sosial media platformaları onlayn mühitlə əlaqəli olsa da, onlayn medianın əhatə dairəsinə tam düşmür. Ona görə də sosial media platformalarının leqal anlayışının qanunvericilik qaydasında təsbitinə zərurət vardır. Bu məqsədlə xarici dövlətlərin tcərübəsindən daha uğurlu tənzimləmə kimi ABŞ qanunvericiliyindən yararlnamaq olar. Belə ki, ABŞ-da sosial media platforması termini aşağıdakıları əhatə edən veb-sayt və ya internet mühiti deməkdir:

a) məzmun yaratmağa, paylaşmağa və baxmağa icazə vermək məqsədilə şəxsə qeydiyyatdan keçmiş istifadəçi olmağa, hesab yaratmağa və ya profil yaratmağa icazə verir;

b) bir və ya daha çox istifadəçiyə medianın digər istifadəçiləri tərəfindən baxıla bilən məzmun yaratmağa imkan verir;

c) ilk növbədə istifadəçilərin medianın digər istifadəçiləri tərəfindən yaradılan məzmunla qarşılıqlı əlaqəsi üçün bir vasitə kimi xidmət edir. [21]

Göründüyü kimi, sosial medianın əsas xüsusiyyətlərindən biri burada qeydiyyatdan keçmiş istifadəçi olaraq iştirakdır ki, bu da onlayn media üçün xarakterik olmayan cəhətdir.

Sosial mediaya dair hüquqi yanaşmanın digər istiqaməti insan hüquq və azadlıqları aspektindən təhlilidir. Belə təhlil növbəti paraqraf daxilində aparılacaqdır.

Sosial medianın insan hüquq və azadlıqlarına təsir aspektləri

Sosial medianın insan hüquq və azadlıqlarına təsiri iki istiqamətdə şərh oluna bilər:

Bir tərəfdən, sosial media platformaları bir çox insan hüquq və azadlıqlarının həyata keçirilməsini asanlaşdırır. Məsələn, onlayn mühitdən istifadə etməklə istənilən məlumatı əldə etmək olur.

Son bir neçə ildə sosial media demokratik dəyərlərin və insan hüquqlarının qorunmasında mühüm rol oynayır. Təşkilatlar, vətəndaş cəmiyyəti üzvləri, fəallar və o cümlədən adi şəxslər qlobal auditoriyaya çatmaq və insan hüquqlarının pozulması problemlərini gündəmə gətirmək üçün onlayn platformalardan istifadə edirlər. Əksər hallarda sosial media ictimaiyyətin diqqətini cəlb etməklə problemləri işıqlandırır və cəmiyyətin həssas təbəqələri üçün ədaləti təmin edir.

İnsan hüquq və azadlıqlarının müdafiəsində sosial medianın istifadəsinə dair uğurlu təcrübələr vardır. Məsələn, Amnesty International USA sosial mediadan (Twitter-dən) onlayn səfərbərlik və təcili insan hüquqları ilə bağlı fövqəladə hallar üçün istifadə edir. İnsan haqları qrupları tərəfindən sosial mediadan strateji istifadəyə dair çoxsaylı nümunələrdən biri olan www.newtactics.org təşkilatlar tərəfindən insan hüquqları problemlərinin çatdırılması forumu kimi əhəmiyyətini göstərir. [16]

Bu kimi və bir çox digər halların uğuru insan hüquqlarının müdafiəsi və sosial maraq doğuran məsələlərdə maarifləndirmə silahı kimi istifadə edilən sosial medianın gücündən və effektivliyindən xəbər verir. Facebook, Twitter və başqa sosial media platformaları məlumat mübadiləsi, təbliğat və fəaliyyətə çağırışlar üçün istifadə edilir.

Bəzən sosial şəbəkələrdə bir fikir ifadəsi dünyada bir çox səssizlərin səsinə çevrilir. [15, s.37] Onlayn iştirakda düşüncə, fikir və ifadədə də dərin plüralizm və müxtəliflik vardır. Sosial media həm də geniş mədəni məzmunu paylaşan icma məkanlarını təşkil edir və tez-tez açıq şəkildə təhsil platforması kimi istifadə olunur: öyrətmək, yaymaq, araşdırmaq. Bu mənada sosial media platformaları həm də insanların cəmiyyətin səlahiyyətli üzvləri kimi formalaşmasına müsbət təsir göstərən mədəni məkanlardır və mədəniyyətlərin, dillərin bütövlükdə genişlənməsinə və inkişafına töhfə verir. Paylaşma mədəniyyəti, kollektiv is-

tifadə və istehsal təcrübələri yeni bilik formaları və nəticədə həmrəyliyin, sosial şüurun və refleksivliyin yeni formaları kimi ayrı-ayrı şəxslərin cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək hüququna təkan verir.

Katz və Lazarsfeld müəyyən etmişlər ki, yaxşı düşünülmüş siyasi fikirlərin formalaşması iki mərhələli prosesdir. İlk addım məlumatın əldə olunmasını əhatə edirsə, ikinci mərhələ bu məlumatlardan söhbət və debatlarda istifadə zamanı özünü büruzə verir. [17, s.36] Belə debatlar qismində sosial media platformalarının rolu əvəzsizdir. Sosial medianın insan hüquqları məsələlərinin müzakirə forumu kimi sərbəstləşdirici imkanları insan hüquqlarının təşviqi və müdafiəsi üçün daha yaxşı və iştirakçı demokratik mühit yarada bilər.

Sosial media, eyni zamanda şəffaf və demoktarik idarəetməyə zəmanət verir. İstənilən məlumatın platformalarda paylaşılmasının mümkünlüyü insanların şüurunda çəkindiricilik yaradır. Çünki hər bir şəxsin (sıravi və ya vəzifəli şəxs) insan hüquqları pozuntusu qeydə alına və onlayn paylaşıla bilər. Bu qorxu cəmiyyətdə hüquq pozulma hallarını xeyli azaldır.

Digər tərəfdən, sosial media öz mənfi keyfiyyətləri ilə insan hüquq və azadlıqları üçün də bir sıra təhlükələr yaradır. Müasir dövrdə hüququn aktual mövzusu olan sosial media hüququ istifadəçi tərəfindən yaradılan məzmuna, onu qəbul edən və ya ötürən internet platformalarına və əlaqəli məsələlərə aid hüquqi problemləri əhatə edir. Diffamasiya, əqli mülkiyyət (İP) hüququ, şəxsi toxunulmazlıq hüququ və s. sosial medianın yaratdığı hüquqi və təcrübi çətinliklər sırasında mühüm yer tutur. [19]

İstifadəçi sayı dəqiq bilinməyən sosial media mühitində real şəxsiyyət məlumatları ilə qeydiyyatdan keçmək öhdəliyi olmadığından və internetin anonimlik xüsusiyyətindən geniş istifadə olunduğundan, real və qeyri-real şəxslərə məxsus milyonlarla hesabın olması bu hesablar vasitəsilə edilən hər hansı bir pozuntuya görə məsuliyyət məsələsinin həllində çətinliklər yaradır.

Sosial media platformalarında pozulan hüquqlar sırasında ilk növbədə şəxsi toxunulmazlıq hüququ qeyd olunmalıdır. Belə ki, hər bir şəxs World Wide Web-də naviqasiya edərkən (məsələn, onlayn axtarışlar, alış-veriş, istehlakçı fəaliyyəti, smartfondan istifadə, sosial media platformalarından istifadə və s.), bilərəkdən və ya bilməyərəkdən böyük miqdarda şəxsi məlumatlar yaradır. Bu məlumatların təhlükəsizliyinin qorunması dövrümümzün ən vacib problemlərindən biridir. BMT Baş Assambleyası 2014-cü ildə Rəqəmsal əsrdə şəxsi toxunulmazlıq hüququ ilə bağlı 68/167 saylı Qətnamə qəbul etdi. Bu qətnamədə texnoloji inkişafın sürətli tempinin bütün dünyada fərdlərə yeni informasiya-kommunikasiya texnologiyalarından istifadə etməyə imkan verdiyini və eyni zamanda dövlətlərin, şirkətlərin və ayrı-ayrı şəxslərin nəzarət, ələ keçirmə və izləmə imkanlarını artırdığını qeyd edərək, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 12-ci və Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın 17-ci maddəsini rəhbər tutaraq [20] ifadəsi BMT-nin rəqəmsal dövrdə dinamik inkişaf edən texnologiyanın şəxsi və ailə həyatına müdaxilələrə təkan verməsindən narahatlığını açıq-aşkar təsdiq edir. Rabitə nəzarəti, onun ələ keçirilməsi, məlu-

matların oğurlanması, şəxsi məlumatlara icazəsiz giriş, məlumatların transsərhəd axını və s. formalarda təzahür edən potensial təhlükələri nəzərə alaraq, BMT təsdiq etmişdir ki, insanların oflayn rejimdə malik olduqları hüquqlar, o cümlədən onlayn rejimdə də mütləq şəkildə qorunmalıdır.

Rəqəmsal mühit şəxsi toxunulmazlıq hüququ üçün aşağıdakı bir sıra təhdidləri yaradır:

- kommunikasiyaya nəzarət;
- məlumat (verilənlərin) oğurluğu;
- məlumatların (verilənlərin) transsərhəd axını;
- konfidensiallığın pozulması;
- elektron voyeurizm;
- qeyri-qanuni giriş;
- məlumatların (verilənlərin) saxlanması;
- böyük verilənlərlə (Big Data) bağlı problemlər və s. [15, s.35]

Sadalanan bu problemlərin demək olar ki, hamısı sosial mediadan istifadə zamanı da mövcud olur. Xüsusilə sosial şəbəkə saytları üzrə hesab (giriş) şifrələri aktiv şəkildə dəyişdirilmədikcə, maksimum giriş imkanı verən xüsusi standart konfidensiallıq parametrləri təyin edilir. İstifadəçinin parametrləri aktiv şəkildə dəyişdirməməsinin fəsadları barədə effektiv məlumatlandırılmaması faktını nəzərə alsaq, bu yanaşma çox sayda istifadəçini risk altında qoyur. Bundan əlavə, konfidensiallıq parametrlərinin mürəkkəb formada tərtib olunma halları da az deyil ki, istifadəçi konkret platformaya daxil olarkən həmin parametrlərlə bağlı təqdim olunan məlumatı başa düşmədiyi üçün onu avtomatik təsdiq edir.

Digər mühüm problem məlumatların adətən uzun müddət saxlanılmasıdır. İnternetdəki bəzi saytlar və ya platformalar istifadəçilərin məlumatlarını saxlamaq üçün defolt parametrlərlə qurulur, burada belə saxlama uzun müddət və ya daimi ola bilər. Bu cür icazəsiz məlumatların saxlanması olduqca təhlükəlidir, xüsusən də belə məlumatlar istifadəçinin fərdi məlumatlarına aid olduqda onun konfidensiallığını təhlükə altına alır.

Beləliklə, sosial mediada insan hüquq və azadlıqlarının pozulması üç formada baş verə bilər:

Birinci qrup pozuntular paylaşılan məzmunla bağlı olur. Web 2.0 texnologiyalarının istifadə olunduğu sosial media platformalarında mətn, foto, video və audio kimi elementlərdən ibarət məzmunun əhəmiyyətli bir hissəsi istifadəçilər tərəfindən yaradılır. Hər bir sosial media platformasında təklif olunan xidmətin xarakterindən asılı olaraq məzmun anlayışı fərqlənə bilər və texnologiyadan asılı olaraq günbəgün yeni məzmunlar əlavə oluna bilər. Bununla belə, ümumilikdə məzmun sosial media xidmətləri vasitəsilə əldə edilə bilən mətn, fotoşəkillər, videolar, audio kliplər, şərhlər, məlumatlar, proqram təminatı, skriptlər və qrafiklər kimi interaktiv xüsusiyyətlərdən ibarətdir. Digər tərəfdən, paylaşılan məzmun sosial media platformasından istifadə edən istifadəçi tərəfindən yaradılan və sosial media platformasında və ya sosial media platforması xidmətlərinə qoşulma vasitəsilə əlavə edilən, yaradılan, yüklənən, göndərilən, yayılan və ya bir

şəxs tərəfindən təmin edilən məzmuna aiddir. Bu məzmun ehtiva etdiyi məlumatlardan asılı olaraq, hər hansı bir hüquq və azadlığa qəsd edə bilər. Məsələn, əgər şəxsin boşanması haqqında məlumat onun razılığı olmadan Facebook şəbəkəsində paylaşılırsa, bu zaman şəxsi toxunulmazlıq hüququna qəsd edilir. Əgər hər hansı bir platformada şəxsə qarşı təhqiramiz ifadələrdən istifadə edilirsə, bu halda artıq şərəf və ləyaqətin müdafiəsi hüququ ön plana çəkiləcəkdir. Deməli, əsas diqqət yetirilməli olan məqam paylaşılan məzmunun ehtiva etdiyi məlumatlardır. Çünki məsuliyyət məsələsi həmin məlumatların yayılmasının sırf hansı hüquqa qəsd etməsindən asılı olaraq müəyyən edilir.

İkinci qrup pozuntular təhlükəsizlik problemlərindən irəli gəlir. Bu pozuntular istifadəçilər tərəfindən deyil, sosial media platformasının yaradıcısı, idarəediciləri tərəfindən törədilir. Konfidensiallıq və təhlükəsizlik parametrlərinin düzgün idarə olunmaması nəticə etibarilə sosial şəbəkə istifadəçilərinin fərdi məlumatlarının asanlıqla ələ keçirilməsinə və müxtəlif qeyri-qanuni məqsədlər üçün istfadəsinə gətirib çıxarır.

Üçüncü qrup pozuntular isə sosial media platformalarını sırf konkret pozuntuları törətmək üçün istifadə edən şəxslər tərəfindən törədilir. Bu şəxslər platformalara qanunsuz daxil olaraq istifadəçilərə aid şəxsi məlumatları əldə edib bir sıra kiberpozuntuları həyata keçirirlər. Məsələn, hakerlər.

Sosial media platformalarında qeyd olunan hüquq pozulması hallarının qarşısının alınması məqsədilə yalnız təhlükəsizlik tədbirlərinin təminatı yetərli vasitə deyil. Eyni zamanda istifadəçilərin informasiya savadlılığının, informasiya mədəniyyətinin artırılması da vacib məsələdir. Çünki sosial mediadan istifadə edən şəxs həm başqalarının hüquq və azadlıqlarına hörmət etməli, həm də İKT-nin imkanlarından istifadənin hər bir məlumatı paylaşmaq demək olmadığını dərk etməlidir.

Nəticə

Bütün dünyada internetə yeni bir ölçü əlavə edən sosial medianın başlıca xüsusiyyəti istifadəçilərin vaxt və məkan məhdudiyyəti olmadan öz seçimlərinə uyğun olaraq öz aralarında və ya açıq şəkildə foto, video, mətn paylaşa bilməsi və qarşılıqlı ünsiyyət yaratması üçün unikal imkanlar təqdim etməsində ifadə olunur. İlk baxımdan, müsbət keyfiyyət kimi qiymətləndirilən sərhədsizlik, açıqlıq və kollektivlik ünsürləri sosial medianın bir çox hallarda insan hüquq və azadlıqlarının pozulması vasitəsi kimi istifadəsinə gətirib çıxarır. Sosial şəbəkə saytları tez-tez kiber zorakılıq, kiber-təqib və s. bu kimi qeyri-qanuni məqsədlər üçün istifadə olunur. Məlumatlara icazəsiz giriş və bu cür qeyri-qanuni əldə edilmiş məlumatların sui-istifadəsi ilə bağlı hallar virtual məkanın ən ciddi problemlərindən sayılır. Bu problemlərin artmasının başlıca səbəbləri sırasında texnoloji inkişafın dinamikliyi ilə yanaşı, hüquqi tənzimləmədə olan boşluq və ziddiyyətlər xüsusi qeyd olunmalıdır. Xüsusilə, məsuliyyət məsələlərinin konkret müəyyən olunmaması sosial media platformalarında insan hüquq və azadlıqlarının pozulması hallarını artırır. Ona görə də sosial mediadan istifadə ilə

bağlı formalaşan problemlərin həlli üçün mövcud normaların dövrün tələbinə uyğun olaraq yenidən işlənməsi zəruridir.

Bununla belə, qeyd etməliyik ki, sosial media heç də yalnız mənfi tərəfləri ilə xarakterizə olunmamalıdır. Sosial media potensial olaraq cəmiyyət üzvlərində məlumatlılıq səviyyəsini artırmaqla, insan hüquqlarının həyata keçirilməsinə və qorunmasına təkan verən platforma kimi istifadə edilə bilər. Əgər düzgün hüquqi tənzimləmələr aparılarsa və həmin hüquqi tənzimetmələrin icrasına nəzarət mexanizmi olarsa, sosial media qaşılıqlı əlaqəli mühit yarada və insan hüquqlarının qorunması, təşviqi və həyata keçirilməsində uğurlu nəticələr verə bilər.

İstinadlar:

1. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşri. Bakı: Nurlar, 2019, 352 s.

2. Əliyev Ə.İ., Rzayeva G.A., İbrahimova A.N., Məhərrəmov B.A., Məmmədrzalı Ş.S. İnformasiya hüququ. Dərslik. Bakı: Nurlar, 2019, 448 s.

3. Erkan Akar. Sosyal Medya Pazarlaması Sosyal Webde Pazarlama Stratejileri. Ankara: Efil Yayınevi, 2010, 223 s.

4. Mine Kaya. Sosyal medya ve sosyal medyada üçüncü kişilerin kişilik haklarinin ihlali // TBB Dergisi, 2015, No. 119, s. 277-306

5. Ramazan Özkepir, S. Zeki Kocaman, E. Hilmi Kart. Sosyal Medya Ve Basın Hukuku. İstanbul: Seçki Yayınları, 2022, 980 s.

6. Andreas M. Kaplan, Michael Haenlein. Users of The World, Unite! The Challenges and Opportunities of Social Media // Business Horizons, 2010, Vol. 53, No. 1, pp. 59-68

7. Arab Spring: pro-democracy protests. https://www.britannica.com/event/Arab-Spring

8. Election Misinformation. https://www.brennancenter.org/election-misinformation

9. Global Social Media Statistics. https://datareportal.com/social-media-users

10. https://contracts.hhs.texas.gov/sites/default/files/documents/contracts/HHS000077600006-contract-redacted.pdf

11. https://thelawdictionary.org/social-media/

12. https://www.lawinsider.com/dictionary/social-media

13. Insurgencia del Ejército Zapatista de Liberación Nacional (EZLN). https://www.cndh.org.mx/noticia/insurgencia-del-ejercito-zapatista-de-liberacion-nacional-ezln

14. Joshua Brunty, Katrine Helenek. Social Media Investigations of Law Enforcement. Routledge, 2016, 112 p.

15. Lisa P. Lukose, Alankrita Mathur. Human Right and Social Media // ELCOP Yearbook of Human Rights, 2018, pp. 35-38

16. New Tactics. https://www.newtactics.org/

17. Raghavendra Mishra. Social media and protection of human rights // Journal of Centre for Reforms, Development and Justice, 2015, Vol. 3, No. 2, pp. 31-38

18. Social media definition. https://www.lexisnexis.co.uk/legal/glossary/social-media#:~:text=Internet%2Dbased%20platforms%20which%20allow,interactive%20than%20traditional%20broadcast%20media.

19. Social Media: A Legal Perspective And Analysis. https://legalstudymaterial.com/social-media-a-legal-perspective-and-analysis/#What_Does_Social_Media_Law_Mean

20. The right to privacy in the digital age. Resolution adopted by the General Assembly on 18 December 2013. https://digitallibrary.un.org/record/764407

21. U.S. Code § 1862w - NSF support of research on impacts of social media on human trafficking. https://www.law.cornell.edu/uscode/text/42/1862w#a_2

22. U.S. Department of State Social Media Terms of Use. https://www.state.gov/social-media-terms-of-use/

ASPECTS OF IMPACT OF SOCIAL MEDIA ON HUMAN RIGHTS AND FREEDOMS

Elnur Humbatov[*]

Abstract

Social media, which is the reality of our time, has become an object of legal regulation, being a comfortable and unobstructed virtual environment for mutual communication of people and the realization of various rights and freedoms. Social media, as a tool used by the majority of people, is also an environment where various rights are violated. Therefore, the analysis of social media platforms from the aspect of protection of human rights and freedoms is considered an actual problem.

In the article, different approaches to social media are analyzed in a related manner, legal problems related to social media are revealed, suggestions and recommendations are put forward for their solution.

Keywords: *social media, online media, virtual space, human rights, right to privacy, freedom of information.*

АСПЕКТЫ ВЛИЯНИЯ СОЦИАЛЬНЫХ СЕТЕЙ НА ПРАВА И СВОБОДЫ ЧЕЛОВЕКА

Эльнур Гумбатов[**]

Резюме

Социальные сети, являющиеся реальностью нашего времени, стали объектом правового регулирования, представляя собой комфортную и беспрепятственную виртуальную среду для взаимного общения людей и реализации различных прав и свобод. Социальные сети, используемый большинством людей, также являются средой, в которой нарушаются различные права. Поэтому анализ социальных сетей с точки зрения защиты прав и свобод человека считается актуальной проблемой.

В статье взаимосвязанно анализируются различные подходы к социальным сетям, выявляются правовые проблемы, связанные с социальными сетями, выдвигаются предложения и рекомендации по их решению.

Ключевые слова: *социальные сети, интернет-СМИ, виртуальное пространство, права человека, право на неприкосновенность частной жизни, свобода информации.*

[*] Ph.D in Law, Baku State University

[**]Доктор философии по праву, Бакинский государственный университет

***Zamiq Allahverdiyev*.** Uşaqların sosial, iqtisadi və mədəni hüquqlarının müdafiəsi üzrə beynəlxalq normaların milli təcrübəyə tətbiqi üzrə problemlər// Azərbaycan Hüquq Jurnalı. 2023(№2), s.53-66

BEYNƏLXALQ HÜQUQ

UŞAQLARIN SOSİAL, İQTİSADİ VƏ MƏDƏNİ HÜQUQLARININ MÜDAFİƏSİ ÜZRƏ BEYNƏLXALQ NORMALARIN MİLLİ TƏCRÜBƏYƏ TƏTBİQİ ÜZRƏ PROBLEMLƏR

Zamiq Allahverdiyev*

Xülasə

Uşaqların xüsusi müdafiəsinə zərurətin formalaşması və onların hüquqlarının tanınması dünyada baş verən tarixi proseslər nəticəsində gündəmə gəlmişdir. Məqalədə uşaqların sosial-iqtisadi və mədəni hüquqlarının beynəlxalq-hüquqi müdafiəsini şərtləndirən amillər həm nəzəri-tarixi, həm də təcrübi aspektdən tədqiq olunmuşdur. Müqayisəli təhlillərin nəticəsi olaraq məqalədə uşaqların müdafiəsi sahəsində beynəlxalq hüquq normalarının təcrübəyə tətbiqi zamanı qarşıya çıxan problemlərə aydınlıq gətirilmiş, təklif və tövsiyələr təqdim olunmuşdur.

Aparılmış tədqiqatın nəticəsi olaraq mövcud təcrübi və hüquqi problemlərin aradan qaldırılması məqsədilə təkliflərin təqdim olunması ilə yanaşı, dövlətdaxili tənzimləmənin müsbət istiqamətdə inkişaf edən normaları ilə bağlı təhlillər də aparılmışdır.

Açar sözlər: *uşaq hüquqları, beynəlxalq hüquq normaları, əmək hüququ, təhsil hüququ, sağlamlıq hüququ, istirahət hüququ.*

Giriş

Mülki hüquq və azadlıqlardan fərqli olaraq, dövlətin fəal müdaxiləsini tələb edən sosial, iqtisadi və mədəni hüquqlar uşağın cəmiyyətdə yaşamaq qabiliyyətini təmin edən hüquqlardır. Dövlətlərin bu hüquqların təmin edilməsində maliyyə və ya digər resurs çatışmazlığı kimi səbəblər bu hüquq və azadlıqların pozulmasına gətirib çıxarır. Bununla belə, beynəlxalq qaydalarda sosial-iqtisadi və mədəni hüquqların ikinci dərəcəli hüquqlar olmadığı, onların təmin edilməsində resurs çatışmazlığının axtarılmasının mümkün olmadığı, heç bir halda onların şəxsi hüquqlardan ayrı hesab edilə bilməyəcəyi vurğulanır. [5, s.109]

Uşaq Hüquqları Konvensiyasında uşaqların sosial, iqtisadi və mədəni hüquqları ayrıca və ətraflı şəkildə ifadə edilmişdir. Uşaqların bu hüquqlarının təmin edilməsində iştirakçı dövlətlərə Konvensiyanın Preambulasında xəbərdarlıq edilmişdir. Eyni zamanda, 4-cü maddədə deyilir ki, iqtisadi, sosial və mədəni hüquqlarla bağlı iştirakçı dövlətlər zəruri hallarda, beynəlxalq əməkdaşlıq çərçivəsində mövcud resursların tam həcmində tədbirlər görəcəklər, yəni Konvensiya kifayət qədər resursların olmaması səbəbindən bu hüquqların həyata keçirilə bilməməsi iddiasını qəbul etmir. Uşaqlara qoyulan sərmayənin sabahın ədalətli və davamlı inkişafının ən yaxşı təminatı olduğunu hər hesabatında təkrarlayan Uşaq Hüquqları Komitəsi iştirakçı dövlətlərə beynəlxalq əməkdaşlıq nəticəsində

*Doktorant, Bakı Dövlət Universiteti, İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası

verilən resursların uşaq hüquqlarının həyata keçirilməsinə yönəldilməli olduğunu xatırladır ki, bu da Konvensiyanın 24-cü maddəsində tənzimlənir.

Ümumilikdə, uşaqların sosial, iqtisadi və mədəni hüquqları sırasında əmək hüququ, təhsil hüququ, sosial təminat hüququ, sağlamlıq hüququ təhlil olunacaqdır. Bundan əlavə, Konvensiyada uşaqlara xas sosial, iqtisadi və mədəni hüquqlar kimi tanınmış uşağın layiqli həyat səviyyəsinə malik olmaq hüququ (maddə 27) və uşağın oynamaq, istirahət və asudə vaxt keçirmək hüququ (maddə 31) da tədqiq olunacaqdır.

Təhsil hüququ: beynəlxalq və milli normalar arasındakı fərqlər

Uşaqların düzgün gələcəyi üçün təhsil hüququnun ədalətli təminatı çox vacibdir. Unterhalter və Brighouse təhsilin kəsişən üç fayda sahəsini müəyyən edirlər: daxili (təhsilin inkişafı vasitəsilə həyat keyfiyyətinin artırılması), instrumental (məşğulluğa və digər imkanlara çıxış imkanı verən) və mövqe (cəmiyyətdə başqalarının imkanlarına nisbətən bir insanın daha geniş imkanları). Təhsilin daxili aspekti açıq şəkildə təhsil hüququnun düzgün realizəsinin və təminatının əsasını təşkil edir. Ümumilikdə, təhsil digər hüquqlar üçün imkanlar açan hüquq rolunu oynayır, insanların ətrafdakı dünyada fəaliyyət göstərmək və ona təsir etmək imkanlarını artırır. [19, s.519]

Bir çox beynəlxalq sənədlərdə uşaqların təhsil hüququnun qarşısının alına bilməyəcəyi tənzimlənmiş, uşağın təhsil hüququna məhdudiyyətlərin yolverilməzliyi bildirilmişdir. UHK-nın uşağın təhsil hüququnu tənzimləyən 28 və 29-cu maddələri dövlətlərin uşaqları pulsuz icbari təhsillə təmin etməsini müəyyən edir, orta təhsili müxtəlif formalarda, ümumi və peşə təhsili təşkil etməklə bütün uşaqlar üçün açıq elan edir, ali təhsili hamı üçün açıq edir, dövlətlərdən bütün müvafiq vasitələrdən, təhsil və peşəyə dair məlumatlardan istifadə etməklə və bütün uşaqlara istiqamət verməklə, məktəbi tərk etmə hallarını azaltmaqla, uşağın şərəf və ləyaqətinə uyğun olaraq məktəb intizamını tətbiq etməklə təhsilin düzgün təşkilini tələb edir. Konvensiyaya əsasən, uşağın təhsil hüququ mərhələli şəkildə və bərabər imkanlar əsasında təmin edilməlidir.

Ailə mühitindən başqa uşağın öz baxışlarını formalaşdıracağı başqa bir sahə də təhsil müəssisələri sayılır. Təsadüfi deyil ki, UHK-nın 29-cu maddəsində uşaqlara veriləcək təhsilin məqsədləri arasında insan hüquqlarına və əsas azadlıqlarına hörmət edən, öz milli dəyərlərinə və müxtəlif sivilizasiyalara hörmət edən, tolerant, gender, etnik və dini ayrı-seçkilikdən uzaq, azad cəmiyyətdə dostluq ruhunda yaşamağa tərbiyə etmək də sıralanmışdır.

Eyni zamanda, UHK-nın 18, 19 və 23-cü maddələri təhsildən bir qədər az geniş, lakin heç də az əhəmiyyətli olmayaraq, uşaqların təhsil hüququ ilə sıx bağlıdır. 18-ci maddə valideynlərin uşaqlarını böyütmək üçün əsas hüquq və vəzifələrini vurğulayır. 19-cu maddə uşaqların müdafiəsi və uşaq istismarı və laqeydliyinin qarşısının alınmasını əhatə edir. Təhsil 19-cu maddənin əsas diqqətini təşkil etmir, lakin təhsil sistemləri daha çox məlumatlılığın yaradılması və

uşaqlara və ailələrə müvafiq xidmətlərin göstərilməsi üçün tələb olunan davamlı səylərin mühüm tərəfdaşlarına çevrilmişdir. 23-cü maddə isə əqli və ya fiziki qüsurlu uşaqların ləyaqətini təmin edən, özünəinamını artıran və uşağın cəmiyyətdə fəal iştirakını asanlaşdıran şəraitdə tam və layiqli həyat sürməsini tələb edir ki, bu işdə təhsilin rolu xüsusi qeyd olunmalıdır.

Analoji norma daha konkret formada "Uşaq hüquqları haqqında" Qanunun 22-ci maddəsində əks olunmuşdur. Həmin maddə:

Birincisi, uşağın təhsil almaq hüququnu tanıyır.

İkincisi, dövlətin təhsil sahəsində əsas öhdəliyini müəyyənləşdirir ki, uşaqların şəxsiyyətinin tam formalaşması təmin olunsun.

Üçüncüsü, uşağın tərbiyəsi və təhsilinə məsuliyyət daşıyan bütün şəxslərə uşağın təhsildən yayındırılmasını qadağan edir.

Beynəlxalq normalara baxdıqda, həm 1948-ci il Bəyannaməsi, həm 1966-cı il Paktı, həm də UHK təhsilin əsas məqsədlərini müəyyən edir ki, UHK-nın müddəaları daha genişdir ki, milli tənzimləmə də bu Konvensiyaya əsaslanır:

Məqsədin məzmunu	**1948-ci il Bəyannaməsi**	**1966-cı il Paktı**	**UHK**	**Milli-hüquqi tənzimləmə**
İnsan şəxsiyyətinin hərtərəfli inkişafı	+	+	+	"Uşaq hüquqları haqqında" Qanun - Maddə 22.2, 33.3
İnsan hüquqlarına və əsas azadlıqlarına hörmətin gücləndirilməsi	+	+	+	"Uşaq hüquqları haqqında" Qanun - Maddə 27.1
Bütün millətlər, irqi və ya dini qruplar arasında anlaşma, tolerantlıq, sülh və dostluğun təşviq edilməsi	+	+	+	"Təhsil haqqında" Qanun – Maddə 3.0.1, 19.17
Uşağın valideynlərinə, onun mədəni müxtəlifliyinə,	-	-	+	"Təhsil haqqında" Qanun – Maddə 19.13

dilinə və dəyərlərinə, uşağın yaşadığı ölkənin və mənşəcə olduğu ölkənin milli dəyərlərinə, öz sivilizasiyasından fərqlənən sivilizasiyalara hörmətin tərbiyə edilməsi				
Ətraf mühitə hörmətin tərbiyə edilməsi	-	-	+	"Təhsil haqqında" Qanun – Maddə 33.3.4

Əslində təhsil hüququ ömür boyu təhsili əhatə etsə də, uşaqlıq dövründə bu hüququn düzgün təmin olunmaması uşaqların gələcəyinin də yanlış istiqamətə yönəlməsinə səbəb olur. Bu baxımdan, Avropada aktual müzakirə predmetinə çevrilmiş erkən uşaqlıq dövründə təhsil və qayğı (ECEC) [15, s.542] ilə bağlı bir qədər şərh vermək yerinə düşərdi. Aİ-nin hər bir üzv dövlətində erkən uşaq baxımı xidmətləri həmişə mövcud olmuşdur. Bununla belə, onların rolu, əhatə dairəsi və formaları, onları dəstəkləyən fəlsəfə və ideologiya kimi çox müxtəlifdir. Aİ-də istifadə olunan "erkən uşaqlıq dövründə təhsil və qayğı" termini 0 yaşından məcburi məktəb yaşına qədər uşaqlar üçün təhsil və qayğı göstərən hər hansı bir quruluşa aiddir. [16] Deməli, Avropada Erkən Uşaqlıq dövründə Müdaxilə (ECI) uşağın inkişafını təşviq edən və uşaqlıq dövründə ailələrə dəstək verən əlaqələndirilmiş xidmətlər toplusu olaraq, inkişaf, sosial və təhsil nailiyyətlərini yaxşılaşdırmaq və inteqrasiyanı dəstəkləmək məqsədi daşıyır. Göründüyü kimi, Avropada uşaqların təhsil hüququ erkən uşaqlıq dövründən onlara fərdi inkişaf, təhsil və terapevtik xidmətlərin göstərilməsi və onların ailələri üçün qarşılıqlı planlaşdırılmış dəstəyin təmin olunmasını da əhatə edir.

İHAM da bir çox qərarlarında təhsil hüququnu tənzimləyən 1 saylı Əlavə Protokolun 2-ci maddəsinə zidd olaraq uşağın təhsil hüququnun qarşısının alınması ilə pozuntu halları müəyyən etmişdir. Bu, xüsusilə uşaqlara dinə uyğun olaraq verilən təhsillə bağlı işlər olmuşdur. Məsələn, Kjeldsen, Busk Madsen and Pedersen Danimarkaya qarşı işi üzrə [13] Məhkəmə 2-ci maddənin məqsədini aşağıdakı kimi ifadə etmişdir: "...2-ci maddənin ikinci cümləsi qısaca olaraq təhsildə plüralizmin mümkünlüyünü qorumaq məqsədi daşıyır ki, Konvensiya tərəfindən nəzərdə tutulduğu kimi "demokratik cəmiyyətin" qorunması üçün təhsildə plüralizmin mümkünlüyü üçün vacibdir. Müasir dövlətin qüdrətini nə-

zərə alsaq, bu məqsəd hər şeydən əvvəl dövlət təlimi vasitəsilə həyata keçirilməlidir. Valideynlərin dini və fəlsəfi əqidəsinə hörmətsizlik kimi qiymətləndirilə bilən təlqin məqsədi güdmək dövlətə qadağandır. Bu, aşılmamalı olan həddir."

Daha konkret desək, dövlətlərin valideynlərin istəklərinə uyğun kurikulum yaratmaq öhdəliyi yoxdur, ancaq valideynlərin dini və fəlsəfi baxışlarına hörmətlə yanaşmaq məsuliyyəti vardır. Dövlət tədris məsələlərində valideynlərin dini etiqadlarına hörmət etməyə borclu olsa da, müəyyən din üzrə təhsil vermək məcburiyyətində deyil. Bu, Kocabaş İsveçrəyə qarşı işində də Məhkəmə tərəfindən təsdiqlənmişdir: "Etiraf etmək lazımdır ki, ilk növbədə valideynlər övladlarının təhsili üçün məsuliyyət daşıyırlar, lakin onlar Konvensiyaya əsaslanaraq, dövlətdən xüsusi tədris formasını təmin etməyi və ya xüsusi qaydada dərslər təşkil etməyi tələb edə bilməzlər." [14]

Məhkəmənin qarışıq, yəni uşağın təhsil hüququna müdafiə etməyən qərarları da vardır. Məsələn, Eriksson İsveçə qarşı işində [7] ərizəçi özü və qızının adından ərizə verərək, qızı Liza ilə görüşməsinə mane olan dövlətdaxili orqanların qərarına etiraz etmişdir. Əslində, iş ailə həyatına hörmətlə bağlı olsa da (ərizəçiyə qızı ilə görüşmək məhdudiyyətinin qoyulması və onu evdən çıxarmaq qadağasının olması), ərizəçi belə məhdudiyyətlərin qızına Pentikostal hərəkatının inanclarına uyğun təhsil verməyə mane olduğunu iddia etmişdir. Lakin Məhkəmə 1 saylı Protokolun 2-ci maddəsinin pozulmaması qənaətinə gələrək belə əsaslandırmışdır ki, həmin maddə üzrə şikayət yalnız uşağın valideynlərin hüquqlarını təmin edən ikinci cümləsinə əsaslanır. Paradoksa səbəb olan bu qərar tarixi keçmişinə görə uşaq hüquqlarının ümumi prinsiplərinə zidd görünür.

Uşaqların təhsil hüququnun təminatı ilə bağlı təhsilin keyfiyyəti məsələsi də diqqətçəkən məqamdır. Beynəlxalq qaydada bəyan olunan təhsilin məqsədlərinə keyfiyyətsiz təhsillə nail olmaq qeyri-mümkündür. Təhsilin keyfiyyəti sağlamlıqdan tutmuş məşğulluğa və gəlirə qədər öyrənmə, savadlılıq və hesablama ilə bağlı bütün nəticələri əhatə edir. Keyfiyyətə təsir edən amillərin spesifik təminatlarına konstitusiyalarda nadir hallarda rast gəlinir. Keyfiyyət müəllimlər və pedaqoji yanaşmalar tərəfindən dəyişdirilə və müəllim hazırlığı, şagird-müəllim nisbəti, ləvazimatların mövcudluğu, kurrikulumun gücü də daxil olmaqla məktəb infrastrukturu kimi amillərdən təsirlənə bilər. [12, s.219] "Təhsil haqqında" Qanuna müvafiq olaraq, respublikamızda təhsilin keyfiyyəti yalnız mövcud beynəlxalq standartlara uyğunluğu deyil, eyni zamanda şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu da ehtiva edir (3.0.3 və 9-cu maddələr).

Qeyd etdiyimiz kimi, təhsilin keyifyyəti ilə bağlı Korçak yanaşması çox maraqlıdır. Lakin Beynəlxalq Korçak konfranslarında tez-tez təntənəli şəkildə qeyd olunur ki, "Korçak sistemi"nin yenidən formalaşdırılması və bu sistemdən uşaqlar və gənclər arasında təhsil işində istifadə olunması məqsədəuyğundur. Sven Hartman hesab edir ki, bu cür tələblər Korçakın irsinə dair yanlış bir fərziyyə üzərində qurulmuşdur. Çünki Y.Korçak heç vaxt, məsələn, Maria Montes-

sori və ya Valdorf ənənəsində tapa biləcəyimiz mənada özünəməxsus bir sistem inkişaf etdirməmişdir. Onun əsas tərbiyəvi əsərində "Uşağı necə sevmək olar" adlı əsərində təsvir etdiyi metod və ideyaların bir sistem təşkil etdiyini söyləmək düzgün deyil. [11, s.17]

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində məcburi köçkünlərin təhsil hüquqları da pozulmuşdur. Belə ki, öz doğma torpaqlarından və evlərindən didərgin düşən uşaqlar və gənclər bir müddət təhsillərini davam etdirmək imkanından məhrum olmaq məcburiyyətində idilər. Məcburi köçkünlərin təhsil almaq hüquqlarının köçmək prosesinin təcili mərhələsində həyatın əsas ehtiyaclarının təmin edilməsi və birinci növbədə təhlükəsizliyə diqqət yetirilməsi səbəbindən tam həyata keçirilməsi mümkün olmamışdır. 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair IV Cenevrə Konvensiyasının 50-ci maddəsinə əsasən, işğalçı dövlət milli və yerli hakimiyyət orqanlarının əməkdaşlığı ilə uşaqlara qayğı ilə təhsilə həsr olunmuş bütün qurumların düzgün işləməsini asanlaşdıracaqdır. Ermənistan isə mühüm beynəlxalq sənədlərə qoşulmasına baxmayaraq, Azərbaycanın işğal olunmuş ərazilərindəki bütün təhsil müəssisələrini tamamilə məhv etmişdir. Eyni zamanda, Ermənistan mülki və hərbi obyektlərə fərq qoymadığından Azərbaycanın bütün sərhədyanı bölgələrində olan təhsil müəssisələrinin hər zaman istənilən təhlükəyə məruz qalmaq təhlükəsi mövcud olmuşdur. Beləliklə, Ermənistan dövləti öz doğma yurdlarından qovulmuş Azərbaycan məcburi köçkünlərinin başqa hüquqları ilə yanaşı, mədəni hüquqlarını da kobud pozduğuna görə tam məsuliyyət daşıyır. [2, s.68]

Uşaqların əmək hüququ: məcburi əməyin qadağan olunması

2013-cü ilin iyununda Papa Fransisk Ümumdünya Uşaq Əməyinə Qarşı Mübarizə Gününü qeyd edərkən, uşaq əməyini "xüsusilə də yoxsul ölkələrdə daim artan iyrənc fenomen" adlandırmışdı. O, "çox vaxt sui-istifadəyə, pis rəftara və ayrı-seçkiliyə gətirib çıxaran bu gizli istismar formasının qurbanı olan milyonlarla uşaq, əsasən də körpə qızlar var" deyərək, beynəlxalq ictimaiyyəti uşaq əməyinə qarşı mübarizə üçün daha təsirli tədbirlər görməyə çağırmışdır [17, s.369]

UNICEF-in 2023-cü ilə olan son məlumatına görə, dünyanın ən yoxsul ölkələrində hər 5 uşaqdan 1-dən bir qədər çoxu uşaq əməyi ilə məşğul olur. [6]

İqtisadi hüquqlar sırasında sayıla bilən əmək hüququ uşaqların hüququ kimi deyil, uşaqların əməyinin prinsipləri qismində Konvensiyanın 32-ci maddəsində tənzimlənir. Konvensiya çərçivəsində aşağıdakı konkret hüquqi alətlər uşaqların iqtisadi istismarının qarşısının alınmasına istiqamətlənmişdir: 32-ci maddədə deyilir ki, uşaqlar təhlükəli və ya uşağın təhsilinə mane ola biləcək, ya da uşağın sağlamlığına və ya fiziki, əqli, mənəvi, əxlaqi və ya sosial inkişafına zərər verə biləcək hər hansı işi görməkdən qorunmalıdırlar. Üzv dövlətlərdən işə qəbul üçün minimum yaş həddinin müəyyən edilməsi tələb olunur, o cümlədən iş saatlarının və şərtlərinin müvafiq qaydada tənzimlənməsini təmin etmək öhdəliyi nəzərdə tutulur.

33-cü maddə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehsalında və dövriyyəsində uşaqların istifadəsinin qarşısının alınmasını təsbit edir. 34-cü maddə uşaqların fahişəlikdə və pornoqrafik tamaşalarda istismar məqsədilə istifadəsindən müdafiəni təmin edir.

BƏT-in birinci fəsildə qeyd etdiyimiz səkkiz konvensiyası da uşaq əməyi ilə bağlı məsələləri tənzimləyir. Burada xüsusilə minimum yaş həddini müəyyən edən 1973-cü il Konvensiyası qeyd olunmalıdır. Konvensiyada işə qəbul üçün minimum yaş həddi 15 təyin edilmişdir, lakin bəzi müstəsna hallarda bu minimum yaş həddi limiti 13-ə endirilə bilər (maddə 7).

UHK-nın 32-ci maddəsi uşaqların əmək hüququnun təminatı məqsədilə iştirakçı dövlətlərin üzərinə üç qrup öhdəlik qoyur ki, həmin öhdəliklər üzrə respublikamızın milli tənzimetməsinə nəzər yetirək:

a) işə qəbul üçün minimum yaş həddinin müəyyən olunması. Respublikamızda 15-yaşdan aşağı uşağın əmək fəaliyyətinə cəlb edilməsi imperativ qaydada qadağan edilmişdir (Əmək Məcəlləsinin 249-cu maddəsi);

b) iş gününün müddəti və əmək şəraiti haqqında zəruri tələblərin müəyyənləşdirilməsi. Belə tələblər Əmək Məcəlləsinin 38-ci fəslində müfəssəl formada nəzərdə tutulmuşdur;

c) uşaqların əmək hüququnun, eləcə də UHK-nın 32-ci maddəsinin tələblərinin səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə müvafiq cəza növləri və ya digər sanksiyaların nəzərdə tutulması. İXM-nin 192.8-ci maddəsi 15 yaşına çatmamış şəxsin işə cəlb olunmasına görə cərimə sanksiyası müəyyən etmişdir. CM isə daha ağır əməllərə görə (114.2, 144-2.2.3, 171-ci maddələr) cəzalar nəzərdə tutur. Bu əməllər Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair 1999-cu il Konvensiyasında da ən pis formalar kimi qiymətləndirilmişdir.

Uşağın sağlamlıq hüququ

UHK-nın 24-cü maddəsi bu hüququn müdafiəsi məqsədilə dövlətlər üçün rəhbər müddəalar müəyyənləşdirir və bu müddəalar respublikamızda "Uşaq hüquqları haqqında" Qanunla yanaşı, səhiyyə sahəsində mövcud sahəvi normalarla da tənzimlənir.

Sağlamlıq hüququ uşağın tibbi yardım və reabilitasiya xidmətlərindən ən yüksək səviyyədə faydalanmasını təmin edir. Konvensiya uşaqların səhiyyə xidmətlərinə çıxışı ilə bağlı iştirakçı dövlətlər qarşısında öhdəliklərin siyahısını təqdim edir. Sosial dövlət olmanın tələbi kimi sağlam həyat hüququnu təmin etməyə borclu olan dövlətlər bu hüququn tam şəkildə həyata keçirilməsini təmin etmək üçün beynəlxalq əməkdaşlıq edə bilərlər. Uşaqların sağlam yaşaması, inkişaf edib böyüməsi dövlətin üzərinə düşən vəzifələrdən biridir. Bu çərçivədə dövlətlər uşaqlar üçün böyük təhlükə yaradan fəaliyyətlərdən uzaq durmalı və tədbir görməlidirlər.

Müasir dünyada uşaq ölümlərinə səbəb olan amillərdən başlıcası ekoloji şəraitdir ki, iqlim dəyişikliyi və ətraf mühitin deqradasiyası uşaqların sağlamlığına mənfi təsir göstərir. Çirklənmiş hava, su və qida məhsulları, kimyəvi maddələrə məruz qalma, iqlim dəyişikliyi, quraqlıq, parazitlərin yayılması, bakterial və virus xəstəlikləri uşaqların sağlamlığı üçün təhlükə yaradır. UNICEF tərəfindən aparılan araşdırmalar göstərmişdir ki, bu səbəblərin aradan qaldırılması səyləri 5 yaşadək uşaqlar arasında ölüm hallarının təqribən 26%-nin qarşısını ala bilər. [20]

Sağlamlıq hüququ Avropa Konvensiyası və ona Əlavə Protokollarda birbaşa tənzimlənməsə də, Avropa Şurası qarşısında fərqli hüquqi sənəd olan və sosial və iqtisadi məsələləri tənzimləyən Avropa Sosial Xartiyasında şəxslərin sağlamlıq hüququ təmin edilir. Nəzərə alsaq ki, İHAM-ın Avropa Konvensiyasının iştirakçısı olan dövlətlərə qarşı pozuntu ilə bağlı qərarları nəticəsində iştirakçı dövlətlər zəruri ümumi və xüsusi tədbirlər görmək öhdəliyi daşıyırlar. Deməli, Konvensiyanın normaları iştirakçı dövlətlər tərəfindən sağlamlıq hüququnun səmərəli müdafiəsinə və inkişafına töhfə verir. Bundan əlavə, Məhkəmənin qərarları təhlil edildikdə, sağlamlıq hüququnun digər hüquqlar (yaşamaq hüququ, şəxsi və ailə həyatına hörmət, işgəncələrin qadağan edilməsi və s.) çərçivəsində müdafiəsi nəticəsinə gəlmək olur. Tədqiqatımızın mövzusu uşaqlar olduğu üçün Məhkəmənin yalnız uşaqların sağlamlığı, xüsusilə də yaşamaq hüququ ilə əlaqələndirilə bilən qərarlarını təhlil edəcəyik. Məsələn, Nençeva və başqaları Bolqarıstana qarşı işi üzrə qərar yaşamaq hüququ və dövlətin səmərəli araşdırma öhdəliyinin pozulması ilə bağlıdır. Amma işin məzmununa baxdıqda, görünür ki, uşaqların yaşamaq hüququnun pozulması onların sağlamlıq hüququnun düzgün qorunmaması nəticəsində ölümünə gətirib çıxarmışdır: Bolqarıstanın Djurkovo kəndindəki uşaq evində qalan fiziki və əqli cəhətdən qüsurlu on beş uşaq 1996-97-ci illərdə yemək, istilik və dərman kimi əsas həyati ehtiyaclarının qarşılanmaması nəticəsində vəfat etmişlər. Bolqarıstan dövləti uşaq evində olan uşaqların sağlamlığı və həyatı üçün mümkün təhlükələri aradan qaldıra bilməmiş və ölümə səbəb olan şəxslərin müəyyən edilməsi üçün effektiv araşdırma aparmamışdır. Belə ki, ölümlərdən sonra təqsirləndirilən şəxslər barəsində cinayət işi başlanılsa da, məhkəmə prosesi nəticəsində uşaq evinin müdiri, baş tibb bacısı və tibb işçisi ehtiyatsızlıqdan ölümə səbəb olma cinayətindən bəraət almışlar. Müraciət nəticəsində İHAM tərəfindən müəyyən edilmişdir ki, Bolqarıstan dövlət orqanları uşaq evindəki şəraitdən, ölən uşaqların həyatı üçün mövcud və yüksək ehtimal olunan təhlükədən xəbərdar olmasına baxmayaraq, tez və effektiv tibbi yardım göstərə bilməmiş və onların qarşısının alınması üçün təxirəsalınmaz, praktiki və zəruri tədbirlər görməmişdir. Digər tərəfdən, baş verən xoşagəlməz hadisələrdən sonra iki il ərzində heç bir araşdırma aparılmamışdır. Ona görə də Bolqarıstan onun nəzarəti və himayəsində qayğıya ehtiyacı olan uşaqların yaşamaq hüququnu və səmərəli araşdırma öhdəliyini pozmuşdur. [9]

Başqa bir qərar X və Y Hollandiyaya qarşı işi üzrə şəxsi və ailə həyatına hörmət hüquqi ilə əlaqədar verilmişdir: Zərərçəkmiş şəxsin atası cənab X əlillər evində yaşayan 16 yaşlı əqli qüsurlu qızı X-ın həmin müəssisədə olan B tərəfindən cinsi istismara məruz qalması ilə bağlı ərizə vermişdir. Qızının adından milli ədliyyə orqanları qarşısında da hüquqlarını müdafiə edən X-in cəhdləri nəticəsiz qalmışdı, çünki Hollandiya Cinayət Məcəlləsində bu əməlin baş verdiyi zaman törədilmiş əməl cinayət sayılmırdı. İş üzrə Məhkəmə bildirmişdir ki, 8-ci maddəyə riayət etmək öhdəliyi dövlətin səlahiyyətində olsa da, konkret hallara görə fərqlənir və problemlərin yalnız cinayət hüququ ilə həll edilməsi məcburi deyil. Ona görə də Hollandiyanın hüquq sistemində cinayət sanksiyaları olsa da, hüquqi boşluq vardır. Dövlətin təsirli cəza təmin edə bilmədiyi əsaslarla Konvensiyanın 8-ci maddəsi pozulmuşdur. [8] Dolayısı ilə bu iş də yetkinlik yaşına çatmayan şəxsin sağlamlıq hüququnun yetərincə qorunmaması ilə əlaqədardır.

Uşaqların sosial təminat və istirahət hüquqları

UHK-nın 26-cı maddəsində göstərilir ki, Konvensiyanın iştirakçısı olan dövlətlər uşaqların sosial təminatdan, o cümlədən sosial təminatdan faydalanmaq hüququnu tanımaqla yanaşı, bu hüququn həyata keçirilməsi üçün zəruri tədbirlər görürlər. Hər kəsin sosial təminat hüququnun olduğunu təsbit edən İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Paktdan fərqli olaraq, Uşaq Hüquqları Konvensiyasında uşağın sosial təminat hüququ deyil, sosial təminatdan faydalanmaq hüququ vurğulanır. Bu istiqamətdə vurğu faktiki olaraq uşaqların iqtisadi təhlükəsizliyinin böyüklərin və ya valideynlərin iqtisadi vəziyyətindən asılı olduğunu əks etdirir. 26-cı maddə sosial təminatın necə təmin olunacağına dair göstəriş vermir, lakin dövlətlər onu almaq hüququna malik olan hər kəsin ayrı-seçkilik, sosial stiqma və ya hər hansı digər hüququnu itirmədən və şəxsi həyatın toxunulmazlığına hörmətlə yanaşılmaqla bunu edə bilməsini təmin etməlidir.

Baxmayaraq ki, "Uşaq hüquqları haqqında" Qanunda 13-cü maddə uşağın maddi təminat almaq hüququnu təsbit edir, 29-cu maddə uşaqlara verilən sosial yardımları tənzimləyir, sosial sahədə olan qanunvericilik aktları isə valideynlərlə bağlı müəyyən etdiyi bir çox müavinətlər, pensiyalar formasında uşaqlar üçün sosial imkanlar təqdim edir.

Eyni zamanda, sosial müdafiəyə ehtiyacı olan uşaqlara (gənclərə) sosial kirayə müqaviləsi əsasında mənzillərin verilməsi (maddə 20), internat müəssisələrinin məzunlarının 18 yaşınadək həmin müəssisələrdə yaşamasına icazə verilməsi (maddə 34) də sosial təminat hüququnun təminatına xidmət edir.

Dövlətlərin təcrübəsini təhlil edən Uşaq Hüquqları Komitəsi hesab edir ki, milli sosial təminat qanunvericikləri bir çox "tələləri" ehtiva edir. [18, s.388] Məsələn, resursların ən çox ehtiyacı olanlara çatmasının təmin olunmaması. Komitənin gəldiyi nəticəyə görə, belə çətinliyin öhdəsindən gəlmək üçün diqqətli monitorinq və planlaşdırma lazımdır. [18, s.390]

UHK-nın 31-ci maddəsi uşağın istirahət, asudə vaxt, oyun və əyləncə fəaliyyətləri, mədəni və bədii həyatda iştirak hüquqlarına aiddir. "İstirahət", "asudə vaxt", "oyun" və "incəsənət fəaliyyəti" sözləri bir səviyyədə sinonim kimi görünsə də, aralarında mühüm fərqlər vardır. "İstirahət" fiziki və ya zehni istirahət və yuxu üçün əsas ehtiyacları əhatə edir, "asudə vaxt" insanın istədiyi kimi etmək üçün vaxta və azadlığa malik olmağı nəzərdə tutan daha geniş termindir, "incəsənət fəaliyyəti" idman, incəsənət, sənətkarlıq və elmi və ya kənd təsərrüfatı fəaliyyəti kimi bütün fəaliyyətləri əhatə edir, "oyun"a isə böyüklər tərəfindən nəzarət olunmayan və heç bir qaydalara mütləq uyğun gəlməyən uşaq fəaliyyətləri daxildir. [18, s.469]

Göründüyü kimi, 31-ci maddə istirahət hüququ altında bir neçə hüququ nəzərdə tutur: istirahət hüququ, asudə vaxt hüququ, mədəni həyatda iştirak hüququ və oynamaq hüququ. Bu hüquqlardan sırf uşaqlara məxsus olanı oynamaq hüququdur. Oyun uşaqların inkişafının vacib hissəsidir və hər hansı səbəbdən oynaya bilməyən uşaqlar mühüm sosial və şəxsi bacarıqlardan məhrum ola bilərlər (Prinsiplərdən danışarkən, Ermənistanın törətdiyi vəhşiliklərin nəticəsində uşaqlarımızın bu hüquqdan məhrum edilməsi ilə bağlı yazmışdıq).

UHK-dan əvvəlki beynəlxalq sənədlərdə də oynamaq hüququ öz əksini tapmışdır. İlk dəfə 1924-cü il Cenevrə Uşaq Hüquqları Bəyannaməsində "Uşaq fiziki, əqli və təbii inkişafına imkan verən şəraitdə saxlanılmalıdır" ifadəsi ilə təsbit olunmuşdusa, 1959-cu il Bəyannaməsinin 7-ci maddəsi "Uşaq təhsillə eyni məqsədlərlə oyun və əyləncə üçün bütün imkanlarla təmin edilir; cəmiyyət və dövlət orqanları uşağın bu hüquqdan istifadəsini artırmağa çalışırlar" deyə bəyan etmişdi.

"Uşaq hüquqları haqqında" Qanunda 25-ci maddə istirahət, asudə vaxt hüququ və mədəni həyatda iştirak hüququnu yetərli tənzimləmişdir. Hətta 23-cü maddə fitri istedadı olan uşaqlara dövlət qayğısı ilə bağlı məsələləri əhatə edir. Oynamaq hüququna gəldikdə isə, 25-ci maddədə dövlət öz üzərinə uşaqların asudə vaxtının düzgün təşkili üçün müxtəlif vasitələrin (məktəbdənkənar müəssisələrin, uşaq və gənclər idman, mədəniyyət və sağlamlıq ocaqlarının və digər istirahət yerlərinin geniş şəbəkəsinin) yaradılması öhdəliyini götürsə də, hüquqlar sırasında uşağın oynamaq hüququ təsbit olunmur. Uşaq Hüquqları Komitəsi hesab edir ki, oynamaq hüququ üçün vasitələr incəsənət fəaliyyəti üçün vasitələrlə eynilik təşkil etmir: "Uşaqların oyun və əyləncə fəaliyyətləri bir-birindən ona görə fərqləndirilə bilər ki, oyun strukturlaşdırılmamış və böyüklər tərəfindən idarə oluna bilməyəcək (baxmayaraq ki, bu, böyüklər tərəfindən asanlaşdırıla və nəzarət oluna bilər), halbuki əyləncə fəaliyyətləri əsasən böyüklər tərəfindən müəyyən edilir və əslində, məktəb kurikulumunun bir çox elementlərini (idman, ifaçılıq və yaradıcılıq sənəti, riyaziyyat və texnologiya və s.) təşkil edir. Oyunun təsadüfi, anarxik təbiəti ölkənin iqtisadiyyatına və ya beynəlxalq profilinə açıq-aşkar heç bir töhfə vermir. Bununla belə, oyun uşaqların fiziki və psixoloji sağlamlığına böyük töhfə verir. Danışıqlar aparmaq, paylaşmaq və özünü

idarə etmək kimi bir çox sosial bacarıqlar digər uşaqlarla nəzarətsiz oyun vasitəsilə əldə edilir." [18, s.472] Deməli, Komitə oynamaq hüququ üçün məkan kimi müxtəlif parkları, istirahət mərkəzlərini, uşaq-əyləncə mərkəzlərini tanıyır. Belə məkanların əksəriyyətinin pullu olması uşaqların oynamaq hüququnu pozurmu? Uşaqların Oynamaq Hüququ üzrə Beynəlxalq Assosiasiyası (IPA) Uşağın Oynamaq Hüququ Bəyannaməsini qəbul etmişdir ki, bu Bəyannamədə bir sıra həyəcanverici tendensiyalar və onların uşaqlara mənfi təsiri ilə bağlı narahatlıq ifadə edilir ki, bunlar sırasında cəmiyyətin oyunun əhəmiyyətinə biganəliyi, məktəblərdə nəzəri və akademik tədqiqatlara həddindən artıq önəm verilməsi, yaşamaq və inkişaf üçün qeyri-adekvat təminatlarla yaşayan uşaqların sayının artması ilə yanaşı, uşaqların kommersiya məqsədli istismarının artması və mədəni ənənələrin korlanması və kommersiya məqsədli əyləncə tədbirlərinə daha çox diqqət ayrılması ön plana çəkilir. Ona görə də Bəyannamə beş sahənin – səhiyyə, təhsil, rifah, asudə vaxt və planlaşdırma inteqrasiya olunmuş formada fəaliyyət göstərməsini, kommersiya xarakterli və ya zorakı oyun və oyuncaqlara az yer verilməsini və daha çox oyun yönümlü peşəkarlara üstünlük verilməsini tələb edir. [10] Hesab edirik ki, bu tələb dövlətdaxili siyasətlərdə rəhbər tutulmalıdır.

Qeyd etmək lazımdır ki, sosial, iqtisadi və mədəni hüquqların uşaqların gələcək inkişafına mühüm təsiri bu hüquqların müdafiəsi üzrə milli təsisatlardan kompleks və hərtərəfli yanaşmanı tələb edir. Təsadüfi deyil ki, bu məqsədlə dünya dövlətlərinin bir çoxunda ixtisaslaşmış ombudsmanlar yaradılmışdır. İlk belə vəzifə 1981-ci ildə Norveçdə, daha sonra bir sıra Avropa dövlətlərində, Kanada, Yeni Zelandiya, Rusiya, Avstraliyada da yaradılmışdır. Respublikamızda isə Ombudsmanın əsas fəaliyyət istiqamətlərindən biri də uşaqların hüquqlarının müdafiəsidir. İllik məruzələrə əsasən, Ombudsmana edilən müraciətlərin daha çox sosial, iqtisadi hüquqlarla bağlı olması qənaətinə gələ bilərik. Belə ki, 2022-ci ilin məlumatına əsasən, uşaq hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə, əsasən, alimentin ödənilməsi və ünsiyyət hüququnun təmini ilə bağlı məhkəmə qərarlarının icrası, qəyyumluq və himayə məsələləri, müayinə və müalicənin təşkili, əlilliyin qiymətləndirilməsi, uşaq müəssisələrində zorakılıq, məişət və ya cinsi zorakılıq, sosial təminat, sağlamlıq və təhsil hüququ, müəssisəyə yerləşdirmə və bu kimi digər məsələlər öz əksini tapmışdır. [2] Məruzələr üzrə sonda verilən təkliflərin əksəriyyəti də uşaqların sosial, iqtisadi hüquqlarının müdafiəsinə yönəlmişdir. Məsələn, respublikamızda 3 yaşınadək uşağa qulluğa görə müavinətin yalnız əmək fəaliyyəti ilə məşğul olanlara verilməsini nəzərə alaraq, bu müavinətin əmək fəaliyyəti ilə məşğul olmayan şəxslərə də şamil edilməsi təklif kimi irəli sürülmüşdür ki, bu cür sosial yönümlü təkliflər nəticə etibarilə uşaqların rifahının yaxşılaşdırılmasına xidmət edir.

Nəticə

UHK və milli normaların təhlilinə əsasən, uşaqların təhsil hüququnun iki fərqli aspektini müəyyən etmək olar: mahiyyətcə dəyərli olan və insan hüquqlarına hörməti təcəssüm etdirən təhsil proseslərində iştirak etmək hüququ; təhsil müəssisələrinə çıxış hüququ, yəni təhsilin əlyetərliyi. Uşaqlıq dövrü xüsusi əhəmiyyət kəsb etsə də, hüququn birinci hissəsi bütün həyatı boyu tətbiq edilir. Mövzu çərçivəsində tərəfimizdən daha çox diqqət ikinci hissəyə yetirilmişdir. Çünki uşaqların təhsil proseslərində tam və maneəsiz formada iştirak etməsi üçün bir sıra ilkin şərtlər mövcud olmalıdır. Qısa sözlə desək, başqa hüquqların qanunsuz məhdudlaşdırılması və ya pozulması da uşaqlar üçün təhsilin əlyetərliyinə maneələr yaradır. Eyni zamanda, təhsilin əlyetərliyi milli təhsil sistemlərinin necə təşkil olunduğundan və təhsil siyasətinin uğurlu olub-olmamasından asılıdır.

Təhsilin əlyetərliyi və mümkünlüyünün təmin edilməsi məqsədilə UHK ibtidai təhsilin pulsuz və icbari olmasını, məktəblərdə davamiyyətə kömək göstərilməsini və məktəbi tərk edən uşaqların sayının azaldılması üçün tədbirlər görülməsini tələb edir ki, birinci tələb "Uşaq hüquqları haqqında" Qanunun 22-ci maddəsində öz əksini tapmışdır. İkinci tələbin icrası məqsədilə hüquqi reaksiya kimi təhsildən yayındırmanın qadağan edilməsini qeyd edə bilərik. Lakin bu cür qadağanın pozulduğu halda tətbiq olunacaq məsuliyyət tədbiri məsələsi sual altındadır. 2016-cı ilədək İXM-nın 189-cu maddəsində 7 gündən artıq üzrsüz uşağın məktəbə gəlməməsinə görə 100 manat məbləğində cərimə müəyyən edilirdi. Lakin hal-hazırda belə bir sanksiya nəzərdə tutulmamışdır. Hesab edirik ki, uşaqların məktəbdən yayındırılmasının qarşısını almaq hər hansı bir cərimə ilə o qədər səmərəli nəticə verməyəcəkdir. Çünki icbari təhsildən uzaqlaşdırılmanın müxtəlif sosial-iqtisadi səbəbləri vardır (erkən nikah, məcburi əməyə cəlb etmə və s.). Məhz həmin səbəblərin aradan qaldırılması nəticə etibarilə uşaqların təhsil hüququnun da tam təmin olunması ilə nəticələnə bilər. Bu baxımdan, İXM-də nəzərdə tutulmuş cərimənin ləğv edilməsini məqsədəuyğun sayırıq. Həmçinin qeyd etməliyik ki, uşağın məktəbdən yayınması kimi gələcək üçün təhlükəli və riskli olan bir əməlin cüzi bir rəqəmlə cərimələnməsi özü də ədalətsiz yanaşmadır. Əslində, təhsildən yayındırma uşaqların baxımsız qalmasının bir növü kimi qiymətləndirilməli və bir çox xarici dövlətlərdə (Böyük Britaniya, ABŞ-ın bir çox ştatları) olduğu kimi kriminallaşdırılmalıdır.

Fikrimizcə, qeyd olunan Qanunun 25-ci maddəsində bilavasitə oynamaq hüququ əks olunmasa da, daha mütərəqqi formada tənzimləmə mövcuddur. Belə ki, uşağa öz maraqlarına və qabiliyyətinə uyğun olaraq məktəbdənkənar istirahət və məşğuliyyət növü seçməkdə müstəqillik verilir. Qanunverici uşağın yetkin şəxs olmadığını və zərərli oyunlara daha çox maraq göstərə bilmə təhlükəsini nəzərə alaraq, həm valideynlər, həm də dövlət orqanları üçün iki istiqamətdə vəzifələr müəyyənləşdirir: bir tərəfdən, uşağın istirahət və asudə vaxtlarında mənfi təsirlərə məruz qalmasının qarşısının alınması üzrə tədbirləri görmək (məsələn, virtual oyunlara meylliliyin qarşısını almaq); digər tərəfdən uşaqların

istirahət hüququnu həyata keçirmək üçün məkanlardan istifadənin pulsuz və güzəştli qaydalarını müəyyən etmək. Bu baxımdan, hesab edirik ki, oynamaq hüququ doktrinada tanınsa da, milli-hüquqi tənzimləmə daha düzgün hüquqi yanaşma sərgiləmişdir ki, bu, beynəlxalq normalarla uyğunluq təşkil edir.

İstinadlar:

1. Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarına dair kompleks beynəlxalq hesabat. BDU, 2021, 118 s.

2. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman). İllik Məruzə, 2022. https://ombudsman.az/az

3. Əliyev Ə.İ. İnsan hüquqları: Dərslik. Bakı: Nurlar, 2019, 352 s.

4. Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti. Bakı: AZSEA nəşriyyatı, 2012, 232 s.

5. Elif Kösesoy. Birleşmiş Milletler Çocuk Hakları Sözleşmesi çerçevesinde çocuğun ihmal ve istismardan korunma hakkı. Ankara, 2019, 237 s.

6. Child labour. https://data.unicef.org/topic/child-protection/child-labour/

7. Eriksson v. Sweden. Application No. 60437/08, 12 April 2012. https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-110322%22]}

8. X and Y v. THE Netherlands. Application no. 8978/80, 26 March 1985. https://www.coe.int/t/dg2/equality/domesticviolencecampaign/resources/x%20and%20y%20v%20the%20netherlands_EN.asp

9. In Nencheva v. Bulgaria, European Court finds state responsible for deaths in institution for children with disabilities. https://ijrcenter.org/2013/06/25/in-nencheva-v-bulgaria-european-court-finds-state-responsible-for-deaths-in-institution-for-children-with-disabilities/

10. IPA Declaration of the Child's Right to Play. https://ipaworld.org/about-us/declaration/ipa-declaration-of-the-childs-right-to-play/

11. Janusz Korczak. The Child's Right to Respect. translated by E.P Kulawiec. Office of the Commissioner for Human Rights, Council of Europe, 2009, 91 p.

12. Jody Heymann, Aleta Sprague and Amy Raub. Advancing Equality: How Constitutional Rights Can Make a Difference Worldwide. University of California Press, 2020, 416 p.

13. Kjeldsen, Busk Madsen and Pedersen v. Denmark. Application No 5095/71; 5920/72; 5926/72, 7 December 1976. https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-57509%22]}

14. Kocabaş v. Switzerland. Application No 29086/12, 10 January 2017. https://www.lawpluralism.unimib.it/en/oggetti/171-osmanoglu-and-kocabas-v-switzerland-no-29086-12-e-ct-hr-third-section-10-april-2017

15. Maria Herczog. Rights of the Child and Early Childhood Education and Care in Europe // European Journal of Education, December 2012, Vol. 47, No. 4, pp. 542-555

16. OECD. Starting Strong II. Early Childhood Education and Care. Paris, 2006. https://www.oecd.org/education/school/startingstrongiiearlychildhoodeducationandcare.htm

17. Oliver C. Ruppel, Christian Roschmann and Katharina Ruppel-Schlichting. Climate Change: International Law and Global Governance: Volume I: Legal Responses and Global Responsibility. Nomos Publishers, 2013, 1016 p.

18. Rachel Hodgkin, Peter Newell. Implementation Handbook for the Convention on The Rights of The Child. United Nations Publications, 2007, 788 p.

19. Tristan McCowan. Reframing the universal right to education // Comparative Education, 2010, Vol. 46, No. 4, pp. 509-525

20. UNICEF. Healthy Environments for Healthy Children. https://www.unicef.org/health/healthy-environments

PROBLEMS OF APPLİCATİON OF İNTERNATİONAL NORMS ON PROTECTİON OF SOCİAL, ECONOMİC AND CULTURAL RİGHTS OF CHİLDREN İN NATİONAL PRACTİCE

Zamiq Allahverdiyev[*]

Abstract

The formation of the need for the special protection of children and the recognition of their rights came to the fore as a result of the historical processes taking place in the world. In the article, the factors determining the international legal protection of children's socio-economic and cultural rights were studied from both a theoretical-historical and empirical point of view. As a result of the comparative analysis, the article clarified the problems encountered during the practical application of international legal norms in the field of child protection, and presented suggestions and recommendations.

As a result of the conducted research, in addition to presenting proposals for the elimination of existing practical and legal problems, analyzes were also conducted on the positively developing norms of domestic regulation.

Keywords: *children's rights, international legal norms, labor rights, right to education, right to health, right to rest.*

Проблемы применения международных норм по защите социальных, экономических и культурных прав детей в национальной практике

Замик Аллахвердиев[**]

Резюме

Формирование потребности в особой защите детей и признании их прав вышло на первый план в результате исторических процессов, происходящих в мире. В статье факторы, определяющие международно-правовую защиту социально-экономических и культурных прав детей, изучены как с теоретико-исторической, так и с эмпирической точки зрения. В результате сравнительного анализа в статье уточнены проблемы, возникающие при практическом применении международно-правовых норм в сфере защиты детей, а также представлены предложения и рекомендации.

В результате проведенного исследования, помимо представления предложений по устранению существующих практических и правовых проблем, также был проведен анализ положительно развивающихся норм отечественного регулирования.

Ключевые слова: *права детей, международно-правовые нормы, трудовое право, право на образование, право на здоровье, право на отдых.*

[*] Ph.D Candidate, Baku State University

[**]

ƏRAZİ SEPARATÇILIĞI PROBLEMİNİN HƏLLİNƏ HÜQUQİ YANAŞMALAR

Ramin Əliyev*

Xülasə

Bu məqalənin məqsədi hazırkı qlobal və xeyli dərəcədə xaotik dünyamızda özünü biruzə verən "separatçılıq" konsepsiyasının araşdırılmasından ibarətdir. Bir qayda olaraq, separatçılıq, bir qayda olaraq, "dövlət" kimi tanınan siyasi qurumun tərkibindən müəyyən bir sosial qrupun və ona aid ərazinin ayrılması kimi başa düşülür. Burada ən başlıca problem isə, ondan ibarətdir ki, separatçılığın beynəlxalq hüquqi səviyyədə cinayət əməli kimi müəyyənləşdirilməsi, demək olar ki, qeyri-mümkündür. Bu baxımdan, məqalədə separatizmin bir sıra təzahür formaları araşdırılır və separatçılığa qarşı mübarizənin konstitusion-hüquqi və cinayət-hüquqi aspektləri tədqiq edilir.

Açar sözlər: *separatçılıq, münaqişə, müharibə, hüquqi məsuliyyət, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı.*

Giriş

Artıq iki əsrə yaxındır ki, insanın yaşamı sadəcə coğrafi parametrlərlə səciyyələnən məkan anlayışının üzərində qurulmamışdır. İnsan mövcudluğunu və azadlığını məhdudlaşdıran təbii faktorların (məsələn, biologiyanın qanunları, fizikanın qanunları və s.) sırasına daha biri - əhəmiyyətli dərəcədə iqtisadi mahiyyətə malik ərazi faktoru da əlavə olunmuşdur. Yer kürəsində insan sayının çoxalması, əhalinin ərzaqla təminatı sahəsində ciddi problemlərin meydana gəlməsi, mərkəzləşmiş və bir-birilərilə kəskin geopolitik rəqabətdə aparan dövlətlərin, güc mərkəzlərinin sayının artması, ayrı-ayrı ölkələr arasında sərhəd xətlərinin dəqiq müəyyənləşdirilməsi, elm və texnologiyaların da inkişafı nəticəsində hər dövlətin öz ərazisi və sərhədlərini daha səmərəli biçimdə kontrol etmək imkanları qazanması, "insan-cəmiyyət-dövlət" münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması və s. nəticəsində ərazi siyasi-iqtisadi və hüquqi baxımdan artıq əvvəlki əsrlərdəki "coğrafi məkan" konsepsiyasından köklü surətdə fərqlənir.

Bir sözlə, müasir dövrdə ərazi və onun üzərindəki resurslar üzərindəki nəzarətin ələ keçirilməsi məqsədilə baş verən geopolitik toqquşmaları daha da şiddətlənməkdədir. Bu baxımdan, hazırda ərazi müasir insanın hər gün üzləşdiyi, son dərəcədə mürəkkəb bir varlığa-"dövlət" konsepsiyasına ayrılmaz tellərlə bağlıdır. [1] Çünki dövlətin mövcudluğunun özülünü təşkil edən resurslar məhz dövlətə aid ərazilərdə yerləşir. Dövlət nə qədər geniş və əhatəli imkanlara malik olarsa, insan və cəmiyyət qarşısında üzərinə götürdüyü öhdəlikləri də bir o qədər uğurla yerinə yetirə və daha da möhkəmlənə bilər. Bu baxımdan, əraziyə sahiblənmədən oradakı istənilən resursa çıxış əldə etmək ya qeyri-mümkün, ya da həddindən artıq məsrəfli və iqtisadi cəhətdən az sərfəli olur. Beləliklə, resurs-

* hüquq magistrı (Bakı Dövlət Universiteti), Gəncə Dövlət Universitetinin Tarix-Coğrafiya fakültəsi Sosial fənlər kafedrasının müəllimi

lara (ərazilərə) nəzarət uğrunda geopolitik mübarizə daima beynəlxalq münasibətlərdə münaqişə və müharibələrin meydana gəlməsini şərtləndirmişdir. Aşağıdakı diaqramda ərazi və resurslar arası əlaqəni diqqətinizə təqdim edirəm.

Ərazi separatçılığının anlayışı və xüsusiyyətləri

Fikrimcə, ərazi separatçılığı dedikdə, istənilən bir dövlətin müasir beynəlxalq hüquq normaları çərçivəsində hamılıqla tanınmış sərhədləri daxilində, irq, din, etnik kökən, dil, ideologiya və s. əlamətlər baxımından konkret bir regionda kompakt yaşayan, həmin dövlətlə ayrılmaz siyasi-hüquqi bağlara malik, eləcə də həmin dövlətin yerdə qalan əhalisinə nisbətdə azlığı təşkil edən əhali kütlələrinin adından sui-istifadə edən "liderlər" və "hökumətlər" tərəfindən bu azlığın məskunlaşdığı ərazinin, müxtəlif siyasi, sosial-iqtisadi, tarixi, mədəni və s. bəhanələr uydurmaqla, əksər hallarda da, zorakı üsullara əl atmaqla, siyasi, iqtisadi və hüquqi cəhətdən sözügedən dövlətdən çoxluğun iradəsinin ziddinə ayırmaq cəhdləri başa düşülməlidir.

Yuxarıdakı anlayış nisbidir və subyektiv qiymətləndirilə bilər. Lakin hər halda, hesab edirəm ki, bu anlayışın köməkliyi ilə ərazi separatçılığının əsl mahiyyətinə xeyli aydınlıq gətirilir. Qeyd etməliyəm ki, müvafiq ədəbiyyatda separatçılıq bəzən "ayrılma" [12, ss.15-21], "öz müqəddəratını təyinetmə" [10, s.171-173] və s. kimi daha demokratik anlayış və təriflərlə ifadə olunur ki, bu da bu cür təhlükəli tendensiya ilə hüquqi mübarizənin səmərəliliyini xeyli aşağı salır.

Anlayışın əsasında ərazi separatçılığının aşağıdakı səciyyəvi cəhətlərini fərqləndirmək mümkündür.

Birincisi, adından da göründüyü kimi, ərazi separatçılığı insanın və dövlətin mövcudluğu üçün ən önəmli ünsürə - əraziyə birbaşa qəsdi özündə ehtiva etdirir ki, bu da təcavüz cinayətinə [3] bərabərdir. Təbii ki, ikinci gizli hədəf isə, həmin ərazidəki resurslardır.

İkincisi, ərazi separatçılığında ən destruktiv yer və rol əsl niyyətlərini, karyera hirslərini və arzularını, mən deyərdim, hətta şəxsi kin-kidurətlərini son dərəcədə məharətlə vətənpərpərlik, azadlıq, millətsevərlik, haqpərəstlik və s. kimi örtüklər altında gizlədə bilən, xarici ünsürlər tərəfindən dəstəklənən "liderlər"dən formalaşmış qruplara [7, s.224], de facto "hökumətlər"ə aiddir. Burada separatçı zona əhalisinin rolu çox az hallarda həlledici olur. Beynəlxalq hüquq ədəbiyyatında de facto "qurumları" tanıyan, onlarla əlaqələr yaradan dövlətlərin özlərinin beynəlxalq-hüquqi öhdəliklərinə zidd davrandıqları, qeyri-leqal "dövlət" olduqları xüsusilə vurğulanır. [13, s.45].

Üçüncüsü, hər nə qədər demokratiya donu geyindirilirsə geyindirilsin, ərazi separatçılığı həmişə demokratiyanın ən vacib prinsiplərindən birinin - çoxluğun iradəsinin üstünlüyü prinsipinin ən kobud surətdə tapdalanmasından başqa bir şey kimi qiymətləndirilməməlidir.

Dördüncüsü, ərazi separatçılığı birmənalı şəkildə silahlı münaqişə və müharibələrə aparıb çıxarır.

Beşincisi, dünya dövlətləri arasında ərazi separatçılığına münasibətdə vahid praktiki hüquqi-siyasi mövqe formalaşmadığından [8, s.33], ikili standrtların tətbiqi ərazi separatçılığının geniş vüsət almasına əlverişli şərait yaradır.

Altıncısı, təcrübə də göstərir ki, ərazi separatçılığı gec, ya tez milli və beynəlxalq yurisdiksiyadan kənar "boz zonalar"ın formalaşmasına gətirib çıxarır.

Yeddincisi, bütün yuxarıda sadalanan "xüsusiyyətləri" özündə cəmləşdirən ərazi separatçılığı fenomeni irqi, milli, dini, ideoloji və s . zəmində ədavət və düşmənçiliyi artırır, mövcud milli və beynəlxalq hüquq qaydasının əsaslarını sarsıdır, müharibə cinayətləri və genosid cinayətləri kimi xüsusilə ağır əməllərin törədilməsini inanılmaz dərəcədə asanlaşdıran hüquqi-təşkilati boşluq əmələ gətirir, milli, regional, hətta qlobal miqyasda davamlı sosial-iqtisadi inkişafa ağır zərbə vurur, insanların yaşam şəraitini olduqca dözülməz hədlərə çatdırır, bəşəriyyətin əvəzsiz mədəni irs nümunələrinin amansızcasına məhvinə səbəb olur, habelə ətraf mühiti son dərəcədə zərərli təsirlərə məruz qoyur.

Ərazi separatçılığına maddi hüquq müstəvisindən baxış

Müasir maddi hüququn ərazi separatçılığına münasibəti ikili xarakterə malikdir. Belə ki, dövlətdən ayrılma bir sıra hallarda leqal, bir sıra hallarda isə, qeyri-leqal hesab olunur. [8, s.33] "Leqal" separatçılıq beynəlxalq hüquqdakı sesessiya konsepsiyasına, ayrılma [11, ss. 3-9.], habelə parçalanma və s. [6, s.77] anlayışlara uyğundur. Bundan əlavə, maddi hüquq bir tərəfdən, ərazi separatçılığını həm bir siyasi-hərbi proses kimi görür və hüquq sanki ərazi separatçılığını hüquqi problem kimi tanımağa cəhd belə göstərmir. Digər tərəfdən də, hüquq həmin bu siyasi, iqtisadi, etnik, dini, hərbi və s. problemlə əlaqədar törədilən əməlləri müstəqil cinayət tərkibi yaradan əməllər kimi tövsif edir və onları törədən şəxslər üçün müvafiq cəzalar nəzərdə tutur. Belə bir qeyri-müəyyən mövqe də vəziyyəti xeyli mürəkkəbləşdirir.

Ümumilikdə, ərazi separatçılığına münasibətdə konsitusion-hüquqi mövqe aşağıdakı tezislərlə ifadə oluna bilər:

1. konstitusiya hüququ ərazi separatçılığı deyə hər hansı hüquqi konsepsiya və ya anlayış tanımır, daha çox sesessiya və ya ayrılma kimi anlayışlar mövcuddur;

2. lakin konstitusiya hüququnda dövlətin ərazi bütövlüyünü qoruyan [9, s.309] və həmin ərazinin özgəninkiləşdirilməsini [14] qadağan edən müddəalar mövcuddur;

3. beləliklə, dövlətin öz ərazisini qorumaq məqsədilə istənilən imkandan istifadə, o cümlədən adekvat güc tətbiqi hüququ vardır;

4. istənilən zonanın beynəlxalq hüquqla tanınmış hər hansı bir dövlətdən ayrılması aşağıdakı şərtlərlə hüquqi, qanuni və legitim sayıla bilər:

a) separatçı zona ayrılmaqla bağlı iddialarının həm hüquqi, həm də praktiki əsaslarının mövcudluğunu sübuta yetirə bilərsə;

b) ayrılma aktı dinc, hüquqi yollarla həyata keçirilərsə;

c) məsələ ilə əlaqədar keçirilən referendumda bütün ölkə əhalisi iştirak edərsə [2];

d) bu referendumda ölkə əhalisinin böyük əksəriyyəti ayrılmanın lehinə səs verərsə.

5. nəticə etibarilə, qeyd etmək lazımdır ki, ərazi separatçılığı, mahiyyəti üzrə, qeyri-hüquqi və qeyri-qanuni olsa da, əksər ölkələrin konstitusiya hüququnda və konstitusiyasında, nə də başqa bir qanunda onun anlayışı və müxtəlif hüquqi aspektləri, bu fenomenlə hüquqi mübarizə yolları ilə bağlı konkret prinsip və normalar mövcud deyildir.

Vurğulamalıyam ki, cinayət qanunvericiliyində "separatçılıq" anlayışı yoxdur. Təbii ki, ərazi separatçılığı cinayət qanununda cinayət əməli kimi nəzərdə tutulmadığına görə bu işlə məşğul olan şəxslərin əməllərinə zamanında adekvat hüquqi qiymət verilməsi, beləliklə də, gələcəkdə onlar tərəfindən törədilə biləcək daha böyük faciələrin qarşısının vaxtında alınması işi mürəkkəbləşir. Ərazi separatçılığı ilə məşğul olan şəxslərin əməlləri digər cinayət tərkibləri (məsələn, dövlətə xəyanət, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə və s.) ilə tövsif olunur. [15, s.991]

Göstərilənləri nəzərə alaraq, cinayət tərkibi yaradan əməl kimi ərazi separatçılığına dair aşağıdakı anlayışı təklif edə bilərəm: "Ərazi separatçılığı, cinayət hüququ nöqteyi-nəzərindən, dövlətin ərazi bütövlüyünü parçalamaq məqsədi ilə bir qrup şəxs, əksər hallarda da dövlətdaxili və xarici ünsürlərdən təşkil olunmuş mütəşəkkil cinayət birlik tərəfindən açıq surətdə, birbaşa qəsdlə, "yumşaq güc" və ya silahlı güc tətbiqi vasitəsilə törədilən, beynəlxalq sülh və təhlükəsizliyin əsaslarına qarşı yönəlmiş, ən təməl insan hüquq və azadlıqlarının sistemli, geniş miqyaslı, ardıcıl və kobud surətdə tapdalanmasına gətirib çıxaran xüsusilə ictimai təhlükəli, tamamilə qeyri-hüquqi, qeyri-qanuni və təqsirli cinayət əməlidir".

Nəticə

Son iki əsr ərzində Azərbaycan xalqı dünyada ərazi separatçılığına ən sistemli və ardıcıl surətdə məruz qalmış xalqlardan biridir. Həm Azərbaycan Demokratik Respublikası dövründə (1918-1920-ci illər), həm Azərbaycan SSRİ dönəmində (1920-1991-ci illər), həm də müasir Azərbaycan Respublikasının yarandığı ilk illərdə (1991-1993-cü illər) xalqımız dəfələrlə ərazi separatçılığı fenomeninin son dərəcədə neqativ təsirlərinin acı nəticələrini yaşamalı olmuşdur. Nəticədə, milyonlarla soydaşımız doğma torpaqlarından didərgin düşmüş və mal-mülkünü, sağlamlığını itirmiş, yüz minlərlə Azərbaycanlı yaşamaq hüququndan məhrum edilmişdir. [4, ss.25-37]

1993-cü ildə Ümummilli Öndərimiz Heydər Əliyev cənablarının ölkədə hakimiyyətə qayıdışı ilə Azərbaycan xalqını və dövlətini birləşdirən, vahidləşdirən dəyərlər ön plana çəkildi və ən yüksək səviyyədə qoruma altına alındı. Buna paralel surətdə xalqın hər hansı formada parçalanmasına, zərrə miqdarda belə olsun, ehtimal yarada biləcək bütün həssas məsələlər köklü surətdə öz həllini tapdı. Müdirk rəhbərimizin son dərəcədə uzaqgörənliyi nəticəsində Azərbaycan

məkanındakı və bütövlükdə regionumuzdakı iqtisadi-siyasi reallıqlara söykənən bu siyasət və strategiya sadəcə müsbət təcrübələr, ideya və bəyanatlar olaraq qalmadı. Onların hamısı mükəmməl, sabit və təməl hüquqi prinsiplər kimi 12 noyabr 1995-ci il tarixli konstitusiyamızda əksini tapdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları da 2018-ci ilin fevralında keçirilmiş Yeni Azərbaycan Partiyasının VI qurultayında separatizmlə barışmaz mübarizənin vacibliyini xüsusilə qeyd etmiş və bildirmişdir ki, "Avropa da görür ki, separatizm nə dərəcədə təhlükəli meyildir. Biz isə təcavüzkar separatizmlə üzləşmişik". [8, s.33] Məhz bu cür barışmaz mövqenin əyani-praktiki nəticəsi olaraq 27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Respublikasının təcavüzkar separatizmə qarşı başlatdığı qəti hərbi əməliyyatlar nəticəsində ölkənin ərazi bütövlüyünün bərpası mümkün olmuşdur.

Doğrudur, Azərbaycan Respublikasının Konstitusiyasında da, konkret olaraq, ərazi separatçılığının anlayışı və xüsusiyyətləri barədə ümumi hüquqi formulalar yoxdur. Lakin bu məqam əsas qanunumuzun hazırlandığı və qəbul olunduğu zamanın tələblərindən irəli gəlirdi. Ölkəmizin konstitusiyası həmin təhdidi "ərazi bütöblüyünün pozulması", "ərazinin özgəninkiləşdirilməsi" kimi tanıyır və bu əməlləri tamamilə qadağan edir. Ümumiyyətlə, Azərbaycan Respublikasının həmin təhdidə qarşı mübarizəsi aşağıdakı beş konstitusion təməl prinsipin üzərində qurulmuşdur [4, ss.41-43]:

1. effektli dövlət idarəçilik aparatının yaradılması, bu aparatın fasiləsiz, operativ və səmərəli fəaliyyət göstərməsi;

2. Ictimai asayişin, hüquq qaydasının, eləcə də əsas insan hüquq və azadlıqlarının maksimum səviyyədə qorunması;

3. Azərbaycan dövlətinin və xalqının ərazisindəki bütün mədəniyyətlərə dərin hörmət və ehtiramla, bərabər əsaslarla yanaşması;

4. Azərbaycan dövlətinin suverenliyinin və Azərbaycan dövləti ərazilərinin bütövlüyünün qorunması və Azərbaycan dövlətinin və xalqının ərazi itkiləri ilə heç zaman barışmaması;

5. beynəlxalq miqyasda ərazi separatçılığına münasibətdə vahid, barışmaz və dəyişməz, ikili standartlardan tamamən xali bir mövqe sərgilənməsi.

Sonda qeyd etməliyəm ki, separatçılıqla mübarizə ayrı-ayrı dövlətlərin işi deyil və bu təhlükəli tendensiya ilə mübarizə bütün beynəlxalq birliyin vəzifəsidir. Lakin təəssüflər olsun ki, müasir beynəlxalq hüququn ərazi separatçılığı təhdidinə münasibətdə barışmaz mövqe nümayiş etdirən mütərəqqi müddəaları bir sıra dövlətlər tərəfindən "ikili standartlar prinsipi" nöqteyi-nəzərindən qavranılır və tətbiq edilir. Yalnız Azərbaycan da daxil olmaqla separatçılıq problemindən əziyyət çəkən dövlətlər ərazi separatçılığına münasibətdə beynəlxalq hüququn ruhu ilə bütün aspektlərdə tam şəkildə uzlaşan daha ədalətli və prinsipal mövqe sərgiləyir.

İstinadlar:

1. Azərbaycan Respublikasının Konstitusiyası, maddə 11.

2. Azərbaycan Respublikasının Konstitusiyası, maddə 11, III bənd.

3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, xüsusi hissə, XI fəsil. Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər.

4. Heydər Əliyev, Azərbaycan XXI Əsrin və Üçüncü Minilliyin Ayrıcında. Bakı, 2001, 55 s.

5. Yeni Azərbaycan Partiyasının VI qurultayında İlham Əliyevin nitqi – 08 fevral 2018-ci il (https://president.az/az/articles/view/26998 - son baxış – 22.11.2023, 23:32).

6. Antonio Cassese, International Law (Second edition). Oxford University Press, 2005, 558 pages.

7. Christian Walter, Antje von Ungern-Sternberg, Kavus Abushov, Self-Determination and Secession in International Law. Oxford University Press, 2014, 318 pages.

8. Jing Lu, On State Secession from International Law Perspectives, Guangzhou, Springer 2018, 295 pages pages.

9. Marcelo G. Kohen, Secession: International Law Perspectives. Cambridge University Press, 2006, 548 pages.

10. Martin Dixon, Textbook on International Law (Seventh edition). Oxford University Press, 2013, 393 pages.

11. Pau Bossacoma Busquets, Morality and Legality of Secession: A Theory of National Self-Determination. Palgrave Macmillan 2020, 386 pages.

12. Territorial Separatism in Global Politics: Causes, Outcomes and Resolution, edited by Damien Kingsbury and Costas Laoutides. First published by Routledge 2015, 194 pages.

13. Unrecognised Subjects in International Law, edited by Władysław Czapliński and Agata Kleczkowska. Warsaw, Scholar Publishing House, 2019, 402 pages.

14. Сергей Николаевич Бабурин, Территория государства: правовые и геополитические проблемы. Издат. Московского Унив., 1997 - Всего страниц: 477.

15. Сборник материалов Нюрнбергского процесса над главными немецкими военными преступниками в двух томах, под редакцией К.П.Горшенина (главный редактор), Р.А.Руденко, И.Т.Никитченко, Москва, Государственное издательство Юридической литературы, 1954., в двух томах., Т- II. 1156 с.

LEGAL APPROACHES TO THE RESOLUTION OF THE PROBLEM OF TERRITORIAL SEPARATISM

Ramin Aliyev[*]

Abstract

The aim of this paper is to study the concept of separatism in a global and highly chaotic contemporary world. Separatism, as a rule, is understood as "a withdrawal of a given social group and its territory from the political entity known as the state". The principal challenge in this issue is that it is almost impossible to define separatism as the punishable act under criminal law (crime) at the international legal level. From that point of view, this paper analyzes some manifestations of separatism and examines the constitutional-legal and criminal-legal aspects of the fight against separatism.

Keywords: *separatism, conflict, war, law responsibility, territorial integrity, inviolability of borders.*

[*] LLM (Baku State University), Master of Society law and Religion (KU Leuven)

***Ramin Əliyev*.** Ərazi separatçılığı probleminin həllinə hüquqi yanaşmalar// Azərbaycan Hüquq Jurnalı. 2023(№2), s.67-73

ПРАВОВЫЕ ПОДХОДЫ К РЕШЕНИЮ ПРОБЛЕМЫ ТЕРРИТОРИАЛЬНОГО СЕПАРАТИЗМА

Рамин Алиев[*]

Резюме

Целью данной статьи является исследование понятия сепаратизма в современном глобальном и весьма хаотичном мире. Как правило, сепаратизмом понимается «выход социальной группы и занимаемой ею территории из-под юрисдикции государства, частью которого она является». Основную сложность в данном вопросе составляет почти невозможность определения сепаратизма как уголовно наказуемая деяния (преступления) на международно-правовом уровне. Поэтому в статье анализируются некоторые проявления сепаратизма и рассматривается конституционно-правовые и уголовно-правовые аспекты борьбы с сепаратизмом..

Ключевые слова: *сепаратизм, конфликт, война, юридическая ответственность, территориальная целостность, нерушимость границ.*

[**] магистр права (Бакинский Государственный Университет), магистр общества, права и религии (Лёвенский Католический Университет)

Məhparə Fətullayeva. Mülki hüquq və azadlıqlar sahəsində beynəlxalq standartların Azərbaycan Respublikasının konstitusiyasına implementasiyası// Azərbaycan Hüquq Jurnalı. 2023(№2), s.74-78

MÜLKİ HÜQUQ VƏ AZADLIQLAR SAHƏSİNDƏ BEYNƏLXALQ STANDARTLARIN AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINA İMPLEMENTASİYASI

Məhparə Fətullayeva*

Xülasə

Bu məqalədə insan hüquqlarının yaranma tarixinə, insan və cəmiyyət arasındakı münasibətlərə, habelə dövlətimizdə insan hüquqlarının formalaşmasına toxunulmuşdur. Məqalədə insanın mülki hüquq və azadlıqlarının beynəlxalq-hüquqi normalarda təsbiti və bu normaların Azərbaycan Respublikası Konstitusiyasına implementasiyası öz əksini tapmışdır.

Açar sözlər: *insan hüquqları; əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi; mülki hüquq və azadlıqlar; beynəlxalq standartlar; implementasiya*

Dünyanın özü kimi qədim olan, cəmiyyətlə birgə yaranan insan hüquqları ideyasının fəlsəfi əsaslarının işlənib hazırlanması və bu ideya uğrunda səmərəli mübarizənin aparılması mütəmadi hala çevrilmişdir. Qeyd etmək lazımdır ki, insanın istər cəmiyyət, istərsə də dövlət tərəfindən pozula bilməyən hüquqlara sahib olması ilə bağlı ideya insan cəmiyyətinin yarandığı dövrlərdən meydana çıxmışdır.

İnsan hüquqlarının təmin olunması tələbi insanlarla dövlətin qarşılıqlı münasibətlərinin təbiətindən irəli gələrək, siyasi, hüquqi və sosial tərəqqinin əsas şərti hesab olunur. İnsan hüquqları tarixinin ətraflı və geniş şəkildə öyrənilməsi onun tərkib hissəsi olduğu beynəlxalq hüququn tarixi inkişafı ilə sıx bağlıdır. Tarixən insan hüquqları müstəqil, hörmət, ləyaqət, bərabərlik, azadlıq, ədalət kimi ortaq dəyərlərə əsaslanır, qanunla müəyyən edilir və qorunur. Beynəlxalq hüququn yaranıb inkişaf etməyə başladığı ilk dövrdə də insan hüquqları yalnız dövlətlərin daxili yurisdiksiyasına aid olan məsələ kimi qəbul edilmişdir. Belə ki, həmin dövrdə dövlətlər siyasətlərində "mütləq suverenlik" nəzəriyyəsinə arxalanırdılar.

Müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikasında da insan hüquqlarının müdafiəsi istiqamətində mühüm addımlar atmışdır. Belə ki, 18 oktyabr 1991-ci tarixində Azərbaycan Respublikasının Ali Soveti tərəfindən qəbul edilmiş Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktının 19-cu maddəsində dövlətimiz Ümumdünya İnsan Hüquqları Bəyannaməsini qəbul etdiyini elan etmişdir.

Azərbaycan dövləti, bir tərəfdən, insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlara - 30 yanvar 1992-ci il tarixində ATƏT-ə, 02 mart 1992-ci il tarixində BMT-yə və 25 yanvar 2001-ci il tarixində isə Avropa Şurasına üzv qəbul edilməklə yanaşı, insan hüquqları sahəsində qəbul edilmiş əksər beynəlxalq müqavilələrə, o cümlədən 1966-cı il tarixli

* hüquq üzrə fəlsəfə doktoru, dosent

Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1950-ci il tarixli İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə 1984-cü il tarixli Konvensiya, Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il tarixli Konvensiya, Köləlik haqqında 1926-cı il tarixli Konvensiya, İcbari və ya məcburi əmək haqqında 1930-cu il tarixli BƏT Konvensiyası, Köləliyin, qul ticarətinin və köləliklə oxşar institut və adətlərin ləğv edilməsi barədə 1956-cı il tarixli Əlavə Konvensiya, Milli azlıqların müdafiəsi haqqında 1995-ci il tarixli Avropa Çərçivə Konvensiyası, İşgəncələrin, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında 1987-ci il tarixli Avropa Konvensiyası, İnsan Alverinə qarşı mübarizə haqqında 2005-ci il tarixli Avropa Konvensiyası və digərlərinə qoşulmuşdur. Digər tərəfdən isə, bu öhdəliyi yerinə yetirmək məqsədilə beynəlxalq hüququn ümumtanınmış normalarının və tərəfdar çıxdığı beynəlxalq standartların Azərbaycan Respublikası qanunvericiliyinə implementasiyası və bu sahədə mövcud beynəlxalq standartlara uyğun olaraq öz dövlətdaxili qanunvericiliyini yaratması olmuşdur. Şübhəsiz ki, bu prosesdə ilk mühüm addım müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu oldu. [1]

Əbədiyaşarlıq zirvəsinə yüksəlmiş fenomen şəxsiyyətlər bir xalqı təmsil etməklə yanaşı, ümumbəşəri ideyaların daşıyıcılarına çevrilmiş, öz möhürlərini tarixə vurmuşlar. Cəmiyyətin ən müxtəlif sahələrində nizam-intizamın, haqq-ədalətin təminatına çalışan, bunu formula çevirən Heydər Əliyev dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlılıq yaratmışdır.

Ümummilli lider Azərbaycanın perspektiv inkişafını düzgün müəyyənləşdirərək sivil Qərb və Şərq dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsinə, demokratik ənənələrin daha da möhkəmləndirilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə və etibarlı təminatına hər zaman xüsusi diqqətlə yanaşmışdır.

Azərbaycanda insan hüquqlarının təminatlı formalaşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. İnsan hüquqları amili Ulu Öndər Heydər Əliyev fəaliyyətinin əsası olmuşdur ki, bu da bilavasitə onun rəhbərliyi və təşəbbüsü ilə kifayət qədər normativ hüquqi sənədlərin qəbul edilməsi ilə nəticələnmişdir. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə qəbul edilən 21 aprel 1978-ci il tarixli Konstitusiyanın ikinci mühüm bölməsi dövlət və şəxsiyyət münasibətlərinə həsr edilməklə insan hüquqlarına həsr edilmişdir. Belə ki, vəzifəli şəxslərin hərəkətlərindən şikayət vermək hüququ, şərəf və ləyaqətə qarşı törədilən qəsdlərdən məhkəmə müdafiəsi hüququ, sağlamlığın mühafizəsi hüququ, mənzil hüququ, mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququ, yaradıcılıq azadlığı və sair bu kimi hüquqlar Konstitusiyada təsbit olunmuşdur.

1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər dövlətimizdə insan hüquqlarının təminatlı sisteminin əsasını qoymuş oldu və onu ümumdövlət vəzifəsi hesab etdi.

Ulu Öndərin təşəbbüsü ilə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas müddəalarını özündə əks etdirən müstəqil Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə Konstitusiyası qəbul edildi. 5 bölmə, 12 fəsil və 158 maddədən ibarət olan ilk Konstitusiyasının qəbul edilməsi Azərbaycanın dövlət və hüquq tarixində mühüm hadisələrdən biridir. Məhz milli dövlətin formalaşmasında, demokratik və hüquqi dövlət quruculuğu yoluna qədəm qoymasında, habelə hüquq sisteminin və milli qanunvericiliyin inkişafında Konstitusiyanın rolu əvəzsizdir. İnsan hüquqlarının və azadlıqlarının müdafiəsini, təminatını həyata keçirə bilməyən bir dövləti "demokratik" və "hüquqi" hesab etmək qeyri-mümkündür.

İnsan hüquqlarının qorunmasını dövlətin ali məqsədi hesab edən Azərbaycan Respublikasının Konstitusiyasında beynəlxalq hüquq normalarının primatlığını qəbul edən kifayət qədər müddəalar vardır. Belə ki, Konstitusiyanın 12-ci maddəsinin 2-ci hissəsində deyilir ki, bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Konstitusiya bu deklarativ norma ilə kifayətlənməyərək, 71-ci maddədə insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləməyi və qorumağı qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə bir vəzifə olaraq qoyur. [2, s.12] Konstitusiyada təsbit olunmuş bu strateji məqsəd, ilk növbədə, hüquq islahatları və insan hüquqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri etdi.

Məhz müstəqil Konstitusiyanı özündən əvvəlki sovet Konstitusiyalardan əhəmiyyətli dərəcədə fərqləndirən əsas xüsusiyyətlərindən biri insan və vətəndaşın hüquqlarına və azadlıqlarına geniş yer verməklə, habelə beynəlxalq təcrübə nəzərə alınmaqla əsas insan və vətəndaşın hüquqlarının və azadlıqlarının təsbit edilməsi, həmçinin əsas insan və vətəndaşın hüquqlarının və azadlıqların həyata keçirilməsi, təmin edilməsi və müdafiəsi üçün zəruri olan müvafiq icra mexanizinin yaradılmasıdır.

İnsan hüquqları üzrə çoxsaylı beynəlxalq sənədlərin təhlili göstərir ki, müasir beynəlxalq hüquqda universal norma mövcuddur, elə bir norma ki, məhz ona əsasən dövlətlər irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, bütün insanlar üçün əsas insan hüquqları və azadlıqlarına hörmət etməyə borcludurlar.

Qeyd etmək lazımdır ki, ölkəmizdə "insan hüquqlarının, o cümlədən insan hüquqlarının dövlət tərəfindən müdafiə edilməsi prinsipinin təsbit edən ilk hüquqi sənəd isə Milli Şura tərəfindən 1918-ci ildə qəbul edilmiş İstiqlal bəyannaməsi oldu. Həmin bəyannamənin 4-cü bəndinə görə "Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində bütün vətəndaşlarına siyasi və vətəndaş hüquqlarını təmin edir."

Azərbaycan Respublikasında mülki hüquqların müdafiəsi sahəsində qanunvericilik bazasının formalaşdırılmasında Konstitusiyanın aşağıdakı normaları əsas yer tutmuşdur:

- Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan III fəslində fundamental mülki hüquq və azadlıqlar bəyan edildi;

- Konstitusiyanın "Dövlətin əsasları" adlanan II fəslin 12-ci maddəsində "insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olduğunu" bəyan edildi;

- Konstitusiyanın 24-cü maddəsində insan hüquqlarının fundamental prinsiplərinin - "insan ləyaqəti və ona hörmət, habelə hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqlarının"olmasını bəyan etdi;

- Konstitusiyanın 26-cı maddəsinin 2-ci hissəsində hər kəsin hüquqlarının və azadlıqlarının dövlət tərəfindən müdafiəsinə təminat verdiyini bəyan etdi;

- Konstitusiyanın 71-ci maddəsində "insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu" olduğunu, habelə 71-ci maddəsinin 5-ci və 6-cı bəndlərinə əsasən Konstitusiyanın heç bir müddəasının insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməməsi və Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqlarının birbaşa qüvvədə olması müəyyən edildi;

- Konstitusiyanın 148-ci maddəsinin 2-ci hissəsi ilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi kimi qəbul edilməklə faktiki olaraq həmin müqavilələrdə əks olunan beynəlxalq standartların Azərbaycan Respublikasının qanunvericiliyinə inkorporasiyası bəyan edildi;

- Konstitusiyanın 12-ci maddəsinin ikinci hissəsində "insan və vətəndaş hüquqlarını və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edildiyi", 151-ci maddə də isə beynəlxalq müqavilələrin Azərbaycan Respublikasının qanunvericilik sisteminə aid olan normativ hüquqi aktlardan üstün qüvvəyə malik olması göstərilmişdir. Yalnız Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktların bu qaydada istisnalıq təşkil etdiyini müəyyən etdi.

Belə ki, Konstitusiyanın qəbulundan keçən 28 il ərzində Azərbaycan Respublikasının Konstitusiyasına üç dəfə - 24 avqust 2002-ci il, 18 mart 2009-cu və 26 sentyabr 2016-cı il tarixllərində azərbaycan xalqı ümumxalq səsverməsi (referendum yolu ilə) dəyişikliklər edərək, mülki hüquq və azadlıqların təmin və müdafiə edilməsinə yönəldilmiş müxtəlif səpkili və statuslu normativ hüquqi aktlar - məcəllələr, konstitusiya qanunları, qanunlar, qaydalar və s. qəbul edilmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası bu sahədə məsuliyyətinin artırılması məqsədilə qəbul edilmiş beynəlxalq sənədlərin icra mexa-

nizmləri dəqiq normalaşdırılması, onların səmərəli milli-hüquqi implementasiyası üçün müvafiq tədbirlər həyata keçirir və milli qanunvericilik çərçivəsində məsuliyyət tədbirlərini gücləndirir.

Yuxarıda aparılmış təhlildən göründüyü kimi insan hüquqlarının, o cümlədən mülki hüquq və azadlıqlar dövlətdaxili hüququn institutu kimi yaranmış və inkişaf etmişdir.

İstinadlar:

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016. 91 s.
2. Cəfərov. İ Azərbaycan Respublikası Konstitusiyasının şərhi, Bakı, 2010. 723 s.

IMPLEMENTATION OF INTERNATIONAL STANDARDS IN THE FIELD OF CIVIL RIGHTS AND LIBERTIES TO THE CONSTITUTION OF THE REPUBLIC OF AZERBAIJAN

Mekhpara Fatullayeva[*]

Abstract

In this article, the historical development of human rights, the relationship between a man and society, as well as the formation of human rights in our country have been touched upon. In the article, the determination of human civil rights and liberties in international legal norms and the implementation of these norms in the constitution of the Republic of Azerbaijan are reflected.

Keywords: *Human rights; the principle of respect for human rights and fundamental freedoms; civil rights and liberties; international standards; implementations.*

ИМПЛЕМЕНТАЦИЯ МЕЖДУНАРОДНЫХ СТАНДАРТОВ В ОБЛАСТИ ГРАЖДАНСКИХ ПРАВ И СВОБОД В КОНСТИТУЦИЮ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Мехпара Фатуллаева[**]

Резюме

В данной статье затронута история создания прав человека, взаимоотношения человека и общества, а также становление прав человека в нашей стране. В статье отражено определение гражданских прав и свобод человека в международно-правовых нормах и реализация этих норм в Конституции Азербайджанской Республики.

Ключевые слова: *права человека; принцип уважения основных прав и свобод человека; гражданские права и свободы; международные стандарты; имплементация.*

[*] Ph.D. in Law

[**] доктор философии по праву

HÜQUQ VƏ İQTİSADİYYAT

О НЕКОТОРЫХ ПРОБЛЕМАХ МЕЖДУНАРОДНО-ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ ТОРГОВО-ТРАНСПОРТНОЙ ДЕЯТЕЛЬНОСТИ СОВРЕМЕННЫХ ГОСУДАРСТВ

Октай Эфендиев*

Резюме

В статье рассматниваются актуальные проблемы современных внешнеэкономических связей государств и международных торгово-транспортных перевозок. Решение этих неотложных политко-экономических проблем и задач видится не только в необходимости учёта реалий в глобальном масштабе, но и в позиции мирового сообщества, в его усилиях, на различных политико-экономических уровнях, по формированию тесного, на международно-правовых основах, взаимовыгодного сотрудничества и равноправного партнёрства, в том числе, в области транспортной безопасности.

Ключевые слова: *глобализация внешнеэкономических связей; межконтинентальные коридоры и мировой рынок товаров; регион Южного Кавказа; транспортировка нефти, энергоносителей; Договор к Энергетической Хартии ООН.*

Проблемы становления и развития эффективных, равноправных и взаимовыгодных внешнеэкономических межгосударственных отношений всегда были и остаются приоритетными для современных, международно-правовых субъектов, в том числе Азербайджанской Республики, являющейся одним из активных участников в актуальных вопросах создания межконтинентальных коридоров для транспортировки различных энергоносителей, полученных из возобновляемых источников. [1] В данном случае, особое значение и смысл имеют не только необходимость приверженности действующим международно-правовым принципам взаимодействия и партнёрского сотрудничества заинтересованных стран, но и само, конкретное осуществление процесса строительства, нап-ример, транспортно-энергетического коридора (пути), имею-щего целью, в частности, связать евроазиатские государства через азербайджанскую или другую благоприятно-располагающуюся географическую территорию.

Очевидно, и фактически бесспорно, что азербайджан географически, будучи естественным мостом на евро-азиатском пространстве, имеет уникальное геополитическое местоположение, которое являетсяя весьма выгодным как для прохождения различных пассажирских, товарно-грузовых потоков, так и прокладывания новых, боле перспективных транспортных путей и торговых коридоров. Это завидное для многих стран природное преимущество, особенно приоритетно для Азербайджана, поскольку транспорт, как известно, являясь составной частью мировой экономики, рассматривается в качестве межгосударственного материального носителя,

* доктор юридических наук, профессор

а его специализация, комплексное развитие, фактически, невозможны без разветвлённой транспортной системы.

Наряду с этим, обращают на себя внимание отдельные идеи и инициативы по созданию нового транспортно-экономического коридора (НТЭК), предложенные, например, на саммите (G-20, Нью-Дели, сентябрь 2023 г.), о необходимости запуска такого коридора, как устойчивой модели для всего мира, связывающего Индию, Ближний Восток-Европу, и даже, при сотрудничестве с США, с целью противопоставления китайской инициативе «Один пояс - один путь». Примечательно, что целью проекта создания данного НТЭК является, по - существу его замысла, замена так называемого Китайского «срединного пути», стимулирование транспортно-торговых связей в интересах расширения и углубления интеграции, как видно, между странами Азии, Персидского залива и Европы. В конкретном плане, речь идёт о том, что в рамках этого проекта предполагается построить разветвлённую сеть железных дорого с целью увеличения пропускной способности маршрутов перевозки экспортно-транзитных грузов и товаров, развития портовой инфраструктуры, а также создание систем для передачи данных и электроэнергии, участвующим в проекте странам. Отдельно запланировано внедрение информационно-коммуникационных технологий, строительство сети трубопроводов для транспортировки водорода и другие новшества.

Особенностью данного проекта, состоящего из двух транспортных коридоров («восточного»), соединяющего Индию со странами Персидского залива и «северного», Персидский залив со европейскими государствам, является, как видно, недальновидный и малоперспективный обход южно-кавказских стран и, очевидное исключение из него Азербайджана, а также игнорирование Армении, через которую Иран и Индия собираются проложить свой, так называемый транспортный маршрут «Север-Юг».

Не представляет трудности понять, во-первых, что высокую заинтересованность в последующей реализации «нового маршрута», активно поддерживаемого западными странами, добивающиеся ослабления позиции КНР и укрепления позиции Индии, что поэтому НТЭК будут перевозиться огромное количество товаров и грузов, перемещающихся в восточно-западном направлении.

Во-вторых, в сугубо амбициозном плане, данный проект, альтернативный «китайскому», устраивает всех его участников и, в первую очередь Индию, с давних пор, проявляющей повышенный интерес к подобному коридору, в значительной мере снижающей значимость проекта «Север-Юг», а также из-за позиции и нежелании западных стран привлекать в проект Российскую Федерацию.

В-третьих, по разным причинам и обстоятельствам, в стороне от транспортно-экономических проектов современности, глобальных маршрутов слишком долго оставалась Саудовская Аравия и другие соседние

страны, (Эмираты, Иордания, Израиль) давно готовые на крупные капиталовложения.

В-четвёртых, несмотря на сложности и масштабности НТЭК, растущее, исключительное значение приобретает так называемый, ныне действующий так называемый «срединный транспортный коридор». Проходящий через территорию Азербайджана, который в состоянии не только набрать растущие торгово-экономические обороты, но и, в обозримой перспективе, готов серьёзно конкурировать с выдвинутой инициативой по созданию «индийско-западного» коридора. Очевидно и то, что участие в новом проекте «сильнейших экономик мира» не будет способствовать полному перемещению «Великого шёлкового пути» на южное направление.

В-пятых, нельзя не учитывать и то обстоятельство, что «индийский» проект (НТЭК) основывается на большом количестве структурных элементов, которые так или иначе являются составными частями международных транспортных коридоров «Восток-Запад» и «Север-Юг», что, в свою очередь, свидетельствует о том, что основной задачей альтернативного, «антикитайского» маршрута является не столько развитие глобальной логистики, сколько сдерживание КНР, которая, по существу, последовательно и многие годы продвигает свои политико-экономические интересы, уверенно преодолевая воздвигаемые на её пути барьеры.

Особо не вдоваясь в подробности в намерения Китайской Народной Республики, можно напомнить, что ещё в 2013 г., её лидер Си Цзиньпин выдвинул инициативу «один пояс - один путь», которая не только символически воссоздавала древний «Шёлковый путь», но и была нацелена на выход на мировой торговый рынок, и если точнее, на рынки Центральной Азии, Ближнего Востока, Европы, Африки и других регионов, и предусматривала как повышение активизации международных торгово-инвестиционных проектов с участием большого количества государств, так и использование их капитала. Как известно, к этой инициативе за прошедшее десятилетие присоединилось подавляющее большинство государств и международных организаций. Но ещё тогда, небольшое количество государств, выступили с идеей создания альтернативного, межконтинентального торгово-экономического коридора (пути, маршрута).

Кроме того, особое недовольство по поводу «индийский» (по-существу антикитайского) проекта НТЭК незамедлительно выразила Турция, подчеркнув невозможность его реализации, как одна из активных участниц существующего проекта «один пояс - один путь», не только являясь важной производственной и торговой базой этого связующего восточно-западного маршрута, но и справедливо подчеркивая при этом, серьёзные и растущие торгово-экономические достижения КНР. Более того, Турция достаточно цивилизованно, справедливо и целенаправленно исходит из необходимости создания нового транспортно-энергетического коридора в Европу через собственную территорию, Ирак, Катар, Абу-Даби, как допол-

нительный путь развития к благополучию и безопасности. Очевидно и то, что, если в участии к этой инициативы не приглашена Турция, значит, весь «индийский путь» будет урезан только до морского маршрута.

Другой политико-экономический ньанс, по смыслу (проиндийского) проекта НТЭК, поддерживаемого США и Саудовской Аравией, заключается в том, чтобы злонамерено исключить из него не только «недружественный» Азербайджан, но и «дружественную» Армению, через которую Иран и Индия, по некоторым сведениям и признакам, намерены проложить маршрут «Север-Юг». Предусмотрена была также прокладка газопроводов из Израиля в Европу.

При всё этом обращает на себя внимание тот факт, что создатели концепции так называемого «индийского маршрута» игнорировали обстоятельства, касающиеся сегодняшних реалий, именно то, что без разнообразия, разностороннего развития внешненэкономических связей, попросту говоря, их диверсификации, и привлечения зарубежных инвестий, в первую очередь со стороны КНР, в национальные экономики, конкретно, ближневосточных стран, также как и западных технологий, весьма сомнительно будет сделать, например, ощутимый и эффективный рывок в социально-экономическом развитии, а также добиться качественного повышения их жизненного уровня, того о чём пока безуспешно добиваются многие арабские страны, включая Саудовскую Аравию и ОАЭ. Учитывая изложенные соображния, можно предположить, что «индийский маршрут», при активной поддержке со стороны США, по мнению многих других стран, арабским «партнёрам» менее выгоден, чем «китайский путь». А если исходить из задач и интересов Турции, Азербайджана и других государств южно-кавказского региона, учитывая некоторые противоречия, то вполне становится очевидно содержание американского приоритета политико-экономического характера, направленного на ослабление позиций России.

Нельзя не отметить и тот важный фактор, что инициатива проталкивания «индийского маршрута», при всей её масштабности, вызывает больше вопросов, чем даёт конкретных ответов. Поэтому можно также утверждать, что данная инициатива является (или станет) альтернативной «китайскому пути», или «один пояс - один путь», должна быть испытана временем, поскольку до конца не ясно и трудно предсказать, как она всё-таки может быть реализована.

Так или иначе, кратко резюмировая данную проблему, можно отметить, что реализация «одного пояса и пути» происходит в условиях активного и организованного сопротивления антикитайски настороенных как местных, так и глобальных торгово-экономических элит, действия которых носят скоординированный и масштабный характер.

Разумеется, достижение отмеченных целей не может и не должно оставаться вне решения первостепенных проблем, касающихся националь-

ной безопасности, международно-правового сотрудничества государств в их различных сферах, в том числе, транспортной, экологической, информационной и другого вида безопасности, как составной части международной безопасности. [2] Нельзя не учитывать и фактор, касающийся достижений науки и техники, являющихся, в конечном счёте, основными компонентами экономического роста и развития государств, а также их национальной безопасности.

Исходя именно этих принципиальных соображений, нельзя не учитывать и другие возникающие в современных международных внешнеэкономических связей государств серьёзных факторов, как например, касающихся научно-технических достижений, в которых немаловажная роль принадлежит, в частности информационно-коммуника-ционных технологий (ИКТ), которые оказывают всё большое влияние на культурный, экономический, политический и военно-стратегический аспекты жизни общества.

Не вызывает каких-либо сомнений и то обстоятельство, что именно конец XX - начало XXI веков является переходным этапом от индустриального общества к информационному, в основе которого лежат новейшие технологии и средства. Очевидно и то, что огромные успехи развития ИКТ привели к тому, что мир стал постепенно двигаться к построению информационного общества, или общества знаний, в котором главным условием благополучия каждого человека и государства становится знание, полученное благодаря беспрепятственному доступу к информации и умению с ней работать.

Таким образом, в настоящее время информационную сфера стала оказывать всё большое воздействие на систему социальных отношений государства, индивидуальное и массовое сознание общества, стала весьма разнообразной, а значит, характеризуется высокой степенью опасности. Информационная безопасность важна как в целом для государства (борьба с информационными угрозами, киберпреступлениями и кибертерроризмом), так и для каждого человека, имея ввиду при этом проблему защиты личных данных.

Особо следует отметить, что рубеж XX–XXI веков стал периодом смены формы межгосударственных, в том числе и вооружённых, конфликтов: при помощи ИКТ нападения и агрессии могут осуществляться без привлечения армейских подразделений и использования традиционных вооружений и военной техники, с участием негосударственных субъектов. Дестабилизация экономики, подрыв суверенитета и основ государственного устройства, нарушение нормального функционирования инфраструктур могут быть достигнуты за счет применения информационных средств (проникновение в компьютерные сети, вывод из строя радаров, электронной аппаратуры, нарушение телефонной связи). Вот почему эффективное обеспечение национальной и международной безопасности не-

возможно без укрепления международной информационной безопасности (МИБ) и, прежде всего, без снижения угроз враждебного использования ИКТ.

В этом ракурсе международных внешнеэкономических отношений обеспечение энерго-топливной безопасности – проблема более чем актуальная, сложная и неотложная. Как подчеркивается в ряде принятых многосторонних документах, заявлениях последних десятилетий по проблемах глобальная энерго-топливной безопасности, всевозможные энергоресурсы имеют критически важное значение для улучшения качества жизни и расширения возможностей, открывающихся перед странами мира, как развитых, так и развивающихся. Поэтому обеспечение эффективного, надежного и экологически безопасного энерго-топливного снабжения является серьёзным вызовом для всего современного и будущего человечества. А это, в свою очередь, требует наличия политической воли всего международного сообщества эффективно решать ряд взаимосвязанных жизненных задач – энергетической, экологической, экономической, транспортной и других видов и форм международной безопасности.

С учётом данных соображений, Азербайджан, как самодостаточное государство, последовательно руководствуясь собственными национальными, политико-экономическими интересами первостепенной важности, остаётся приверженным и в вопросах обеспечения любой безопасности, в том числе магистральном виде транспорта по доставке, в первую очередь, нефтяных, газовых продуктов и других энергоносителей, осуществляемых в соответствии с принятыми законодательными документами и нормативными актами, одним из главных среди которых является Закон Азербайджанской Республики «О транспорте» (1999 г.), установивший, как известно, правовые, экономические и организационные основы транспортной деятельности. Кроме того, в документе вполне чётко отмечено, что «магистральные трубопроводы, находящиеся на территории Азербайджана, относятся к понятию транспорта, и что нефть, газ и нефтепродукты поступают в международный торговый оборот, в основном, благодаря этому виду транспорта», оговаривая при этом газо-конденсаты, перевозимые обычно в контейнерах или в других ёмкостях различными видами транспорта, что имеет особое значение не только для постоянно развивающегося процесса глобализации мирового хозяйства, но и различных интеграционных союзов.

Можно также отметить и то, что сама по себе регионализация может рассматриваться как не самая худшая альтернатива глобализирующимся процессам, как некая контртенденция самой глобализации. На наш взгляд, главное преимущество региональных образований видится в том, что они способны создать необходимые условия для разрешения многих планетарных проблем, не разрушая и не нанося вред внутринациональной специфики государственных экономик. Можно также отметить и то, что процес-

сы глобализации и регионализации имеют свою специфику и быть рассмотрены, с одной стороны, как глобализация, несущая в себе огромный интеграционный заряд, а с другой – как регионализация, которая будет способствовать экономической дифференциации государств и наднациональных образований.

Очевидно и то, что регионализация может угрожать мировой экономике, а также создать соперничающие экономические блоки и союзы и, тем самым, причинить определённый ущерб отдельным национальным экономикам соответствующих международно-правовых субъектов. Несмотря на это, как известно, практика создания и существования, к примеру, зон свободной торговли и таможенных союзов, в целом, не способствовали созданию особых проблем и сложностей в современных международных экономических отношениях, а наоборот, способствовали созданию основ «очередного», нового многополярного экономического порядка.

Важно то, чтобы, в частности, формирование региональных экономических блоков или союзов не стало бы противодействующим процессом глобализации, а скорее всего выражением общего роста активности международных экономических отношений и, конкретно, их разнообразных, возрастающих торгово-транспортных связей. Существенное значение имеет и тот фактор, что обе эти тенденции обладают одинаковой направленностью, которая заключается, например, в транснациональном расширении организованных на государственном уровне торгово-экономических областей. Вместе с тем очевидно, что региональная интеграция идёт в русле глобализационных процессов в масштабе соответствующего объединения и не должна рассматриваться как своеобразная форма противодействия всеохватывающей мировой глобализации.

Относительно национальных, торгово-экономических интересов и целей Азербайджана, как и многих суверенных стран на постсоветском пространстве, можно отметить, что жизненно важным и принципиальным был и остаётся вопрос о расширении и укреплении равноправных и взаимовыгодных связей не только друг с другом, но и такими организациями, как Всемирная торговая организация (ВТО). А это, бесспорно, согласуется с намерения, интересами нашего государства интегрировать как мирохозяйственные связи, но и в мировое торгово-экономическое пространство. Примечательно, что за последние десятилетия поэтапное урегулирование данной проблемы имеет особый смысл и уже приносит ощутимые результаты, которые так важны, в частности, в вопросах реализации нефтяных контрактов нашей страны. Оно имеет смысл как для развития национальной экономики, так и в части, например, сохранения демпинговых тарифов на транспортировку нефти. Центральным были и остаются проблемы регулирования международных транспортно-экономических отношений, транспортной безопасности в контексте эффективного обеспечения энергетической безопасности государств и интеграции их в мировое хозяйство.

Что касается проблем бесперебойной деятельности и безопасности трубопроводов Азербайджана, имеющих перво-степенное значение для экономики нашего государства, то вопросы регулирования всегда находили своё соответствующее отражение не только в нормативных документах и актах, но и в конкретных двусторонних и многосторонних соглашениях о совместной эксплуатации нефтяных месторождениях, так и в содержании документов транспортировки экспортных энергетических продуктов, предназначенных для международ-ного торгового оборота.

Азербайджан, традиционно и ответственно оставаясь приверженным решению глобальных энергетиче-ских проблем, продолжает исходить из необходимости их решения посредством урегулирования комплекса вопросов, касающихся транспортных перевозок и правоотношений, а также эффективного правового регулирования деятельности существующих и могущих возникнуть транспортно-экономических коридоров и коммуникаций согласно положениям, закреплённым в важнейших международно-правовых документах и актах современности. Одним из наиболее важных актов, как известно, является Соглашение к Договору об энергетической Хартии (ДЭХ, 1991г.), предусматривающая установление и осуществление более тесных межгосударственных торговых, транспортных связей при уважении их принципов устойчивого развития и суверенитета над энергетическими ресурсами. [3]

Краткая история создания и развития магистральных трубопроводов, находящихся на территории Азербайджанской Республики, свидетельствует о том, что трубопроводы стали не только неотъемлемой частью национальной экономики и транспортной системы государства, но и вполне благотворно осуществляют свою деятельность под его эффективным контролем. Это очевидно, например, из опыта создания и бесперебойного функционирования Основного экспортного трубопровода «Баку-Тбилиси-Джейхан или Эрзурум», организации обеспечения безопасности этих трубопроводных линий и объектов их национальной инфраструктуры в соответствии с принципами административно-территориального деления. Общемировые проблемы экологии, окружающей среды и другие глобальные факторы, угрозы и риски, всё настойчивее актуализируют необходимость обеспечения безопасности в растущих международных транспортных, в том числе трубопроводных, перевозках. [4]

